İlyas Babayev (1935-2017)

# XATİRƏLƏRDƏ

Birinci kitab

**İlyas Babayev (1935-2017) XATİRƏLƏRDƏ**
**Birinci kitab**

Tərtibçi:
Fuad İlyas oğlu Babayev,
siyasi elmlər üzrə fəlsəfə doktoru,
əməkdar jurnalist

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının 1905.az portalının nəzdindəki studiyada hazırlanmış kitabda Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, tarix elmləri doktoru, professor İlyas Babayev (1935-2017) haqqında doğmalarının və həmkarlarının xatirələri toplanıb.

*Cildin hazırlanmasında rəssam Eldar Əliverdiyevin çəkdiyi portretdən istifadə olunub.*

İSBN 978-9952-4857-7-6

© Fuad Babayev, 2018

# Tərtibçidən

Atamla bağlı xatirələrim azdı…

Əslində belə olmamalıydı.

Atam 2017-ci ilin 27 dekabrında dünyasını dəyişdi. Mənim 47 yaşıma təqribən 3 ay qalırdı. Və demək mənim ömrünün 46 ili və az qala 9 ayı atamın həyatda olduğu dünyada yaşanıb.

Amma xatirələrim azdı…

O həmişə tələsirdi. Və həmişə iş görməyə tələsirdi, işdən qaçmağa yox. Mən onu heç dincəlməyə, yeyib-içməyə, şənlənməyə tələsən görmədim.

Və mən deyəsən onun yaxın adamları ilə ünsiyyətə tələsdiyini də görməmişəm.

Gördüyüm o olub ki, atam işə tələsib, hansısa səbəblərdən işdə və qazıntıda olmayanda da özünü işdən danışmaqla ovundurmağa çalışıb.

Yaddaşımın astar üzündə ilişib qalmış xatirə qəlpəciklərindən birində Akademiya şəhərciyinin əsas binasının təmir olunduğu ayların iki-üç dəqiqəsi var… Bina təmir olunur. O cümlədən Arxeologiya və Etnoqrafiya institutunun yerləşdiyi 6-cı mərtəbə. Və demək atamın rəhbərlik etdiyi şöbənin otağı da bağlıdır. Atamsa işdədir. Birinci mərtəbədəki yeməkxananın masalarından birinin üzərinə çantasını, kağızlarını qoyub və işləyir…

O əsl iş adamı idi. Amma pul qazanmaq haqqın-

da düşünməyən iş adamı. Bakıdan Qubaya, Xanəgaha qədər yolda ancaq apardığı qazıntılardan, iştirak etdiyi elmi konfranslardan danışan və beş-on dəqiqədən bir işinin çoxluğundan gileylənən adam. İşinin çoxluğundan gileylənəndə də üzündə nəvəsinin dəcəlliyindən "şikayətçi" olan baba ifadəsi olan iş adamı.

İndi onun vəfatından az qala bir il keçir.

Əsl Alim İlyas Babayevin işdə olmadığı birinci il arxada qaldı.

Arxada qalan il həm də birinci "İlyas Babayev (1935-2017) xatirələrdə" kitabının yazıldığı il oldu…

## Qəzəl

*Dünən İlyas dostumuz vəfat etdi.*
*Bu gün onun dəfninə gedərkən maşında bu şeiri yazdım.*

Sevdiyi dünyasını tərk etdi İlyas dostumuz,
Qəlbimizdə qalsa da, ah, getdi İlyas dostumuz.

Bisəbəb bir kimsə dünya mülkünə gəlməz qəti,
Yoxdu şəkk, Allahdan dəvətdi, İlyas dostumuz!

Çox-çox illər qazdı torpaq, açdı torpaq sirrini,
Qazdığı hər torpağa şöhrətdi İlyas dostumuz.

Bir salam et İlyas adlı sən Nizami şairə,
Yad elə çox alimi, fürsətdi, İlyas dostumuz.

Müxbir üzvü olmusan elm aləminin, mərhəba!
Qədrini, əlbət, bilən dövlətdi, İlyas dostumuz!

Dəfninə getməkdəyik Fəxrəddin ilə biz bu gün,
Gözlə, gəllik yanına, növbətdi, İlyas dostumuz!

Kəndini yad eyləyərdin il boyu illərlə sən,
Xanəgahə yoxluğun zillətdi, İlyas dostumuz!

Qış çağında toplaşıb millət gəlibdir dəfninə,
Qədrini yüksək tutan millətdi, İlyas dostumuz!

Biz də bir gün aləmi tərk eylərik, amma bu gün
Səndən ayrılmaq bizə zillətdi, İlyas dostumuz!

Var gümanim ki, tapar cənnət bağında öz yerin,
Şahina, zənn etmirəm ki, itdi İlyas dostumuz!

*Şahin Fazil*
*28 dekabr 2017*
*Bakı-Quba-Xanəgah yolu*

# Atam haqqında

Oğlum Faiqə!
Oğlum arzum budur böyüyəndə sən,
Bəşəri hissləri duya biləsən!
Sevəsən zəhməti, eli, obanı,
Biləsən nədədir həyatın canı.
Zəhmətin bar verən bir ağac olsun,
Şöhrətin günəş tək göyə ucalsın!
Həyatda tutduğun mövqeyinlə sən,
Başını dik tutub gəzə biləsən.

Yuxarıdakı şeirini atam İlyas Babayev 3 noyabr 1969-cu ildə, mənim yeddi yaşım olanda Oktyabr bayramı (o dövrdə ciddi qeyd olunan bayramlardan biri idi) münasibəti ilə mənə verdiyi təbrik açıqcasına yazmışdır. Ümumiyyətlə bu bəlkə də onun yaradıcılığında rastımıza keçən yeganə şeiridir. Hər halda şəxsən mən başqasını görməmişəm. Maraqlıdır ki, şeirdə mənə ünvanladığı arzulara onun öz həyatında çatmış olduğunu onu tanıyanların əksəriyyəti təsdiqləyə bilər.

Ümumiyyətlə xatirə yazmağın, xüsusən ata haqqında yazmağın çətinliyi haqqında söhbət gedən şəxsi həm tənqidə məruz qoymamağa, həm də idealizə etməməyə çalışmaqdadır. Qardaşım Fuadın təşəbbüsü ilə hazırlanan bu kitabda da

mən atamın nə elmi fəaliyyətini, nə də həyatını bütünlükdə təsvir etmək fikrində olmayaraq bəzi məqamlara toxunmaq fikrindəyəm.

Atam hələ körpə olarkən atası Atababa kişi dünyasını dəyişdiyindən atasız, anası Əsmər xanımın qayğısı və himayəsi altında böyümüşdr. Bizim tərbiyəmizdə də o sərt yanaşmadan uzaq olmuş, bizə hələ uşaq yaşlarımızdan daha çox tərəf müqabili kimi yanaşmışdır. Amma onun yumşaq şəkilli tənqidləri bəlkə də əl qaldırmasından daha çox səmərəli olurdu. Uşaqlıqda bir dəfə mənim indiki "İçərişəhər" metro stansiyasının qarşısındakı yeraltı keçiddən yox, yolun üstündən keçdiyimi uzaqdan görüb, sonra evdə məzəmmət etməyi (sadəcə o hərəkəti məndən gözləmədiyini demişdi) hələ də yadımdan çıxmır.

Əslində onu dindar adlandırmaq olmazdı. Amma o bütün həyatı boyu məşhur hədisdə deyildiyi kimi hətta ona pislik edənlərə də yaxşılıq etməkdən usanmırdı. "Yox" deyə bilmədiyinə, məccani işlərlə özünü həddən artıq yüklədiyinə və bu zaman özünün istər yaxınları ilə ürəyi istəyən qədər ünsiyyət saxlamağa, istərsə də elmi yaradıcılığı ilə məşğul olmağa daha az vaxtı qaldığına görə onu tənqid də edirdik. Xüsusən hərdən ona çox iş tapşırıldığından şikyətləndiyi zaman. Amma onda da anlayır, indisə daha çox başa düşürəm ki, elə olsaydı o hamının tanıdığı İlyas müəllim olmazdı.

Məncə insanları kim üçün yaşamaları baxımından üç qismə ayırmaq olar. İnsanların bir qismi yalnız özləri üçün yaşayır. Dünyalarını da dəyişəndə onlar üçün yalnız ən yaxın adamları heyfsilənirlər. İnsanların çox hissəsi öz ailələri və yaxınları üçün yaşayır və bəlkə də bütün hərəkətlərini bununla izah edirlər. Təbii ki, bu dünyadan köçəndə onların yeri ilk növbədə həmin adamların arasında görünür. Üçüncü daha azsaylı qismə mənsub insanlar isə həm də hamı üçün yaşayırlar. Buna görə də onlar bizim dünyamızı tərk edəndə yerləri hamı üçün görünür və onlar haqqında "kisəmizdən getdi" deyilir. Mənə elə gəlur ki, İlyas müəllimi üçüncü qismə aid etsəm heç də səhf etmərəm.
Onun təvazökarlığı və düzlük tərəfdarı olması bəzən hətta sadəlövhlük səviyyəsində olurdu. Yadımdadır ki, onun 70 və 80 illik yubileylərini keçirəndə ciddi müqaviməti ilə  qarşılaşmış və onu demək olar ki, fakt qarşısında qoymalı olmuşduq.

Atamın bəzi fikirləri hətta aforizm səviyyəsində mənalı və ibrətamiz olardı. Məsələn gənclərə deyirdi ki, müəyyən yaşa qədər puldan qaçmağı bacarsan, sonralar pul özü sənə tərəf gələcək. Yaxud həyatda  kömək, təkan barədə deyirdi ki, arxadan yönəldilən adam heç olmazsa ayağını qaldırmalıdır ki, irəli addım atmış olsun, əks təqdirdə üzü üstə yıxıla bilər.

Öz həyatı ilə düz yaşamaqla ucalmağın müm-

künlüyünü sübut etmək heç də hər adama qismət olmur.

Uzun illər ali məktəbdə dərs demiş İlyas müəllim həmişə alim, müəllim adlarını uca tuta bilmişdi. Çox maraqlıdır ki, həyatım boyu bir neçə dəfə keçmiş tələbələrinin onun adını nümunəvi bir müəllim kimi çəkmələrinin şahidi olmuşam. Bu zaman onlar mənim üçün doğma olan bir adam haqqında danışdıqlarını sonradan bilmişdilər.

Uşaqlığımda axşamlar mənim yuxuya getməyimdən əvvəl atamın mənimlə ən müxtəlif elmi-kütləvi, siyasi mövzularda apardığı söhbətlər yadıma düşür. Xüsusən gün ərzində necə yorulduğunu indi daha yaxşı başa düşdüyümdən onun hövsələsi, həvəsi məni heyrətləndirir. Eyni zamanda o vaxtlar onun maddi imkanı elə yüksək olmasa da, elmi ədəbiyyatla yanaşı, elmi-kütləvi jurnalları və kitabları da almağa vəsait tapır və bizi də onlarla tanış olmağa həvəsləndirirdi. Uşaqlıqda yaranan həmin həvəssə sonralar adamı adətən tərk etmir.

Atamın öz yurduna, doğma kəndinə olan bağlılığı, sevgisi də xüsusilə vurğulanmalıdır. Buna baxmayaraq bu onun elmi fəaliyyətinə elə də təsir etməmişdi. Belə ki, o həyatını doğma rayonu Qubanın yox, Qəbələnin tədqiqinə daha çox həsr etmişdi. Maraqlıdır ki, dünyaya göz açdığı Xanəgah kəndindən 1953-cü ildə Bakıya ali təhsil almağa gəlməsindən ömrünün sonuna 2017-ci ilə qədər öz

kəndində düz bir ay fasiləsiz qalması məhz 2002-ci ilə, Xanəgahda arxeoloji ekspedisiyada olması ilə üst-üstə düşür.

Haçansa müdriklərin belə bir fikrinə rast gəlmişəm ki, insan  valideynlərini yalnız itirən zaman tam şəkildə böyüyür. Bu nöqteyi-nəzərdən məni böyüdən İlyas müəllim bir il öncə dünyasını dəyişdikdə  mən  daha da böyüdüm . Ömrümün qalan hissəsini onun adına layiq yaşaya bilsəm, hansısa başqa mükafata iddia etməyimə ehtiyac qalmaz.

*Faiq Babayev,*
*İlyas Babayevin oğlu*

## Sadə insan, səmimi dost, böyük alim

Azərbaycan arxeoloqlarının ağsaqqalı, sadə, səmimi və çalışqan insan olan İlyas Babayev artıq bir ilə yaxındır ki, aramızda yoxdur. Hər zaman böyüklə böyük, kiçiklə kiçik olmağı bacaran bu xoşxasiyyət insanın dostluqda, yoldaşlıqda tayı-bərabəri yox idi. Hər dəfə komanda halında səfərlərdə, elmi ezamiyyətlərdə, xüsusən də arxeoloji qazıntılarda olarkən işin ən ağırını öz üzərinə götürərdi. Səhərlər hamıdan, hətta aspirantlarından da tez durar, növbəti iş gününün bütün hazırlıqlarını özü görərdi.

Qeybətdən, dedi-qodudan çox uzaq insan idi. Geniş diapazonlu mütaliəsi, xüsusən də antik mənbələri orijinaldan oxuyaraq incəliklərinə qədər bilməsi hər kəsdə heyranlıq doğurardı. Bəzən saatlarla antik mənbələr, onların Azərbaycanla bağlı məqamları barədə yorulmadan danışardı. Elə bu keyfiyyətinə görə arxeoloq həmkarları onu “Azərbaycanın Böyük Pilinisi” – deyə çağırardılar. İstər həmyaşıdları, istərsə də sonrakı nəsillərin nümayəndələri olan arxeoloq həmkarları hər zaman və hər yerdə onun yaxşılıqları və xeyirxah əməlləri barədə ürək dolusu danışır. Məhz sadalanan bu keyfiyyətlərinə görə, özündən sonra tanıyanların qəlbində ancaq nəcib və xoş xatirələr qoyub getmiş olan görkəmli Azərbaycan arxeoloqu İlyas Atababa oğlu Babayev

haqqında onun doğum günü ərəfəsində söz açmaq çoxsaylı həmkarları kimi, mənim də boynumun borcudur.

İ.Babayev 1935-ci ildə Quba rayonunun Xanəgah kəndində anadan olub. Əvvəlcə Xanəgah kənd yeddiillik məktəbində, daha sonra isə Rustov kənd orta məktəbində təhsil alan İ.Babayev 1953-cü ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə daxil olub və 1958-ci ildə ADU-nu fərqlənmə diplomu ilə bitirib.

O, hələ tələbəlik illərindən qədim dillərə və tarixin müxtəlif sahələrinə böyük maraq göstərib. Elə bu maraq onu Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutuna gətirib. 1969-cu ildə tanınmış arxeoloq Saleh Qazıyevin rəhbərliyi ilə yaradılan Qəbələ arxeoloji ekspedisiyasında çöl tədqiqatlarına başlayan İ.Babayev ömrünün sonuna qədər Qafqaz Albaniyası tarixinin və mədəniyyətinin tədqiqi ilə məşğul olmuşdur. İ.Babayev təhsilini davam etdirmək məqsədilə 1962-ci ildə Leninqrada (hazırki Sankt-Peterburqa) gedir. Orada aspiranturada oxuduğu illərdə dissertasiya işi ilə bağlı tədqiqatlarla yanaşı, Leninqrad Dövlət Universitetində qədim yunan dili və mədəniyyəti üzrə görkəmli mütəxəssis, professor K.M.Kolobovanın yanında qədim yunan dilini öyrənməklə də məşğul olmuş, onun qədim yunan mədəniyyətinə aid mühazirələrini dinləmişdir.

Professor M.İ. Maksimovanın rəhbərliyi altında 3 il aspiranturada təhsil alan İ.Babayev 1965-ci ildə "Azərbaycanın antik və orta əsrlər dövrü qliptika abidələri" mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir.

Xatırladaq ki, o zaman Azərbaycanda qliptika və sfragistika üzrə mütəxəssis yox idi. Respublikanın müxtəlif yerlərində aparılan arxeoloji qazıntılar zamanı əldə olunan müxtəlif qiymətli daşlardan, şüşədən, pastadan və keramikadan hazırlanmış qliptika abidələri öyrənilməmiş qalırdı. İ.Babayevin təqdiqatları əsasında müəyyən olunub ki, əksəriyyəti möhür kimi istifadə edilən qliptika abidələrinin cəmiyyətdə əmlak bərabərsizliyinin sinifli cəmiyyətin və dövlətin, habelə iqtisadi-ticari və mədəni əlaqələrin öyrənilməsində mühüm əhəmiyyəti olub.

İ.Babayev 1983-cü ildə SSRİ EA Arxeologiya İnstitutunda "Qafqaz Albaniyasının şəhərləri" (e.ə. IV - III əsrlər) mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Xatırladaq ki, bilavasitə İ.Babayevin Qəbələdə apardığı arxeoloji tədqiqatlar nəticəsində Azərbaycanın antik şəhərlərinin plan quruluşunu, daxili strukturunu, ticarət və sənətkarlığın inkişaf səviyyəsini, yerli əhalinin dəfn adətlərini, bir sözlə, şəhər əhalisinin məşğuliyyətini və dünyagörüşünü öyrənmək baxımından son dərəcə zəngin material əldə olunmuşdur. 1990-cı ildə doktorluq dissertasiyası əsasında tamamlayaraq nəşr etdirdiyi eyni

adlı monoqrafiyasında ilk dəfə məhz o, Azərbaycan ərazisində sinifli cəmiyyətin, qədim Azərbaycan dövləti olan Albaniyanın paytaxt şəhəri Qəbələdə aparmış olduğu davamlı elmi axtarışların nəticəsi kimi, şəhərlərin, dövlətin yaranması, sənətkarlıq, beynəlxalq ticarət əlaqələri, sikkə zərbi və s. problemlərin geniş təhlilini verib.

İ.Babayev 1987-ci ildən ömrünün sonunadək AMEA Arxeolgiya və Etnoqrafiya İnstitutu antik dövr arxeologiyası şöbəsinin müdiri vəzifəsində çalışıb. Onun uzun illər ərzində rəhbərlik etdiyi Qəbələ arxeoloji ekspedisiyası artıq neçə illərdir ki, beynəlxalq statusda çalışır. Son illər ekspedisiyanın apardığı qazıntılarda Cənubi Koreya Respublikasından olan arxeoloqlar da iştirak edirlər.

İ.Babayevin rəhbərlik etdiyi, Almaniya və Gürcüstan arxeoloqlarının da qatıldığı ikinci beynəlxalq ekspedisiya Şəmkir – Qaracəmirli arxeoloji ekspedisiyasıdır. Bu ekspedisiya Kür çayının sağ sahilində e.ə. V – IV əsrlərə aid şəhər tipli yaşayış yerində böyük sarayın və onun ətrafında digər ictimai binaların qalıqlarını aşkar etmişdir. Sarayın əsas binası, hasarlı həyəti və propleyası (giriş binası) 20 hektara yaxın ərazini əhatə edir. Sarayın çoxlu sütunlu zalları, portiki, uzun dəhlizləri və digər otaqları olmuşdur. İ.Babayevin fikrincə, bu abidə çox güman ki, e.ə. V-IV əsrlərdə bütünlükdə Cənubi Qafqazı əhatə edən mühüm inzibati mərkəzin qalıqlarıdır.

Arxeoloq kadrlarının hazırlanmasında da İ.Babayevin xüsusi xidmətləri olub. Onun elmi rəhbərliyi ilə neçə-neçə gənc dissertasiya müdafiə edərək alimlik dərəcəsi alıb.

İ.Babayev 270-dən artıq elmi əsərin müəllifidir. O, dəfələrlə dünyanın müxtəlif şəhərlərində keçirilən beynəlxalq elmi konqres, simpozium və konfranslarda maraqlı məruzələrlə çıxış etmişdir.

İ.Babayev bir çox ali və orta məktəb dərsliklərinin, həmçinin çoxcildlik "Azərbaycan tarixi"nin I və II cildlərinin, "Azərbaycan ensiklopediyası"nın və "Naxçıvan Ensiklopediyası"nın müəlliflərindəndir.

Zəngin yaradıcılığı ilə yanaşı, İ.Babayev həm də çoxillik pedaqoji fəaliyyəti ilə də yadda qalıb. O, Azərbaycanın müxtəlif universitetlərində, "Arxeologiya", "Qədim Şərq tarixi", "Antik dünya tarixi", "Tarixə köməkçi fənlər", "Azərbaycan tarixi", "Qədim dünya tarixinin aktual problemləri", "İbtidai icma tarixi", "Tarixi antropologiya" və s. fənlər üzrə mühazirələr oxumuşdur.

2007-ci ildə AMEA-nın müxbir üzvü seçilən İ.Babayev 2001-2011-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tarix üzrə Ekspert Şurasının üzvü, 2011-2012-ci illərdə isə həmin komissiyanın sədri olmuşdur.

Görkəmli alim, nəcib və xeyirxah insan İ.Babayev 2017-ci il dekabrın 27-də 82 yaşında dünyasını dəyişib.

İ.Babayev nə az, nə çox – düz 50 il Qəbələdə – antik şəhər yerində tədqiqat aparıb. Ömrünün son 15 ilini şəhərin müxtəlif dövrünü və müxtəlif problemlərini öyrənən bir neçə arxeoloji dəstəni özündə birləşdirən Qəbələ arxeoloji ekspedisiyasının rəhbəri olub.

Beləliklə o, özünün bütün şüurlu ömrünü Azərbaycanın qədim paytaxt şəhəri olmuş Qəbələnin tədqiqinə həsr edib. Onun rəhbərliyi ilə aparılan tədqiqatlar nəticəsində qədim paytaxt şəhərimizin tarixinin uzun illər elm üçün qaranlıq olan bir çox sirlərinə aydınlıq gətirilib.

Nəhayət, son olaraq, belə bir məqamı da xüsusi olaraq qeyd edim ki, arxeoloji tədqiqatlar üçün yetərincə təminat olmadığı, çöl tədqiqat işləri zamanı arxeoloqların ən adi ehtiyaclarının belə ödənilmədiyi o illərdə universitetin tarix fakültəsini fərqlənmə diplomu ilə bitirmiş bir gənc üçün ömrünü bütünlüklə bu işə sərf edərək Vətənin tarixini öyrənmək və yazmaq həqiqətən də qibtə olunmalı bir nümunədir.

*Qafar Cəbiyev,*
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun baş elmi işçisi, Qəbələ arxeoloji ekspedisiyasının rəisi, tarix elmləri doktoru*

*''Xalq qəzeti''*

## Qədim tarixə və arxeologiyaya münasibət mədəniyyətini yaratmış alim

Professor İlyas Babayev öz dövrünün aparıcı alimlərindən biri idi. Leninqrad (Sankt-Peterburq) aspiranturasında aldığı təhsil gənc yaşlarından onun təbii alim bacarıqlarına ciddi təsir göstərmişdi. O öz müəllimləri ilə öyünürdü və tez-tez İqor Mixayloviç Dyakonovun adını çəkirdi. İlyas Babayev nəhəng erudisiyası və qədim yunan dilini bilməsi ilə seçilirdi. Bu dili o hələ aspirant olanda öyrənmişdi. Belə peşəkarlıq səviyyəsi indinin özündə də alimlərimiz arasında az-az rast gəlinir.

İlyas Babayev Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu yarandıqdan sonra "Antik dövr arxeologiyası" şöbəsinin ilk rəhbəri oldu. İşlədiyi müddət ərzində Azərbaycanın antik dövr arxeologiyasının öyrənilməsinə çox böyük töhfələr verdi. Onun rəhbərliyi altında "Qəbələ və onun ətrafının arxeoloji tədqiqi" ekspedisiyası Albaniyanın şəhər tipli abidələrini kifayət qədər ciddi öyrənə bilib. Ekspedisiya xeyli nəhəng şəhər tipli tikinti kompleksləri aşkar etdi. Eyni zamanda dəmir dövrünə və antik dövrə aid olan xeyli qəbir abidələri tədqiq edildi. Qəbələdə işlədiyi dövrdə onun rəhbərliyi altında "Qədim Qəbələ"də aparılmış arxeoloji qazıntıların çoxcildli nəşrləri hazır-

landı və çap edildi. Bu qazıntıların bir çoxu İlyas Babayevin rəhbərliyi altında Azərbaycan – Koreya arxeoloji ekspedisiyası tərəfindən aparılıb.

Onun fəaliyyəti antik dövr abidələrinin öyrənilməsi ilə məhdudlaşmırdı. 2006-cı ildə Şəmkirdə, Qaracəmirlidə Azərbaycan – Almaniya arxeoloji ekspedisiyası fəaliyyətə başladı. Bu işləri professor İlyas Babayev Almaniya Arxeoloji İnstitutunun əməkdaşı professor Florian Knausla birlikdə, 2017-ci ilə qədər apardı. Qaracəmirlidə Əhəmənilər imperiyası dövrünə aid nəhəng saray aşkar edilmişdi. Bu qazıntılara İlyas Babayev çox böyük əhəmiyyət verirdi. Ona görə ki, bu Əhəmənilər imperiyası dövründə bütün regionun idarə edilməsinin həyata keçirildiyi iqamətgahın mövcudluğunu sübut edirdi. İlyas Babayevin avropalı həmkarları ilə birlikdə yazdığı və Qaracəmirlidəki sarayın arxeoloji tədqiqindən bəhs edən məqalələri Avropanın bir çox ciddi elmi nəşrlərində işıq üzü gördü. Bu məqalələr dünya arxeoloji ədəbiyyatında böyük rezonans yaratdı.

İlyas Babayev çox ciddi elmi məktəb yaratdı və bu gün onun bir çox şagirdləri alimin başladığı işi şərəflə davam etdirirlər. Bizim 2000-ci ildə baş tutmuş tanışlığımız zamanı onun biliyi və peşəkarlığı mənə böyük təsir bağışladı. Bizim sonrakı ünsiyyətimizin hər birimiz üçün faydalı olduğu qənaətindəyəm. Bu ünsiyyət təbii olaraq ona gətirib çıxardı

ki, 2004-cü ildə İlyas müəllim mənim PhD dissertasiyamın elmi rəhbəri oldu. Dissertasiyanı 2008-ci ildə onun rəhbərliyi ilə uğurla müdafiə etdim. 2017-ci ildə İlyas Babayev mənim elmlər doktoru dissertasiyamın müzakirəsində iştirak etdi. Müzakirədən əvvəl o dissertasiyanı diqqətlə oxumuşdu və rəy yazmışdl. Rəydə o kifayət qədər obyektiv olaraq işin güclü tərəflərini qeyd etmişdi, eləcə də bir sıra ciddi iradlar bildirmişdi. Bu iradları mən nəzər aldım.

İlyas Babayev mənim üçün eyni zamanda həm müəllim idi, həm də opponent. Heç kim üçün sirr deyil ki, qədim tarixin bəzi məsələləri ilə bağlı fikirlərimiz çox fərqlənirdi. Lakin bu fərqlərə baxmadan o həmişə diqqətlə mənim mülahizələrimi dinləyirdi, sonra da razı olduğu və razılaşmadığı məqamlarla bağlı fikirlərini səsləndirirdi. Öz elmi konsepsiyasına zidd olan məsələləri də inkar etməyə tələsmirdi. Əgər mənim dəlillərim ona əsaslandırılmış dəlillər təsiri bağışlayırdısa, o qeyd edirdi ki, mənim konsepsiyamın "mövcud olma hüququ" var. Qeyd etməliyəm ki, bu müasir alimin ən mühüm keyfiyyətlərindən biri olmalıdır. Opponentin əsaslandırılmış arqumentasiya xəttini başa düşmək və qəbul etmək bizim öz biliklərimizi dərinləşdirir.

Hökmən qeyd etmək lazımdır ki, İlyas Babayev düz və məsuliyyətli bir adam idi. Onun bu xü-

susiyyətini institutumuzun əməkdaşları təəccüblə xatırlayırlar. Bu yaxşı bir örnəkdir. Xüsusilə, arxeoloqlarımızın gənc nəsli üçün.

İlyas Babayev çoxsaylı məqalələrin müəllifi idi. Bu məqalələrin bir çoxu xaricdə, avropalı həmkarlarının həmmüəllifliyi ilə çap olunub. Bu barədə yuxarıda da deyilib. O "Qafqaz Albaniyasının şəhərləri e.ə. IV – b.e. III əsri" monoqrafoyasının müəllifidir. Bu monoqrafiyada adıçəkilən dövlətin yaranmasının nəticələri ətraflı şəkildə əsaslandırılıb. Eyni zamanda bu dövlətin şəhərlərinin planlaşdırılması və inşaat texnikası təsvir edilib. Əsərdə şəhərlərin iqtisadiyyatı və numizmatika problemləri araşdırılıb. İlyas müəllim numizmatika sahəsində çox yaxşı mütəxəsis idi. Bu monoqrafiya son dərəcə vacib məsələ idi. Çünkü. e.ə. IV əsrdə Azərbaycan ərazisində şəhər mədəniyyətinin mövcudluğu bizim qədim tarix üçün strateji vacib məsələdir.

Yuxarıda sadalanan xidmətlərinə görə İlyas Babayev Azərbaycan MEA-nın müxbir üzvü seçildi.

İlyas Babayevin Azərbaycan elminə töhfələri yuxarıda sadalananlarla bitmir. Məsul redaktor kimi o uzun illər bizim İnstitut tərəfindən hazırlanan "Azərbaycan arxeologiyası" çoxcildliyinin dördüncü cildini, "Antik dövr arxeologiyası"nı hazırlayırdı. Təəssüf ki, o bu çox vacib işi axıradək yekunlaşdıra bilmədi. Hərçənd ki, bir çox vacib

bölmələr üzərində iş başa çatıb. Hal-hazırda bizim “Antik dövr arxeologiyası” şöbəsi bu işi mənim rəhbərliyimlə davam etdirir. İş başa çatdıqdan sonra bu cild İlyas Babayevin redaktəsi altında çap ediləcək və bu onun Azərbaycan elminə daha bir töhfəsi olacaq.

Əsl alim hətta ölümündən sonra da elmə təsir göstərməkdə davam edir. Və biz əminliklə deyə bilərik ki, İlyas Babayev elmə yanaşmanın və tədqiqat aparılma mədəniyyətinin elə standartlarını müəyyənləşdirib ki, həmin standartlar hələ uzun illər Azərbaycanın antik dövr arxeologiyasının inkişafına təsir edəcək.

*Zaur Həsənov,*
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun*
*“Antik dövr arxeologiyası” şöbəsinin müdiri,*
*tarix üzrə fəlsəfə doktoru*

# Professor İlyas Babayev haqqında düşüncələrim

Bu xatirənin yazılmasının maraqlı bir tarixçəsi var. Saytların birində İlyas müəllimin dəfn olunduğu kənddə keçirilmiş anım mərasimini əks etdirən bir şəkil qoyulmuşdu. Heç demə, Quba rayonunun Xanəgah kənd ümumi məktəbinin bir əlaçı şagirdinə alimin ömür yolundan bəhs edən saytın təsis etdiyi "İlyas Babayev təqaüdü" təqdim edilibmiş. Həmin mərasimdə iştirak edənlərin əksəriyyətini tanıyırdım. Öz-özümə dedim: "Axı mən Faiqlə (İlyas müəllimin böyük oğlu) dostam, görəsən, niyə məni dəvət etməyib?" Bu günlərdə kafedramızın əməkdaşı Dəyanət müəllim İlyas müəllimin oğlu Fuad Babayevin bir xahişini mənə çatdırdı. Görəsən, Anar müəllim İlyas müəllimlə bağlı xatirə yazmaq istəyərmi? Dəyanət müəllimə dediklərim belə oldu: "İlyas müəllimlə bağlı xatirələrim çoxdan hazırdır. Sadəcə onu yazıya almaq lazımdır".

İlyas müəllim elmlər doktoru, professor, AMEA-nın müxbir üzvi idi. Xarakterinə görə səmimi, yumşaq, ancaq prinsipial idi. İxtisasca arxeoloq olsa da, tarixlə bağlı bildikləri çox, dünyagörüşü zəngin idi. Mütaliəsi adamı valeh edirdi. Heç kimin xətrinə dəymək istəmirdi. Rəhbərlik etdiyi doktorant və dissertantları ondan razılıq edirdilər. Çünki o, dok-

torantlarına həm rəhbər, həm də valideyn olurdu.

İlyas müəllim ali məktəbdə övladıma dərs deyirdi. Övladım deyirdi ki, mənə belə gəlir ki, İlyas müəllimin bilmədiyi şey yoxdur. Əslində müəllimin barometri tələbədir. Müəllimi tələbə daha yaxşı tanıyır. İlyas müəllimin imtahan götürməyi də ədalətli idi. Dərs dediyi tələbələr onu təmənnasız müəllim və ədalətli ziyalı kimi tanıyardılar. Əslində müəllim üçün iki etalon var: təmənnasızlıq və ədalətlilik. Allah-təala İlyas müəllimə hər ikisini nəsib etmişdi.

Mən İlyas müəllimi ilk əvvəllər oğlu Faiqə görə tanıyırdım. Faiq müəllimlə uzun illər Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) üçün imtahan sualları hazırlamışıq. Bu məsul işdə Faiq müəllimi ədalətli bir insan kimi tanımışam. Faiq müəllim hər cür siyasətdən uzaq olan bir Azərbaycan ziyalısıdır. Bizim dostluğumuz həmin günlərdən başladı. Sonradan isə ...

İlyas müəllimi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Tarix və Siyasi elmər üzrə Ekspert Şurasının sədri təyin etdilər. Bu çətin, mürəkkəb və şərəfli işdə İlyas müəllimi yaxından tanıdım. İlyas müəllim sözün həqiqi mənasında əsl Azərbaycan ziyalısı idi. Hər bir işə münasibəti ədalətli olurdu. Bəzən belə olurdu, deyərdi ki, elmi rəhbəri ilə münasibətim soyuqdur, amma bunun iddiaçıya heç bir dəxli yoxdur. Mümkün qədər bu işə səmimi yanaşaq. İki il

ərzində İlyas müəllimdən çox şey öyrəndim. Əslində arxeologiyadan müdafiə etmiş olsa da, onun tarix sahəsindəki biliyi hamımızı heyrətə salırdı. Hətta xaricdən Azərbaycana gələn arxeoloqlar da İlyas müəllimlə işləməyə üstünlük verirdilər. Çünki arxeoloqların mülki tarixlə məşğul olanlardan bir fərqi var. Arxeoloji qazıntı yayın isti günlərində, çöldə, dağda, dərədə, səhralıqda aparılır. Gərək dözümlü olasan, arxeoloq həmkarlarınla yola gedəsən. Bir sözlə, çölçülüyün ola. İlyas müəllim bu sahədə də həmkarlarına nümunə idi.

İlyas müəllim Azərbaycanın dağ kəndlərinin birində dünyaya göz açmışdı, amma illər ötdü, o dağ kəndində öz uşaqlıq missiyasını başa vurdu, şəhərə gəldi, Bakı Dövlət Universitetinin tələbəsi oldu, oranı fərqlənmə ilə bitirdi, Moskvada aspirant oldu, elmlər namizədi, elmlər doktoru oldu, Akademiyanın müxbir üzvü seçildi, orta məktəb şagirdləri üçün dərsliklər yazdı, ali məktəb tələbələri üçün monoqrafiyalar çap etdirdi, təkcə Cənubi Qafqazda deyil, şöhrəti Müstəqil Dövlətlər Birliyinin sərhədlərini aşdı, haqqın dərgahına qovuşanda isə üzünü doğma kəndinə tutdu.

İlyas müəllim aramızda yoxdur, amma onun ziyalı xeyirxahlığı çətin ki, unudula...

*Anar İsgəndərov,*
*tarix elmləri doktoru, professor*

# İlyas Babayev (1935-2017)

Ötən ilin dekabrında Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, tarix üzrə elmlər doktoru, professor İlyas Babayev dünyasını dəyişdi.

Vəfatından bir neçə həftə əvvəl alimin "1905. az kitabı" seriyasından "Numizmatika haqqında məqalələr toplusu" kitabı işıq üzü görmüşdü. Bu kitaba İlyas Babayevin Azərbaycan ərazisində aşkar edilmiş antik dövrə dair pullara həsr olunmuş məqalələri daxil edilib. Həmin tapıntılar sübut edir ki, qədim Azərbaycan ərazisində e.ə. IV əsrdən başlayaraq ticarətdə geniş şəkildə puldan istifadə edilib. Azərbaycanda həm kənardan gətirilmə, həm də yerli puldan istifadə olunub. Azərbaycanda istifadə olunan ən qədim pullar Makedoniyalı İsgəndərin pullarıdır. Burada pul zərbinə isə e.ə. IV əsrdə başlanılıb.

Tarix elmləri doktoru, professor Əli Rəcəbli, professor Kamil İbrahimov, tarix üzrə fəlsəfə doktorları Qənirə Pirquliyeva, Akif Quliyev, Aygün Məmmədova, İlyas Babayevin oğlu, Azərbaycan MEA Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı Faiq Babayevin iştirakı ilə keçirilən toplantıda bu kitab barədə, alimin ömür yolu haqqında danışıldı.

**Əli Rəcəbli:** İlyas müəllimi hamımız yaxşı tanı-

yırdıq. Mən İlyas müəllimlə 1964-cü ildə şəxsən tanış olmuşam. Məndən təxminən 10 yaş cavan idi. O vaxt qliptika ilə bağlı dissertasiya üzərində işləyirdi. Bizim Tarix Muzeyinin də yaxşı qliptika kolleksiyası var. Mən də bu barədə ona dedim, dəvət etdim ki, gəlib, baxsın. Gəldi, muzeydə oturub, onları tədqiq elədi və sonra da dissertasiyasını uğurla müdafiə etdi.  Onun maraq spektri çox genişdi. İlyas müəllim elmi fəaliyyətinə epiqraf kimi başlasa da, arxeologiya sahəsində böyük nailliyyətlər əldə etdi. Elə bu kitabdan gördüyünüz kimi, numizmatika sahəsinə də etinasız deyildi. Çox savadlı və geniş dünyagörüşünə malik insandı. İndi zəmanəmizdə hərtərəfli inkişaf etmiş insanlara rast gəlmək çox nadir hadisədir. O, mənə birinci numizmat deyirdi, mən də “ikincisi də sənsən”, deyirdim. Biz həmişə bir-birimizi görəndə sevinmişik. Mən ona biliyinə, şəxsi insani qardaş münasibətinə görə, istiqanlılığına görə həmişə hörmət edirdim. İlyas müəllimin elmdə xidmətləri çox böyükdür. Xüsusilə numizmatika, antik numizmatika sahəsində onun fəaliyyətini qeyd etməliyəm. Bu, rəhmətlik Saleh Qazıyevin rəhbərliyi ilə Qəbələdə qazıntı aparılanda, Çuxurqəbələ dəfinəsi aşkar olunanda başladı. Həmin dəfinənin toplanmasında İlyas müəllimin çox böyük əməyi oldu. Bu, çox böyük dəfinə idi. Bundan sonra antik dövr numizmatik materiallara dair onun bir çox yazıları dərc olundu. Kitabdan

da gördüyünüz kimi, ilk alban sikkələri, bənzətmə sikkələr haqqında onun yaxşı elmi əsərləri var. Antik dövr numizmatikasının öyrənilməsi sahəsində İlyas müəllimin xidməti əvəzsizdir. Biz ona minnətdarıq. Çox təəssüf ki, aramızdan tez getdi. Daha çox işlər görə bilərdi. Amma xatirəsi və əsərləri həmişə onu yaşadacaqdır. Belə alimlərin işləri onların ömürlərinin davamıdır və illər keçdikcə onların yeri görünür. Allah rəhmət eləsin.

**Qənirə Pirquliyeva:** İlyas müəllimlə biz dəfələrlə Gürcüstanda və digər yerlərdə beynəlxalq konfranslarda iştirak etmişdik. Bizim institutun direktoru mərhum Arif müəllim də deyirdi ki, Qafqaz alimləri ilə disputa girin. Təsbirlərdən birində mən şahidi oldum ki, İlyas müəllim erməni alimi Manukyanın qızına necə səbirlə, mədəni formada atasının səhvlərini başa salırdı. Rus, Dağıstan, erməni, gürcü alimləri də var idi. Dəfələrlə İlyas müəllim mənə təklif etmişdi ki, gəlin, bu oxşatmalar haqqında bir konfrans keçirək. Onun Rusiyanın, Orta Asiyanın numizmat alimləri ilə çox gözəl əlqələri vardı. Mənim müəllimlərimin hamısını tanıyırdı. Keçirək, deyə-deyə, təəssüf ki, keçirə bilmədik. Məqsədi nə idi? Açıq deyirdi ki, Makedoniyalı İsgəndərin adından buraxılan oxşatma pullar əsasən Azərbaycanda tapılıb. “Demək, bu pullar e.ə. III əsrdə burada zərb edilib və yüksək ehtimalla həm də Orta Asiyada və başqa yerlərdə tapıla bilər”, – söy-

ləyirdi. Müdrik insan idi. Biz keçən il "İçərişəhər" İdarəsinin xətti ilə beynəlxalq konfrans keçirirdik və mənə materiallar göndərilirdi. Mən elmi rəhbərim, akademik Rtveladzeyə müraciət etdim ki, İlyas müəllimin Makedoniyalı İsgəndərin adından buraxılan oxşatma pulların buradan Orta Asiyaya gedə biləcəyi ilə bağlı mülahizəsi ilə əlaqədar material göndərsin. Bilmək istəyirdim ki, doğrudanmı bu, mümkündür. Rtveladzenin bu barədə məqaləsi məndədir və çap olunacaq. İlyas Babayevin müddəasını təsdiq etdi ki, həmin pullar doğrudan da buradan yayılıb. Uzun illər idi ki, mən bir az şübhə edirdim, çünki əlimdə bunu təsdiq edəcək material yox idi. Amma akademik Rtveladze bunu təsdiq etdi. Bunları nə üçün deyirəm? Akademiyada işləmişəm və İlyas müəllimlə münasibətlərimiz olub. Antik dövr numizmatikası ilə bağlı İlyas müəllimin "Sovet arxelogiyası" jurnalında məqalə çap etdirməsi böyük hadisədir. Bu kitabı mənə göndərəndə çox məmnun oldum ki, onları toplamısınız və bu kitaba daxil etmisiniz. İlyas müəllim böyük alim idi. Onun "Qafqaz Albaniyasının şəhərləri" əsəri həmin dövrü öyrənmək üçün ən yaxşı kitabdır. Həmin kitabda olan müddəalar SSRİ arxeologiyasının oncildliyinə daxil olunub. Sağ olanda da biz ona həmişə minnətdarlığımızı bildirirdik. Yaş baxımından orta nəsil hesab olunuruq və xoşbəxt nəsilik ki, bu insanları tanıyırdıq. Allah rəhmət eləsin, məkanı

cənnət olsun. Bu qədər əsər qoyub, nə qədər ki, bu xalq var, mədəniyyət var, onlar da istifadə olunacaq.

**Kamil İbrahimov:** Məni dəvət etdiyinizə görə təşəkkür edirəm və minnətdarlığımı bildirirəm ki, bu iki gözəl kitabçanı çap etdirmisiniz ("Numizmatika haqqında məqalələr toplusu" və "Atamın sağlığında" kitablarını nəzərdə tutur – red.). İlyas müəllim elə böyük, intellektual, ensiklopedik biliyə malik alim idi ki, özündən sonra qoyub getdiyi irsi çap etmək, öyrənmək, mənimsəmək, tədris etmək üçün onilliklər bəs etməz. Mən özümdən danışım. Atam rəhmətə gedəndən sonra elmdən çəkilmək istəyirdim. Çünki zaman o zaman deyildi. Amma baxıb, gördüm ki, onun qoyub getdiyi materiallar, çap etdirmədiyi məqalələr o qədər çoxdur ki, mən bunları övlad kimi boynuma götürüb, davam etdirmək zorundaydım. Ona görə də elə indiyə qədər də qalmışam. İlyas müəllim də belə ensiklopedik səviyyəli alimlərdən idi. Dəfələrlə İlyas müəllimlə görüşmüşəm. Təyinatını müəyyənləşdirməyə çətinlik çəkdiyim materialları onunla paylaşmışam. Məsləhətlər verib, yol göstərib. Atam deyirdi ki, arxeoloqlar numizmatik materiallarla çox üzləşirlər. Deyirdi ki, iki nəfərlə məsləhətləş və onların məsləhətlərini unutma – İlyas müəllimin və Əli müəllimin. Əli müəllimin yanına tez-tez gəlmişəm, çox sağ olsun, məsləhət verib. İlyas müəllim də nu-

mizmatika sahəsində mənə çox böyük məsləhətlər verib. İlyas müəllim gözəl arxeoloq idi. Onun arxeoloji irsi, məqalələrinin xeylisini oxumuşam. Hərçənd məşğul olduğu dövr başqa dövrdür. Məşğul olduğu dövr – antik dövr qədim dövrlə orta əsrlər arasındakı dövrdür. Dövlətlərin yarandığı dövr, istilalar dövrüdür. Xatirimizdə qalan nağıllara səyahət dövrüdür. Antik dövr çox maraqlı dövrdür, mən hətta onu Antaliyada, Ağdəniz Universitetində tədris etmişəm. Qeyd etdiyim kimi dəfələrlə İlyas müəllimlə görüşmüşəm, onun məsləhətlərini almışam. Özü də sevinclə, məmnuniyyətlə məsləhət verirdi. Hətta danışıqlarını diktafona yazırdım ki, sonra araşdırım. Onun səsi məndə var, hətta lazım olsa, təqdim edərəm. Yadıma gəlir, 1989-cu ildə Moskvada, SSRİ xalqlarının arxeologiyasına həsr olunmuş konfrans idi. Mən də çox böyük alimlərlə – İlyas müəllim, Qüdrət müəllim, Vəli müəllim  orada iştirak edirdim (hələ müdafiə etməmişdim- K.İ.). Çox böyük insanlar idi. Onlar arasındakı maraqlı, elmi söhbətləri çinədanıma toplayırdım. İlyas müəllim böyük irs qoyub getdi, çox böyük işlər gördü. Fuad müəllim, İlyas müəllimin gördüyü işləri təbliğ etmək lazımdır. Yazdıqları çap edilməlidir, bu insan unudulmamalıdır. Yaşlı nəsli biz – orta nəsil təbliğ etməliyik, mən harda dərs deyirəmsə, bu barədə danışıram. Bizdən sonra gələn nəsil bəlkə də İlyas müəllimin irsini, onun nailiyyətlərini bilmir. Ona

görə də onu təbliğ etmək həm bizim, həm də onun övladlarının boynuna düşür. Allah rəhmət eləsin, ruhu şad olsun.

**Əkbər Bədəlov:** Mənə elə gəlir ki, Əli müəllim (Əli Rəcəbli – red.) istisna olmaqla, bu tədbirdə iştirak edənlərin heç birisi mənim qədər İlyas müəllimlə yoldaşlıq etməyib. 1986-cı ildə Naxçıvanda Universiteti bitirəndə Akademiyaya gəlmək istəyirdim. İndi Azərbaycan MEA-nın müxbir üzvü olan Zəhmət Şahverdiyev mənim müəllimim idi. Vəli Əliyev kəndimizin yaxınlığında qazıntı aparırdı. Mən də orada hətta fəhlə kimi işləmişəm. Zəhmət müəllim dedi ki, akademiyaya gedirsənsə, get, İlyas müəllimin yanına. Cavab verdim ki, axı İlyas müəllimi tanımıram. Mənə dedi ki, "İlyas Babayev mənim müəllimim olub, sən çəkinmədən get, onun yanına". İndiki kimi yadımdadır, gəldim akademiyaya, İlyas müəllim kiçik bir otaqda oturmuşdu. İçəri girib söylədim ki, "Naxçıvandan gəlmişəm, məni Zəhmət müəllim göndərib, məsləhət bilirsinizsə, istərdim ki, Siz mənim elmi rəhbərim olasınız". Qəbul elədi, oturduq, söhbət etdik. Əyani aspiranturaya girdim, bəlkə də yeganə adam mənəm ki, bu 3 illik aspirantlıq müddətində elmi işimi müdafiə edə bilmişəm. Mən kənddən gəlmişdim, mənə elmi məqalə yazmaq qaydasını İlyas müəllim öyrətdi. Hətta deyərdim ki, ilk elmi məqaləmin 70 faizini İlyas müəllim yazdı. Mənə

ürək-dirər verirdi ki, arxayın ol, vaxtında müdafiə edəcəksən. Rəhmətlik dedi ki, “səni Moskvaya aparacam, tanış edəcəm alimlərlə, oradaca müdafiə edəcəksən”. 2-3 dəfə İlyas müəllimlə Moskvaya getdik. İş elə gətirdi ki, 25 il sonra Arxeologiya və Etnoqrafiya İnstitutunda birdəfəlik şura yaradıldı və dissertasiyamı müdafiə etdim. Rus dilini yaxşı bilmirdim, ona görə də Moskvaya göndərilən variantın tərcümə edilməsinə də İlyas müəllim kömək etdi. Faiq və Fuad inciməsin, amma yəqin ki, İlyas müəllimin evində mən onlardan çox çay-çörək yemişəm. Hər gün işdən sonra onun evinə gedirdim, tərcümə edirdik. Səhəri gün isə səhvləri düzəldib, gətirirdi. İlyas müəllimin elmi ilə yanaşı, mən onun ailəvi münasibətindən danışmaq istəyirəm. Rəhmətlik atam Bakıya gələndə, İlyas müəllim onunla da görüşmüşdü. Atam sanatoriyaya gəlmişdi, İlyas müəllim tapşırdı ki, onu atamın yanına aparım. Həyat elə gətirdi ki, İlyas müəllimlə ata-bala kimi ünsiyyətimiz yarandı. İlyas müəllim bir neçə dəfə Naxçıvanda bizim evimizdə də olub. Fuadın Leninqrada getməsi, orada oxuması mənim gözümün qabağında olub. Faiqin toyunda rəhmətliyin nə qədər həyəcan keçirdiyi yadımdadır. İlyas müəllimin ağır həyat yolunu biz də keçdik. İlyas müəllimin arxasında duranı yox idi, nə qazanmışdısa, ancaq öz zəhməti hesabına qazanmışdı. Uşaqlarını bir tərəfə çıxarmaq üçün bir neçə yerdə dərs deyir,

tərcümələr edirdi. Çox şükür ki, İlyas müəllimin əziyyətlə bu cəmiyyət üçün yetişdirdiyi övladları – Faiq və Fuad da onun əziyyətini boşa çıxartmadılar. Rəhmətlik o xətti elə müəyyənləşdirib ki, uşaqları da onun işini davam etdirəcəklər. Qaldı ki, elm sahəsinə, İlyas müəllimin Azərbaycanın şimalında dövlətçiliyin, sinifli cəmiyyətin yaranması ilə bağlı tədqiqatlarında gələcəkdə kiminsə hansısa yenilik edə biləcəyinə inanmıram. Bu faktdır və gizlətmək mümkün deyil. Sovet dövründə bu ərazidə Makedoniyalı İsgəndərin ölümündən sonra belə bir dövlətin, sinifli cəmiyyətin yaranmasını sübut etmək az iş deyildi. Bununla bağlı İlyas müəllimə qarşı çıxan qüvvələr də mənim yadımdadır. 1983-84-cü ildə doktorluq dissertasiyası müdafiə etmişdi, kitabının hansı çətinliklə çap edildiyi xatirimdədir. Rəhmətlik o kitabın çıxması üçün necə əziyyətlər çəkdi, kimlər mane olmağa çalışırdı, onlara qarşı necə mübarizə aparırdı… Arxeologiya və Etnoqrafiya İnstitutunun 270 işçisi var. Direktordan tutmuş, laboranta kimi, hansısa bir işçinin İlyas müəllimdən məsləhət almamasına inanmıram. İlk gündən, 30 il ərzində rəhmətliklə bir otaqda oturmuşam. Allah qəni-qəni rəhmət eləsin. Pis yaşamadı, ən gözəli isə odur ki, son günlərində nəticəsini də gördü. Yəqin ki, elmi irsi də yetişdirmələri, övladları tərəfindən layiqincə təbliğ və tədqiq olunacaq.

**Akif Quliyev:** İlyas müəllimin hələ mən doğul-

mamışdan çox-çox əvvəl bizim ailəmizlə – Aləm Nuriyev, Qüdrət İsmayılzadə, Fazil Osmanovla yaxşı münasibətləri olub. Bizim Şamaxıdakı evimizdə də tez-tez olub. Onlar arasındakı dostluq münasibətləri mənim də arxeologiya elminə marağımın yaranmasına səbəb olub. Yəni onların dostluğu, ziyalılığı nəticəsiz ötüşməyib. Qeyd edim ki, İlyas müəllim mənim elmi məsləhətçimdir. Mən onun haqqında keçmiş zamanda danışa bilmirəm. Çünki insan var ki, onun sağlığında diri olması şübhə altındadır. İnsan da var ki, hətta həyatda olmayanda da onu gözünlə axtarırsan. Hətta küçədə bir adamı da ona oxşadanda həyəcanlanırsan ki, o idimi? Hərtərəfli və erudisiyalı adam olduğundan, daim yanında olurduq, məsləhətini eşitmək istəyirdik. Həm qədim yunan dili, həm də Şərq dilləri üzrə mütəxəssis idi. Arxeoloji bir tapıntı olan kimi yüyürüb, yanına gəlirdik ki, İlyas müəllim, nə deyə bilərsiniz bu barədə. O da deyirdi ki, filan yerdə belə bir şey olmalıdır, get, bax. Bir az da səbirsiz adamdı, tez elə özü açırdı, oranı-buranı eşib, çıxarırdı ki, bax, budur. 2017-ci ildə İmişli rayonunda bir dəfinə aşkar etmişdik. Onu da İlyas müəlllimə göstərəndə, dedi ki, bu maraqlı dəfinədir, Xınıslı və Qəbələ dəfinələrindən də çox fərqlənir. Çünki sırf Makedoniyalı İsgəndərin pullarından ibarətdir. Bildirdi ki, onun da bənzətmə ola bilməsi ilə bağlı şübhələri var, amma bənzətmə də olsa, çox keyfiyyətli bənzətmədir. Hər

halda III əsrə aid ola biləcəyini dedi. Doğrudan da məsləhətləri öz təsdiqini tapdı. Həqiqətən biz müəllimimizi itirdik. Bu gün tək-tək belə adamlar qalıb, onların da qədrini bilməliyik. Sən bir adamın biliyini götürə bilərsənsə, mənimsəyərsənsə, deməli, müəllimindir. Belə müəllimlərimizin içində elə Əli müəllim də var. Bu gün Azərbaycan elmində onlardan qalxan kimi istifadə edir, təpkilərə cavab veririk. Allah İlyas müəllimə rəhmət eləsin, ruhu şad olsun, balaları sağ olsun.

**Aygün Məmmədova:** İlyas müəllimin vəfatı xəbərindən çox kədərləndim. Həmin gün Əli müəllimlə birlikdə başqa bir hüzr yerinə gedirdik. Telefonla bu gözlənilməz xəbəri eşidəndə, çox sarsıldım. 2013-cü ildə "Ərəb xilafəti dövründə Azərbaycan ərazisində sikkə zərbi və pul dövriyyəsi" mövzusunda dissertasiya müdafiə edəndə İlyas müəllim mənim işimin birinci opponenti olub. Məni bu işi yazmağa o qədər həvəsləndirirdi ki… Əli müəllimin məsləhəti ilə mən aspiranturaya daxil olanda, İlyas müəllim çox sevinmişdi və demişdi ki, inşallah müdafiə edəndə opponentim olacaq. İşimi oxuyanda da çox razı qaldı. Həmişə deyirdi ki, numizmatika ilə ciddi məşğul olun, ərəb-fars dilləri üzrə respublikada numizmatika mütəxəssisinə ehtiyac var. Bildirirdi ki, bu işi yaşatmaq lazımdır. Tarix Muzeyinə gələndə Nailə xanımla (Milli Azərbaycan Tarixi Muzeyinin direktoru akademik Nailə Vəlixanlı

nəzərdə tutulur – red.) görüşən kimi, bizim şöbəyə də baş çəkərdi. Xatirimdədir ki, sonuncu dəfə "Britaniya sikkə kataloqu" ilə çox maraqlandı, mən də kataloqun surətini onun üçün çıxartdım. Bizim tədqiqatçılarımız daim ondan məsləhət alırdılar, o da heç vaxt məsləhətlərini əsirgəmirdi. Onun muzeydəki aspirantları da məsləhətlərinə qulaq asır, əsərlərinə istinad edirdilər. Çox şadam ki, onunla birgə Qəbələ arxeoloji ekspedisiyasında iştirak etmişəm. Orada da bütün gənclər onun məsləhətlərindən yararlanırdılar. Anam Bədircahan xanım da İlyas müəllimin şöbəsində çalışıb. Çox sadə insan idi, hər kəslə öz dilində danışmağı bacarırdı. Alimliyi bir yana, bütün yaş təbəqələrindən olan insanlarla dil tapmağı bacarırdı. Onun bu xasiyyətini çox sevirdim. Allah rəhmət eləsin.

**Faiq Babayev:** Mən ilk növbədə bu tədbirin təşkilatçılarına minnətdarlığımı bildirməliyəm. Bütün gələnlərə, başda Əli müəllim olmaqla, dönə-dönə təşəkkürümü çatdırıram. Sağ olun ki, vaxt tapıb, gələ bilmisiniz. Kamil müəllim bayaq təqdim etmədi, atası tanınmış arxeoloq, Bakı ekspedisiyasının rəhbəri, mərhum Fərhad İbrahimovdur. Mən də onun rəhbərliyi altında işləmişəm. Bir xatirə yadıma düşdü, uşaq idim, atamla bulvarda gəzirdim. Oturub, domino oynayan təqaüdçüləri görüb, dedi: "Bax, bu, məni gözləmir". Mən nə üçün belə dediyi ilə maraqlandım. Cavab verdi ki, "Əsil elm adamı

neçə yaşı olursa-olsun, bulvara gedib, domino oynamağa vaxt tapa bilməz. Həmişə yazıb-yaradacaqları, planları aşıb-daşır. Ömür buna kifayət etməz”. Tənqid kimi çıxmasın, bəlkə də Azərbaycanda az adam tapılar ki, namizədlik dissertasiyasından 60 il keçsin, amma onu çap etdirməsin. Qliptika haqqında yazdıqları hələ də kitab kimi çıxmayıb. Elə “eləyərik” deyə-deyə, saxladı. Elə özünün də ürəyi istədiyi kimi çap olunmamış əsərləri var. Kamil müəllim dedi ki, atasının işlərini davam etdirir, indi biz də qismət olsa, bacarsaq, gərək onları çap etdirək. Məsələn, 10 ildən artıq Şəmkirdə işlədi. İndi Şəmkirin materiallarını monoqrafiya kimi ortaya qoya bilsək, çox yaxşı olar.

**Gündüz Nəsibov:** Mən də İlyas müəllimlə söhbətləşmə şərəfinə layiq görülənlərdənəm. Çox xoşbəxtəm ki, iki dəfə İlyas müəllimdən “1905.az” saytı üçün müsahibə götürmüşəm – Qəbələ və Şəmkir arxeoloji ekspedisiyalarının fəaliyyəti ilə bağlı. Hər iki müsahibə “Atamın sağlığında” kitabına düşüb və bununla çox fəxr edirəm.

Söhbətin sonunda görüş iştirakçıları İlyas Babayevin 80 illiyi münasibətilə Region TV-nin çəkdiyi sənədli filmə tamaşa etdilər.

*Hazırladı: Gündüz Nəsibov, 1905.az*

# İlyas Babayev haqqında

İlyas Babayev haqqında, gözəl insan, vətəndaş, alim, çox peşəkar arxeoloq, dost haqqında yazmaq asan deyil. Biz uzun illər dost olmuşuq. Mən onunla ilk dəfə 1960-cı ildə, Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində tanış olmuşam. Bizi komsomol dostluğu birləşdirirdi. O yuxarı kursda oxuduğuna görə, rus bölməsinin birinci kursunda, bizim qrupun kuratoru idi. İlyas Babayev yaxşı təsir bağışlayırdı. Ciddi, düz, mehriban adam idi. Sonralar mən İlyası Elmlər Akademiyasının əməkdaşı, ciddi tədqiqatçı, tələbkar arxeoloq kimi tanıdım. İnstitutda görüşəndə biz öz təəssüratlarımızı bölüşərdik. Qafqaz Albaniyası Tədqiqatları Mərkəzinin xətti ilə albanistika üzrə beynəlxalq konfranslar keçirəndə, təbii ki, İlyas Babayev bu konfranslarda fəal iştirak edirdi.

İlyasın həyatdan vaxtsız getməsi Azərbaycan tarix elmi və arxeologiyası üçün böyük itkidir. Bir şey şübhə doğurmur: İlyas Babayev Azərbaycan tarix elmində, dostları və həmkarları arasında əvəz olunması mümkünsüz işıq və iz qoyub. Gözəl insan, vətəndaş, alim –arxeoloq İlyas Babayevin ruhu şad olsun.

*Fəridə Məmmədova,*
*Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü*

## Səmimi insan, görkəmli alim: Arxeoloq İlyas Babayev haqqında xatirə səhifələri

Son günlər Azərbaycanın ticarət əlaqələri mövzusu üzrə araşdırma apararkən arxeoloq İlyas Babayevin Mingəçevirdən tapılmış bullaya həsr olunmuş, yarım əsr bundan əvvəl aspirant məqalələri külliyyatında çap olunmuş məqaləsi ilə tanış oldum (1). Həmin məqalədə 1949-cu ildə Mingəçevirin 3 saylı yaşayış yerində V-VIII əsrlərə aid mədəni təbəqədən tapılan, üzərində 12 möhürün əksi qalmış, 4 x 3,5 x 2 sm ölçülərdə gil bulla tədqiqata cəlb edilmişdi. Gənc tədqiqatçı bullanı hərtərəfli təhlil edərək onu mötəbər mənbəyə çevirə bilmiş, düzgün şərh etmiş və güclü mühakimələri ilə onun beynəlxalq ticarət əlaqələri ilə bağlılığını sübut yetirmişdir. Kiçik həcmli, lakin mühüm dəyərə malik bu məqalə bu gün də elmi əhəmiyyətini saxlamaqdadır. Sözügedən məqalə Azərbaycan arxeologiya elminə erudisiyalı, artefaktlarda cəmləşən kodlaşmış informasiyanı almağa və şərh etməyə qadir istedadlı tədqiqatçının gəlməsindən xəbər verirdi.

1983-cü ildə İlyas müəllimin albanşünaslıqda mühüm hadisə olan "Albaniyanın şəhərləri e.ə.IV-e. III əsrlərdə" mövzusunda doktorluq dissertasiyasının müdafiəsində iştirak etmək mənə nəsib oldu. Dissertasiyasının müdafiəsi Moskva şəhərində SSRİ

EA Arxeologiya İnstitutunun Dissertasiya şurasında keçirilirdi (2). O zaman Moskva Dövlət Universitetində prof. Q.A.Fyodorov-Davıdovun rəhbərliyi ilə “Şimal-Şərqi Azərbaycanın orta əsr arxeoloji abidələri (IX-XIII əsrlər)” mövzusunda namizədlik dissertasiyası üzərində işləyirdim və bu mənə imkan verdi ki, İlyas müəllimin dissertasiyasının müdafiəsində iştirak edim. Dissertasiya işinə SSRİ-nin məşhur antikşünas alimləri opponentlik edirdilər. Hər üç opponent müdafiəyə təqdim olunan tədqiqat əsərinə müsbət rəylərini bildirib, onu Qafqaz arxeologiyasının mühüm uğuru kimi qiymətləndirdilər. Dissertasiya işində tədqiqatın mühüm yeniliklərindən biri arxeoloji və nümuzmatik materiallar əsasında Albaniyanın bir dövlət kimi e.ə. I əsrin birinci yarısında deyil, e.ə. IV əsrin 30-20-ci illərində, yəni Makedoniyalı İsgəndərin imperiyasının süqutundan sonra təşəkkül tapdığının sübuta yetirilməsi idi. Dissertasiya işinin müzakirəsi zamanı yaddaqalan çıxışlardan biri Moskva Dövlət Universitetinin “Qədim dünya tarixi” kafedrasının o zaman müdiri vəzifəsində çalışan professor V.Kuzişşinin çıxışı oldu. O, dissertasiya işinə yüksək qiymət verərək bildirdi ki, qədim dünya tarixi üzrə dərsliklər tərtib edərkən Qafqazın antik tarixi bölməsinin yazılmasında Albaniya tarixi və arxeologiyası üzrə elmi tədqiqat əsərlərinin, xüsusilə urbanizasiya ilə bağlı ümumiləşdirilmiş sanballı əsərlərin olmaması müəyyən

çətinliklər yaradırdı. Natiq İlyas Babayevin təqdim etdiyi dissertasiya işinin bu boşluğu aradan qaldırdığını və Qazqaz Albaniyasının şəhərləri, bu dövlətdə cərəyan edən urbanizasiya prosesləri haqqında dolğun təsəvvür yaratdığını xüsusi vurğuladı.

Dissertasiya Şurasının sədri, akademik B.A.Rıbakov da dissertasiya işinin yüksək səviyyəsindən, müzakirənin işgüzar və obyektiv keçməsindən çox razı qalmışdı. O, yekun çıxışında müdafiə olunan tədqiqat işinə yüksək qiymət verərək onu sovet arxeologiya elmində mühüm hadisə adlandırdı. Əlbəttə ki, həmyerlimizin tədqiqatlarına SSRİ-nin paytaxtı Moskvada nüfuzlu sovet arxeoloqlarının belə yüksək qiymət verməsi Azərbaycan arxeologiya elminin təntənəsi idi. Sonradan bu dəyərli tədqiqat işi müəllif tərəfindən monoqrafiya şəklində işlənərək 1990-cı ildə  nəşr edildi və bu günkü günümüzdə də Albaniya dövlətinin yaranması, antik şəhərlər, urbaniya proseslərinin xüsusiyyətləri, sənətkarlıq, beynəlxalq ticarət əlaqələri, sikkə zərbi və s. problemlərin geniş təhlil olunduğu sanballı əsər olaraq albanşünas alimlərin dönə-dönə müraciət etdikləri kitabdır.

Professor Qüdrət İsmayılzadə “Abidələr, xatirələr, düşüncələr…” kitabında arxeoloqun həyatında abidələrin rolunu sərrast ifadə edərək yazır: “Axtarış yollarında arxeoloq yüzlərlə abidə ilə rastlaşır. Bunların hamısını o, fərq qoymadan dəqiq qeydə alır,

tədqiq edir və öyrənir. Lakin bu abidələrdən yalnız biri ona ən yaxın sirdaş ola bilir, məhəbbətini qazanır və nəhayət, bütün varlığı ilə onun həyatına daxil olur. Əslində, arxeoloqun özü könüllü şəkildə həyatını bu abidəyə həsr edir, onunla qaynayıb-qarışır. Elə buna görə də arxeoloqun adı sonralar bu abidə ilə qoşa çəkilir" (3, s.16). İki belə abidənin: antik Qəbələ şəhər yerinin və Qaracəmirlidə e.ə.V-IV əsrlərin möhtəşəm saray kompleksinin tədqiqatçısı olmaq İlyas müəllimin taleyinə yazılıb. Adı çəkilən hər iki abidənin tədqiqinə İlyas müəllim böyük qüvvə, mənalı ömrünün böyük yarısını, zehnini və gözünün nurunu həsr etmişdir. O, bu abidələri övladları tək sevirdi, onlar haqqında danışmaqdan, Azərbaycanın qədim tarixində onların rolu və əhəmiyyətini izah etməkdən sanki zövq alırdı.

1989-cu ilin payızında Qəbələ arxeoloji ekspedisiyasında iştirak edərkən İlyas müəllimin çöl tədqiqatlarına olduqca ciddi, arxeoloji qazıntılara məsuliyyətlə yanaşdığının əyani şahidi oldum. Həmin ildə Qəbələ şəhər yerində arxeoloji qazıntı işləri Səlbir və Çaqqallı düzü sahələrində aparılırdı. Arxeoloji qazıntılara Çaqqalı düzündə professor İlyas Babayev, Səlbirdə professor Qara Əhmədov rəhbərlik edirdi. Mən Səlbir sahəsində aparılan qazıntılarda iştirak etsəm də, antik Qəbələ xarabalıqları ilə tanış olmaq üçün bir iş günü Çaqqallı düzündə, antik şəhər yerində oldum. İlyas müəllim məni

abidə ilə tanış etdi, ilk qazıntılardan 1989-cu ilədək aparılmış tədqiqatlar, görülmüş işlər, maraqlı tapıntılar haqqında geniş məlumat verdi. Onun Qəbələyə olan sevgisini, tədqiq etdiyi abidəyə vurğunluğunu görməmək, hiss etməmək mümkünsüz idi. O, böyük bir məhəbbətlə Qəbələnin Albaniyanın paytaxt şəhəri olmasından, onun istehkamlarının tədqiqindən, ictimai təyinatlı binanın açılmasından, antik dövrə aid dəfinənin tapılmasından danışırdı. Bu informasiya Azərbaycanın qədim şəhərinin, Albaniya dövlətinin paytaxt şəhərinin həyat mənzərəsini göz önündə canlandırır, insanı bu günümüzdən ayırıb tarixin sirlərlə dolu qədim qatlarına aparırdı.

Keçən əsrin son onilliyində və yeni əsrin, yeni minilliyin əvvəllərində Qəbələ arxeoloji ekspedisiyası antik dövrə aid üç oval biçimli binanın qalıqlarını və dövlət əhəmiyyətli anbar qalıqlarını üzə çıxardı. Söz yox ki, paytaxt statusu daşıyan şəhər üçün dövlət əhəmiyyətli tədbirlərin keçirildiyi monumental binaların mövcudluğu vacib şərtlərdən idi. Həmin bina qalıqlarının aşkarlanması və tədqiqi, eləcə də Şəmkir rayonunun Qaracəmirli kəndi yaxınlığında e.ə.V-IV əsrlərə aid möhtəşəm saray kompleksinin üzə çıxarılması İlyas müəllimə elmi kəşflərin sevincini yaşatdı. Bu arxeoloji kəşflər əslində professor İlyas Babayevin məqsədyönlü, ardıcıl, gərgin və yorulmaz əməyinin sonucu, mükafatı idi. O, həmin kəşflərdən qürur hissi ilə danışar, Azərbaycan tarixi

və mədəniyyəti üçün onların əhəmiyyətini vurğulayardı.

2006-cı ildə professor İlyas Babayev Qəbələ arxeoloji ekspedisiyasının rəhbəri olmaqla bərabər həm də Şəmkir rayonunun Qaracəmirli kəndi yaxınlığında aşkarlanan, e.ə.V-IV əsrlərə aid edilən nəhəng saray kompleksini tədqiq edən Azərbaycan-Almaniya-Gürcüstan beynəlxalq ekspedissiyasının rəhbəri təyin olundu. Həmin ildən Şəmkir şəhər yerində də arxeoloji qazıntılara başlanıldı. Elə ilk çöl tədqiqat mövsümündən ekspedisiyaların üzvlərinin abidələrə qarşılıqlı səfər etməsi, arxeoloji yeniliklərlə tanış olması ənənəsi yarandı. Qaracəmirli kəndi yaxınlığında yerləşən möhtəşəm saray kompleksinə hər dəfə səfər edərkən İlyas müəllimin qızmar günəş altında cavan insana xas enerji ilə, yorulmadan çalışdığının şahidi olurduq. O, minilliklərin yadigarlarını aşkarlayıb üzə çıxarmaqdan zövq alırdı. İlyas müəllim böyük bir qürurla Cənubi Qafqazda dəmir dövrünə aid belə bir abidənin olmadığını və tədqiq etdiyi saray kompleksinin məşhur Persopol abidəsi ilə müqayisəyə layiq abidə olduğunu vurğulayırdı. Onu həm də bu möhtəşəm abidənin taleyi, onun konservasiya olunaraq qorunması problemləri çox narahat edirdi. O, abidənin qorunması və gələcək nəsillərə olduğu kimi çatdırılması üçün zəruri konservasiya işlərinin aparılmasının vacibliyini müxtəlif səviyyələrdə diqqətə çatdırırdı. Təc-

rübəli arxeoloq İlyas Babayevin öz komandası ilə bizim ekspedisiyaya gəlişi həmişə xoş, arzu olunan hadisə idi. Mən məmnunluqla onu və beynəlxalq ekspedisiyanın üzvlərini Şəmkir qazıntılarının yenilikləri ilə tanış edir, fikir mübadiləsi aparırdım. Bir ənənə olaraq hər dəfə xatirə şəkilləri çəkilirdi. Bizim ekspedisiyanın bütün üzvləri yüksək ünsiyyət mədəniyyətinə malik İlyas müəllimə öz doğması, ağsaqqalı kimi dərin hörmət bəsləyirdi. Yadımdadır, sonuncu dəfə İlyas müəllim beynəlxalq ekspedisiyanın üzvləri ilə birlikdə bizim qazıntıya gəlmişdi. Ənənə üzrə abidədə aparılan qazıntılarlarla, yeniliklərlə tanışlıqdan sonra kollektiv xatirə şəkli çəkildi. Bizim ekspedisiyanın memarı Rəsul Mirzəyev İlyas müəllimlə ayrıca xatirə olaraq şəkil çəkilməsini xahiş etdi və həmin şəkillər görkəmli arxeoloq İlyas Babayevin Şəmkir şəhər yerinə səfərini sənədləşdirən sonuncu foto çəkilişlər oldu.

İlyas müəllim görkəmli rus arxeoloqu, antikşünası G.A.Koşelenko haqqında məqaləsini aşağıdakı sözlərlə yekunlaşdırmışdı: "Bütün insanlar gec-tez bu dünyanı tərk edirlər. Xoşbəxt o adamdır ki, özündən sonra xoş xatirə qoyur. Gennadi Andreyeviç Koşelenko belə insan idi. Onun əsərləri müasirlərinə kömək edirdi və tədqiqatçıların bir çox nəsillərinə örnək olaraq kömək edəcək" (4, s. 92). Eyni fikri, eyni cümlələri İlyas Atababa oğlu Babayev haqqında da təkrarlasaq, səhv etmərik. İlyas müəl-

lim mehriban, səmimi, xeyirxah insan, obyektiv və ədalətli alim idi. O, elmi fəaliyyətinin ilk günlərindən ömrünün sonunadək Azərbaycan arxeologiya elminə sədaqətlə xidmət etdi, tükənməz enerji və istedadını Vətən tarixi və mədəniyyətinin öyrənilməsinə sərf etdi, yorulmaz yaradıcı əməyi ilə nurlu bir iz qoydu.

Ədəbiyyat:

Бабаев И.А. Глиняная булла, найденная в Мингечауре // Вопросы истории Азербайджана (сборник статей аспирантов). – Баку: Изд-во АН АзербССР, 1966, с. 5-10.

Бабаев И.А. Города Кавказской Албании в IV в. до н.э. – III в.н.э. Автореф. дисс. докт. ист.наук. Москва, 1982.

İsmayılov Q.S. "Abidələr, xatirələr, düşüncələr…" . – Bakı: Gənclik, 1981, -108 s.

Бабаев И.А. Выдающийся русский археолог, антиковед Г.А.Кошеленко // Azərbaycan arxeologiyası, 2016, №1, s. 85-94.

*Tarix Dostiyev,*
*Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya institutunun şöbə müdiri, tarix üzrə elmlər doktoru*

## Tarixçi-arxeoloq-numizmat alim İlyas Babayev

Düz 40 il əvvəl – 1978-ci ilin payızı idi. Ali təhsilimi başa vurub, arxeoloq olmaq arzusu ilə Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutunun tərkibində fəaliyyət göstərən Arxeologiya və Etnoqrafiya Sektoruna gəlmişdim. Arxeologiya elminə marağım sonsuz idi. Hələ tələbə ikən, 1976-cı ildən arxeoloq Vəli Əliyevin rəhbərliyi ilə aparılan II Kültəpə qazıntılarında iştirak edirdim. Elə məni akademiyaya gətirən, arxeoloq olmaq arzumu da reallaşdıran Vəli Əliyev idi.

Akademiyanın bu möhtəşəm binasında ilk dəfə idi ki, olurdum. İnstitutun dəhlizi ilə irəlilədikcə fərəhdən qanad açıb uçmaq istəsəm də, üzərimdə bir ağırlıq, bir məsuliyyət hiss edirdim. Qapıların üzərində bəzi yazılara rast gəlirdim: “Xahiş edirik, rahatsız etməyin”, “Sakitliyə riayət edin”, “Məsləhət almaq üçün 1-2 arası müraciət edə bilərsiniz” və s. Bu yazılar mənim məsuliyyətimi bir qədər də artırırdı. Dəhlizdə çox az adama rast gəlmək mümkün idi. Rast gəldiyim insanlar isə əllərində ya kitab, ya kağız harasa təqdim etməyə tələsirdilər

Vəli Əliyevlə ilk daxil olduğum otaq “Qədim daş dövrü” şöbəsi oldu. O, məni təqdim edib, əyləşənlərin adlarını bir-bir, sakitcə söyləməyə baş-

ladı: – "Başda oturan Məmmədəli Hüseynovdur. Onun yanındakı Cəfərqulu Rüstəmov, bu xanım Firuzə Muradova, masanın arxasındakı Mənsur Mənsurov, gənc oğlan isə Əsədulla Cəfərovdur". Bundan sonra hər gün yeni-yeni tanışlıqlar və s.

Gördüyüm insanların adlarını yadımda saxlayıb, hansı dövrlə məşğul olduqlarını öyrənirdim. Görkəmli arxeoloqlar: Rəşid Göyüşov, Rəhim Vahidov, Aləm Nuriyev, Qara Əhmədov, İdeal Nərimanov, Fərhad İbrahimov, Qardaşxan Aslanov, Fərman Mahmudov, Məhəmməd Seyfəddini, Teymur Bünyatov, Hidayət Cəfərov, Maisə Rəhimova, Məşədixanım Nemətova, Rəbiyyə Qasımova, Qüdrət İsmayılzadə və başqaları ilə uzaqdan da olsa, təmasda olurdum. Onlardan biri də ilk baxışda qəzəbli görünən, çevik hərəkətləri ilə fərqlənən, Azərbaycan və rus dillərində səlis danışan İlyas Babayev idi. Vəli Əliyevlə İlyas müəllimi yaxın dostluq telləri bağlayırdı. Odur ki, Vəli müəllim məni təqdim edib, dedi ki, İlyas, bu cavan oğlanı bura gətirməkdə məqsədim Naxçıvanın ilk tunc dövrü mədəniyyətinin araşdırılmasını ona tapşırmaqdır. İlyas müəllim mənə bir-iki sual verdikdən sonra, uğurlar arzulayıb, getdi. Amma o gündən bu insana məndə bir bağlılıq yarandı. Onun isti, xoş münasibəti, aramızda 20 yaş fərqin olmasına baxmayaraq, gələcək dostluğumuzun əsasını qoydu.

Həmin vaxtdan etibarən hər dəfə akademiyaya

gedəndə İlyas müəllimlə görüşür, ondan müəyyən məsləhətlər alırdım. İlyas müəllimin rus dilində çox gözəl danışıq və yazmaq məharəti var idi. Həmçinin, arxeoloji terminlərə dərindən bələd alim idi. O zaman tezislər, məqalələr daha çox rus dilində yazıldığı üçün, tez-tez ondan xahiş edirdim ki, mənim yazılarımın qrammatik quruluşuna, düzgünlüyünə baxsın. O isə, öz növbəsində mənə övladı kimi qayğı göstərir, yorulmaq bilmədən, köməyini əsirgəmirdi. Mənim namizədlik dissertasiya işimin rus dilinə tərcüməsi və redaktəsi də İlyas müəllimin bir insan, bir alim kimi təmənnasız işinin bəhrəsi idi.

Beləcə illər ötdü. Dostluğumuzun 40-cı ilində, bir qış günündə İlyas müəllimi itirdik. 27 dekabr, 2017-ci il. Bu tarixi heç vaxt unutmaram. Çünki, 36 il əvvəl həmin gün mən də atamı son mənzilə yola salmışam. İlyas müəllimin yoxluğu təkcə bir ailə başçısının yox, Azərbaycan tarix-arxeologiya elminin bir qanadının itirilməsidir. Deyirlər ki, "alim öldü, aləm öldü". "İnsan var evdən gedər, insan var eldən". İlyas müəllim eldən getdi. Onun elmi fəaliyyətini təhlil etmək iqtidarında olmasam da, deyə bilərəm ki, ən ahıl çağlarında belə, yorulmaq bilmədən işləyirdi. Həm çöl-tədqiqat işlərində-arxeoloji qazıntılarda, həm də iş otağında, evdə. Nə vaxt onun rəhbəri olduğu şöbənin qapısını açıb baxsaydın, o, ya yazar, ya mütaliə edər, ya da ki,

ətrafındakılarla elmi diskussiya aparardı. Xarici dillərə meylli idi. Vaxtını boş keçirməzdi. 80 yaşını ötsə də belə, hər zaman öyrənməyi bir şərəf işi kimi dəyərləndirirdi. Xüsusən antik dövr haqqında zəngin biliyə malik idi. Onunla antik müəlliflərin əsərləri haqqında mübahisə etmək mümkünsüz idi. Hər sözünün arxasında faktlar dayanardı.

İlyas müəllim təkcə arxeoloq deyildi. O, qədim tariximizin gözəl bilicisi, eyni zamanda numizmat idi. Onun numizmatikaya dair çoxsaylı dəyərli əsərləri bu gün də numizmatların stolüstü kitabıdır.

İlyas müəllim dünyasını dəyişməzdən bir neçə ay əvvəl işə az-az gəlirdi. Xəstəliyin fəsadları onun zehninə, fiziki durumuna, elmi fəaliyyətinə mənfi təsir göstərmişdi. Sonuncu dəfə onunla Arxeologiya və Etnoqrafiya İnstitutunda, müdiri olduğu "Antik dövr arxeologiyası" şöbəsində 2017-ci il noyabr ayının 15-də görüşdük. Səhhətinin ağırlığı hiss olunurdu. Sağlığında yenicə çapdan çıxmış rus dilində olan son kitabının «Сборник статей по нумизматике. Баку, 2017» ("Numizmatikaya dair məqalələr toplusu") içərisinə bir cümlə avtoqraf yazıb, mənə təqdim etdi. Amma o bir cümləni təxminən 2-3 dəqiqəyə yazdı. Hətta hiss etdim ki, mənim adımı belə tapmaqda çətinlik çəkir. Cümlə bu sözlərdən ibarətdir: "Hörmətli Abbas müəllimə müəllifdən. 15.XI.2017". Bu kitab mənim kitab rə-

fimin ən görünən yerindədir. Bu, görkəmli arxeoloqun mənə olan sonuncu hədiyyəsi idi. O gündən sonra İlyas müəllimlə bir daha institutda görüşmədik.

Bu gün üzümü İlyas müəllimin əbədi ruhuna tutub deyirəm: Ruhun şad olsun, ustad! Sizin yoxluğunuz, Sizin yeriniz həmişə görünəcəkdir. Siz ondan artıq alim yetişdirmisiniz, onlarla kitab, məqalə müəllifisiniz. Neçə-neçə arxeoloji abidənin elmi cəhətdən araşdırılması Sizin adınızla bağlıdır. Mənalı ömrünüzün 60 ildən artığını Azərbaycanımızın tarixinin öyrənilməsinə sərf etmisiniz.

Qayğıkeş insan, görkəmli ziyalı, Azərbaycan tarix-arxeologiya-numizmatika elminin tanınmış simalarından biri, AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor İlyas Babayevin xatirəsi onu sevənlərin, xüsusən elm adamlarının qəlbində əbədi yaşayacaqdır.

*Abbas Seyidov,*
*arxeoloq,tarix elmləri doktoru,*
*professor*

# İlyas Babayevi xatırlayarkən

Mənim İlyas Babayev adlı arxeoloqla ilk tanışlığım qiyabi şəkildə, rusiyalı mütəxəssislərin onun haqqında danışması zamanı baş vermişdir. Bakıya qayıdaraq başqa bir tarixi məsələnin öyrənilməsinə başlayarkən mənim elmi məsləhətçim-akademik İqrar Əliyev-Roma mənşəli tapıntılarla bağlı professor İlyas Babayevlə danışmağı mənə məsləhət gördü.

İlyas müəllim məni olduqca xoş ovqatla dinlədi və dərhal iki Roma sikkəsi göstərdi. Bunlar Yuli Sezarın və Publi Klodinin onun tərəfindən Qəbələdə hələ 1978-ci ildə aşkar edilmiş gümüş denariləri idi. İlyas müəllim Roma mənşəli tapıntıların elə də çox olmadığını mənə dərhal deyərək, mövzunun genişləndirilməyi barədə düşünməyi və Qafqaz Albaniyasının öyrədilməsinin də əlavə edilməsini məsləhət gördü. Nəticədə elə də oldu.

Sonralar İlyas müəllim mənə uyğun olan çap materiallarını tövsiyə edir və verirdi. Bütün bunlar daim tarix, arxeologiya, ədəbiyyat, incəsənət və s üzrə geniş məlumatlarla müşaiyyət olunurdu. Onun erudisiyası doğrudan da çoxşaxəli idi.

Bir dəfə növbəti görüşümüz zamanı İlyas müəllim çoxdan bəri qazıntıların aparılmadığına görə yeni tapıntıların olmamasından şikayətləndi. Mən

bunu eşitdikdən sonra, gələcək layihələrin müzakirəsi zamanı bu məlumatı SEBA (Seul-Bakı) Azərbaycan-Koreya mədəniyyət mübadiləsi assosiasiyasının sədri Ruhəngiz xanım Heydərovanın nəzərinə çatdırdım. Ruhəngiz xanım bizim arxeoloqları dəstəkləmək, sonradan isə Koreya mütəxəssislərini də əməkdaşlığa dəvət etmək qərarına gəldi. İlyas Babayevin elmi nüfuzunu və tövsiyələrini nəzərə alaraq, arxeoloji layihənin obyekti Qafqaz Albaniyasının paytaxtı- Qəbələ şəhəri oldu.

Nəticədə SEBA  Assosiasiyasının maddi və təşkilati dəstəyi ilə 2005-ci ildən etibarən, 15 illik fasilədən sonra İlyas Babayevin rəhbərliyi altında Qəbələnin arxeoloji tədqiqinin yeni mərhələsi başlandı. 2009-cu ildən etibarən ekspedisiyanın işinə Koreya qrupu da qoşuldu. Ekspedisiyanın səmərəli fəaliyyəti məqsədi ilə o dövrdə Azərbaycanda yeganə olan, beynəlxalq standartlara cavab verən arxeoloji mərkəz yaradıldı. Hal-hazırda Qəbələ arxeoloji ekspedisiyasının 2005-2016-cı illərdəki fəaliyyətinin nəticələri Bakıda və Seulda müvafiq nəşrlərdə dərc edilmişdir. Aydındır ki, belə bir ekspedisiyaya - böyük beynəlxalq komandaya - rəhbərlik etmək çətin bir iş idi.

Ekspedisiya zamanı (başqa vaxtlarda da) İlyas müəllim Qəbələ haqqındakı hər bir söhbətini Roma alimi Böyük Plininin “Təbii tarix” adlı I əsrə aid ensiklopedik kitabında Kabalakanın (Qəbələ-

nin) adının yazılı şəkildə ilk dəfə çəkilməsi haqqında olan sözlərlə, çox vaxt da latın dilində başlardı. Plininin adının belə tez-tez çəkilməsi bizim öz aramızda zarafatla İlyas Babayevi -"Plini" Babayev kimi adlandırmağımıza gətirib çıxardı. İlyas müəllimin bu yeni "adı" sözsüz ki, onun ensiklopedik biliklərinin səviyyəsinə də uyğun gəlirdi.

İndi aydın olur ki, Böyük Plininin Qəbələ haqqındakı "Pvaevalent oppida Albaniae Cabalaca"(H.N.VI.29) sözlərinin təkrarlanması-həmçinin İlyas müəllimin öz dinləyicisinə real tarixi mənbə ilə bağlı məlumat çatdırmaq istəyi idi. İlyas Atababa oğlu Babayevin fəaliyyətinin yüksək qiymətləndirilməsi onun 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilməsi ilə də təsdiqləndi...

*İradə M  Nəcəfova,*
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun*
*aparıcı elmi işçisi,*
*tarix üzrə fəlsəfə doktoru*

## İlyas müəllim – xatirələrimdə yaşayan alim

40 il əvvəl Universiteti (indiki BDU-nu) bitirib Akademiyanın Tarix institutunda arxeoloqların sırasına qoşuldum. Zaman keçdikcə onların arasında böyüklüyünü daha çox anladığım neçə-neçə alim vardı: Məmmədəli Hüseynov, Cabbar Xəlilov, İdeal Nərimanov, Qara Əhmədov, İlyas Babayev…

İlyas Atababa oğlu Babayevlə 40 il həmkar kimi bir yerdə çalışdım. Bu tanınmış arxeoloq-alim, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, tarix üzrə elmlər doktoru, professor xatirəmdə necə qalıb?

İlyas müəllim zəhmətkeş bir alim idi. O, elm naminə çəkdiyi əziyyətlərdən usanmır, əksinə, hər dəfə zəhmətinin bəhrəsini görüncə elm yolunda axtarışlarını daha israrla davam etdirirdi. Onun həm namizədlik ("Azərbaycanın antik və ilk orta əsrlər dövrü qliptika abidələri"), həm də doktorluq ("Qafqaz Albaniyasının şəhərləri") dissertasiyaları Azərbaycan arxeologiyasında tamamilə yeni mövzular idi. Leninqrad (indiki Sankt-Peterburq) elmi mühiti onun fəaliyyətində mühüm rol oynamışdı. İlyas müəllim elm yolunda bələdçisi olmuş müəllimlərini həmişə minnətdarlıqla yad edər, ağız dolusu onlardan danışardı. Sevimli müəllimi Saleh Qazıyevin foto-şəkli

onun iş otağında diqqəti çəkirdi.

İlyas Babayev 1987-ci ildən başlayaraq düz 30 il Azərbaycan MEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Antik dövr arxeologiyası şöbəsinin müdiri vəzifəsində çalışıb. Həmin şöbənin önündə mənim Ağcabədi rayonundakı Qalatəpə antik və orta əsr alban şəhər məskənində apardığım qazıntıların iri plakat-şəkli asılmışdır. Bu şəklin yanında İlyas müəllimlə uzun-uzadı elmi müzakirələr aparardıq. Onun məsləhətləri mənə çox lazım idi. Xahişimi yerə salmadı, 2012-ci ildə Ağcabədiyə gəlib Qalatəpə abidəsi və onun qazıntıları ilə yaxından tanış oldu. Onunla apardığım fikir mübadiləsi bu abidə ilə bağlı bəzi məsələlərin araşdırılmasında mənə kömək etdi.

İlyas müəllim qədim Azərbaycan dövləti olan Qafqaz Albaniyası tarixinin ən gözəl bilicilərindən idi. Uzun müddət elə hesab olunurdu ki, bu dövlət e.ə. I əsrdə yaranmışdır. Lakin İlyas müəllimin tədqiqatları bu fikrin yanlış olduğunu, Albaniyanın e.ə. IV əsrin 30-20-ci illərində meydana gəldiyini göstərdi. İlyas müəllim hər zaman bir sözü deməyi xoşlayardı: "Mən Albaniya dövlətinin yaranma tarixini gününə qədər deyə bilərəm. E.ə. 331-ci il oktyabrın 1-də Makedoniyalı İsgəndər Əhəmənilər üzərində qələbə çaldıqdan sonra Albaniya dövlətinin əsası qoyulub". Strabonun da yanlışlığını üzə çıxaran İlyas müəllim olub. O, deyirdi: "Strabon düz deməyib. Albanlar onun yaşadığı dövrdən 300 il əvvəl Makedoniyalı İs-

gəndərin pullarına oxşar çoxlu pul kəsmişdilər".

İlyas Babayev Qəbələdə arxeoloji qazıntılara 1959-cu ildə S.Qazıyevin rəhbərliyi ilə başlamışdı. 2009-cu ildə Qəbələ qazıntıları ilə tanış olmağa getmişdik. İlyas müəllim bir sahəni ilk dəfə Qəbələdə olan gənc tədqiqatçılardan birinə göstərib dedi: " Vüsal, bax, düz 50 il əvvəl mən burada qazıntı aparmışam". Mən söhbətə qoşulub "50 il sonra, Vüsal, sən də deyərsən ki, düz 100 il qabaq İlyas müəllim bu sahədə qazıntı aparıb".

Ömrünün ahıl çağlarında İlyas Babayev bütün gücünü iki böyük beynəlxalq arxeoloji ekspedisiyanın fəaliyyətinə yönəltdi. Qəbələdə aparılan tədqiqatlarda yerli mütəxəssislərlə yanaşı Cənubi Koreyadan olan 30-dan artıq arxeoloq da iştirak edirdi. İlyas müəllimin rəhbərlik etdiyi Beynəlxalq Şəmkir-Qaracəmirli ekspedisiyasının tərkibinə isə Almaniya və Gürcüstandan olan arxeoloqlar qatılmışdı. Bu ekspedisiya Kür çayının sağ sahilində e.ə. V-IV əsrlərə aid şəhər tipli yaşayış yerində nəhəng (20 ha ərazini əhatə edən) sarayın qalıqlarını aşkar etmiş, burada ardıcıl olaraq bir neçə il kompleks tədqiqatlar aparmışdır. Arxeoloji qazıntılar nəticəsində həmin sarayın çoxlu sütunlu zalları, əsas binası, hasarlı həyəti və propleyası açılaraq üzə çıxarılmışdır. İlyas müəllimin fikrincə, bu yaşayış məskəni bütün Cənubi Qafqazı idarə edən inzibati mərkəzin qalıqlarıdır və onu Əhəmənilər imperiyasının mərkəzi şəhərləri olan Pasarqad

və Persopolla müqayisə etmək olar. Əminəm ki, bu abidə İlyas müəllimin adını elm aləmində daim yaşadacaq daha bir nişangaha çevriləcəkdir.

İlyas Babayev gərgin elmi işlərlə yanaşı, həm də pedaqoji fəaliyyətlə də məşğul olurdu. Yadımdadır, mütəqilliyimizin ilk illərində Azərbaycanda yeni-yeni ali məktəblər, universitetlər açılır, tədris proqramlarına yeni fənlər daxil edilirdi. Bu fənləri tələbələrə marksizm-leninizm ideologiyasından uzaq, azad və müstəqil dünyagörüşə uyğun tədris etməyi bacaran mütəxəssislərimiz çox az idi. Belə bir vaxtda zəngin elmi fəaliyyəti və çoxillik pedaqoji təcrübəsi, ensiklopedik biliyi, eyni zamanda öz üzərində daim işləmək qabiliyyəti olan İlyas müəllim təhsilimizin köməyinə gəldi. O, uzun illər Azərbaycanın müxtəlif universitetlərində bir çoxlarının "boyun qaçırdığı" fənlərdən – "Tarixi antropologiya", "Ümumdünya dövlət və hüquq tarixi", "Azərbaycanın dövlət və hüquq tarixi", "Roma hüququ", "İslam hüququ", "Antik dünya mədəniyyəti", "Qədim dünya tarixinin aktual problemləri", "Tarixə köməkçi fənlər", "Arxeologiya", "Qədim Şərq tarixi", "Antik dünya tarixi", "Azərbaycanda və Qafqazda sinifli cəmiyyət və dövlətin yaranması", "İbtidai icma tarixi" və başqa fənlər üzrə mühazirələr oxudu. İlyas Babayev ali və orta məktəblər üçün bir sıra yeni dərsliklərin hazırlanmasında da yaxından iştirak etmişdi.

Ölkəmizin elm və təhsil sistemi ilə bağlı ən yüksək

qurumlarda obyektivliyinə, dürüstlüyünə görə İlyas Babayevə böyük etimad göstərilirdi. O, 2001-2012-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tarix üzrə Ekspert Şurasının üzvü, tarix və siyasi elmlər üzrə bu Şuranın sədri vəzifəsində çalışmışdır. Elmi tədqiqatlara qrant ayrılması ilə əlaqədar bir sıra beynəlxalq və Respublika təşkilatlarında qiymətləndirmə zamanı İlyas müəllimin ekspert rəyi önəmli sayılırdı.

İnsanın həyat və fəaliyyətində daşıdığı adın hikməti, mənası az rol oynamır. Rəvayətə görə, peyğəmbərlərdən dördü diridir, indi də yaşayır. Onlardan da ikisi – İlyas və Xızır yer üzündədir və çətinliyə düşənlərə yardım edirlər. İlyas müəllim də bütün ömrü boyu kimin adını daşıdığını unutmamış, adına uyğun həyat tərzi sürmüşdür. O, xatirəmdə ehtiyacı olan hər kəsə kömək etməyə çalışan və etdiyi köməyə görə heç nə ummayan, biliyini başqaları ilə bölüşən, məsləhətlərini əsirgəməyən xeyirxah insan, böyük və unudulmaz alim kimi əbədiləşib.

*Təvəkkül Əliyev*
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun çöl tədqiqatları sektorunun müdiri,*
*tarix üzrə fəlsəfə doktoru*

# Elmimizin ağsaqqalı

Arxeologiya və Etnoqrafiya İnstitutu yaranandan İlyas müəllim bizim şöbənin (Azərbaycanın Antik dövr arxeologiyası şöbəsinin) müdiri olub. Bu şöbə Azərbaycan tarixinin və mədəniyyətinin tədqiqində çox mühüm elmi və strateji əhəmiyyəti olan bir şöbədir. Şöbənin tədqiq etdiyi dövrün əvvəli əhəmənilər imperiyasının dağıldığı, sonu isə sasanilər imperiyasının yarandığı vaxta düşür. Makedoniyalı İsgəndərin yaratdığı böyük dövlətin siyasi təsiri şəraitində tarixi Azərbaycan torpaqlarında Atropatena və Albaniya dövlətləri yaranmışdı. O dövrün tez-tez dəyişən siyasi xəritəsi fonunda aşkar edilən arxeoloji abidələrin etnik mənsubiyyətini müəyyən etmək olduqca çətindir. Xüsusən, Albaniyanın sərhədlərinin müəyyən edilməsinin böyük tarixi, siyasi və eyni zamanda strateji əhəmiyyəti vardır. İlyas müəllim bu şərəfli vəzifənin öhdəsindən layiqincə gəlmişdir.

AMEA-nın müxbir üzvü seçilməsi İlyas müəllimin Azərbaycan tarixi və arxeologiyası sahəsindəki nailiyyətlərini qismən qarşılasa da, lakin bu çox az idi. İlyas müəllim çoxdan AMEA-nın həqiqi üzvü olmağa layiq idi. Mən onu bilirəm ki, Beynəlxalq konfrans və simpoziumlarda, statusundan asılı olmayaraq heç bir alim Cənubi Qafqazın antik

dövr tarixi və arxeologiyası haqqında İlyas müəllimlə mübahisəyə girişməyə cürət etməzdi.

Azərbaycanda arxeoloji qazıntılar zamanı aşkar edilən antik dövr abidələrinin dövrünün müəyyən edilməsində İlyas müəllimin rəyi həlledici idi. Yadımdadır, 2008-2009-cu illərdə Sumbatan-dizə şəhər yerində eyni mədəni təbəqədə bir daş qutu tipli qəbir və bir neçə kurqanaltı küp qəbir aşkar etmişdik. Bu qəbirlərin dövrünü müəyyən etmək mənim üçün çətin idi. Qəbirləri, onlardan tapılan keramika və bəzək əşyalarını İlyas müəllimə göstərib kömək istədim. İlyas müəllim nəinki qəbirlərin dövrünü dəqiq müəyyən etdi, eyni zamanda qəbirlərdən tapılan artefaktlara analoji materialları hansı arxeoloji ədəbiyyatda tapa biləcəyimi də göstərdi. Azərbaycanda Arxeoloji tədqiqatlar məcmuəsində İlyas müəllimlə ilk müştərək məqaləmiz də belə yarandı.

İlyas müəllim, təkcə öz dövrünü deyil, başqa arxeoloji dövrləri də yaxşı bilirdi. Bu fikri mən sözgəlişi deyil, İnstitutun Elmi Şurasında, İnstitutun nəzdindəki Müdafiə Şurasında elmlər doktoru və fəlsəfə doktoru dissertasiyalarının müzakirəsi zamanı onun məntiqli və yüksək səviyyəli analitik çıxışlarına əsasən deyirəm. Bu sətirlərin müəllifi 1975-ci ildən 1990-cı ilə qədər Azərbaycanın orta əsrlər arxeologiyası, 1990-cı ildən bu günə qədər isə tunc dövrü və erkən dəmir dövrü arxeologiyası ilə

məşğul olur. Elə vaxtlar olurdu ki, mən məşğul olduğum dövrlər haqqında da İlyas müəllimdən çox dəyərli məsləhətlər alırdım. Bir sözlə İlyas müəllim hərtərəfli, ensiklopedik biliyə malik bir alim idi. Biz onun simasında "canlı ensiklopediyamızı" itirdik. Gün keçdikcə bu itkini daha yaxından hiss edirik.

İlyas müəllimdən danışarkən onun insani keyfiyyətlərini qeyd etməmək insafsızlıq olardı. Əvvəlcə, onu qeyd etmək istərdim ki, İnstitutda elə bir şöbə tapılmaz ki, onun müdiri İlyas müəllim qədər öz şöbə işçiləri ilə daha çox bir yerdə və ruhən daha çox yaxın olmuş olsun. Bir şöbə müdiri kimi həm birlikdə, həm də ayri-ayrılıqda hər kəsin problemi ilə maraqlanar və əlindən gələn köməyi əsirgəməzdi. (Haşiyə çıxaraq qeyd edim ki, şöbə işçilərinin, dost və tanışların problemlərini həll etmək üçün İlyas müəllim bəzən yüksək vəzifədə olan yaxın qohumlarının da köməyindən istifadə edərdi). Şöbədə hər hansı bir tədbir keçirilən zaman vəsait toplandıqda, İlyas müəllim laborant və kiçik elmi işçilərdən vəsait alınmasına yol verməz, onların əvəzinə bu vəsaiti özü qoyardı. Adına, sanına, mövqeyinə baxmayaraq təkəbbürlü deyildi. Haqlı olaraq belə insanlar haqqında deyirlər ki, uşaqla uşaq, böyüklə böyük idi. İlyas müəllim, məsləhətinə həmişə ehtiyac duyulan bir insan idi.

İnstitutda elmi kadrların hazırlanmasında İlyas müəllimin rəhbərlik etdiyi şöbənin şəxsən onun

özünün böyük əməyi vardır. 1993-cü ildən indiyə qədər İnstututda şöbə müdiri rəhmətə getdikdən sonra, kadrların olmaması üzündən bir çox şöbənin (Epiqrafika, Antropologiya, arxeoloji abidələrin konservasiyası və bərpası və s) ləğv edildiyinin şahidiyik. Amma, İlyas müəllim özündən sonra sanballı elmi potensial qoyub getmişdir. Bu elmi kadrlara (Əkbər Bədəlov, Ceyhun Eminli, Emil İsgəndərov, Natiq Alışov və b.) İlyas müəllim şəxsən rəhbərlik etmiş, onların dissertasiya işlərinin vaxtında yazılıb müdafiə olunması üçün düzgün istiqamət vermişdir.

İlyas müəllim görkəmli alim, gözəl xasiyyətli insan, yaxşı yoldaş, ədalətli və qayğıkeş şöbə müdiri idi. İlyas müəllimin yeri həmişə görünür və görünəcək.

Mən deyərdim ki, bir evdə, bir kənddə ağsaqqal olmaq o qədər də çətin deyil. Amma, bir elmdə ağsaqqal olmaq çox çətindir. İlyas müəllim elmimizin ağsaqqalı idi!

İlyas müəllim, Allah sənə qəni-qəni rəhmət eləsin! Qəbrin İlahinin nuru ilə dolsun! Yerin cənnət olsun!

*Bəhlul İbrahimli*
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu*
*"Arxeoloji işin tarixi və nəzəriyyəsi" şöbəsinin müdiri,*
*tarix üzrə fəlsəfə doktoru*

## Xeyirxah məsləhətçi

Deyirlər ki, bu dünya bir pəncərədir. Hər birimiz ona doyunca baxır sonra isə çıxıb gedirik, ya razı, ya da narazı…

Amma həyatda elə insanlar var ki, onlar bu pəncərədən sadəcə baxıb getməyiblər. Özlərindən sonra silinməz izlər qoyublar, xeyirxah əməl sahibi, böyük məsləhətçi olublar . Belə insanlar xatirələrdə daim yaşayırlar.

Onlardan biri də düz bir il bundan əvvəl, 82 yaşında əbədiyyətə qovuşmuş İlyas Babayevdir. İlyas müəllim əbədiyyət dünyasına köç edərkən elmin ən yüksək zirvəsini fəth etmişdi – tarix elmləri doktoru professor, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü idi . Həyatda ən böyük qazancı isə “Böyük insan” olması idi.

İlyas müəllim həyatnın son anlarına qədər bir əlində bel, yorulmadan qazıntı işləri aparır, digər əlində isə qədim dövr tariximizin qaranlıq səhifələrini işıqlandırırdı.

İlyas Babayev nəinki rəhbərlik etdiyi şöbənin, eyni zamanda institutda olan digər şöbələrin əməkdaşları ilə çox mehriban, çox səmimi eyni zamanda xeyirxah məsləhətçi idi.

İlyas müəllimlə yaxınlığımızın ilk anı qəlbimdə daim yaşayır. XX əsrın 70-ci illərinin axırları idi.

Tarix İnstitutunda laborant işləyirdim. Bir neçə ay idi ki, bir problemlə bağlı çox əsəbi anlar yaşayırdım. O qədər dəyişmişdim ki, bəzən güzgüyə baxanda özümü tanıya bilmirdim . Nahar fasiləsi idi. Dəhlizdə gəzirdim. Bu zaman hamımızın hörmət etdiyimiz İlyas müəllim mənə yaxınlaşdı. Onun sifətində xeyirxahlıq əlamətlərini gördüm. Görüşdük. Əhvalımın belə olmasının səbəbini soruşdu. Yorğun olduğumu bildirdim. O, isə bildirdi ki, düz demirsən. Mən düz bir həftəyə yaxındır ki, səni müşahidə edirəm, səbəbini de yəqin ki, köməyim olar.

Mən bu halımın səbəbini deyəndə İlyas müəllim bir addım geri çəkildi və çox diqqətlə məni süzdü. Daha sonra yaxınlaşaraq əlimdən tutdu, əllərinin hərarəti məni silkələdi. O an dediyi sözlər indi də qəlbimdədir:

– Maarif, hiss edirəm ki, çox həssas adamsan, eyni zamanda da özünə qarşı çox tələbkarsan. Biz bu həyatda həm xeyirxah, həm də paxıl insanların əhatəsində yaşayırıq. Xeyirxah insanlar çoxdur , onlarla yaxın , sirdaş olmaq lazımdır. Bədxahlar isə azdır. Onlardan uzaq olmaq, bizə olan mənfi münasibətlərinə fikir verməmək olar. Sən də belə et. Fikir vermə. Sonda mənim haqlı olduğumu görəcəksən.

Ayılarkən məndən xahiş etdi ki, köməyi dəyə biləcək istənilən hər bir məsələ ilə bağlı çəkinmə-

dən onunla əlaqə saxlayım.

Məndən 15 yaş böyük olan İlyas müəllimin bu sözləri yaddaşıma yazıldı, sonrakı həyatıma bir işıq, nur saçdı. Mən o anlara qədər də xeyirxah insanların əməllərindən özümə nümunə götürürdüm. İlyas müəllimin bu məsləhəri bir daha mənə anlatdı ki, məhz belə olmaq, belə yaşamaq lazımdır.

İlyas müəllim bizim həqiqi dostumuz, məsləkdaşımız olub. Onunla son görüşüm 2016-cı il oktyabr ayının 2-də Əkbər müəllimin oğlunun toyunda oldu. Həmin dəqiqələrdə 80 yaşlı bu elm fədaisi yenə də gülərüz, yenə də səmimi idi. Sifətində böyük həyat eşqi, yaradıcılıq şüası var idi.

Sonda onu yazmaq istəyirəm ki, yaddaşıma işıqlı, nurlu, fədakar bir insan kimi əbədi həkk olunmuş İlyas Babayevin xatirəsini hər an əziz tutacaq, onu "Böyük insan", "Böyük məsləhətçi" kimi xatırlayacağam!

*Maarif Xalıqov,*
*tarix üzrə fəlsəfə doktoru*

## Bizim İlyas Müəllim

Mən 2002-ci ildə ADPU-nun tarix fakultəsini bitirmişəm. Biz tələbə olan vaxtı çox müəllimlərimiz olub. Yadda qalanı da, tez unudulanı da… İlyas müəllimlə ilk qiyabi tanışlığımız birinci kursda oxuyanda olmuşdu. Arxeologiya fənnini keçərkən onun əsərlərinə müraciət etmişik. Qəbələdə və Qafqaz Albaniyasının müxtəlif abidələri üzərində apardığı arxeoloji tədqiqatlarına çox müraciət etmişik. Onun əsərlərindən ciddi alim, gözəl tədqiqatçı olması haqqında təsəvvürlərimiz yaranmışdır.

Mənim onda heç ağlıma da gəlməzdi ki, nə vaxtsa onunla görüşəcəm, həmsöhbət olacam, hətta isti münasibətimiz olacaq.

Univeristeti bitirərkən bizə elan olananda ki, buraxılış attestasiya imtahan komissiyamızın sədri canlı əfsanə hesab etdiyimiz tarix elmləri doktoru, professor İlyas Babayev olacaq düzü hamının içində bir həyacan var idi. Çünki İlyas müəllim haqqında, onun elmi haqqında əsərlərindən, dediyim kimi, təsəvvürlərimiz var idi və belə bir ciddi alim qarşısında müdafiəyə çıxmağın nə olduğunu fikirləşdikcə həyacan artırdı …

İndiki kimi yadımdadır, mənim növbəm çatana qədər içimdəki həyacan daha da artırdı… La-

kin çox qəribə hadisələrində şahidi olurdum ki, müdafiədən çıxan tələbə yoldaşlarım hamısı çox rahat və gülərüz çıxırdı. İlyas müəllim bəlkədə mən içəri daxil olanda necə həyacanlandığımı görüb dedi ki, «... rahat ol, biz səni bura dinləməyə gəlmişik, özünü sıxma...» Bilmirəm niyə, amma bu sözlərdən sonra bir qədər ürəkləndim və özümü əla alaraq davam etdim. Dinlədikcə «ahaa», «Bəli», «Tamamlilə düzdür» və bu kimi sözlərilə daha da ruhlandıraraq diqqətlə qulaq asırdı. Bir qədər dinlədikdən sonra cəmi iki sual verdi və gələcəkdə elmi fəaliyyətlə məşğul olamağı mənə tövsiyə etdi…

İlyas müəllimin zəngin elmi fəaliyyəti ilə yanaşı, çox zəngin pedaqoji təcrübəsi də var idi. Daha sonra mən magistraturada oxuyarkən İlyas müəllim bizə dərs deyirdi. Mənim baza təhsilimin rus sektoru olmasının müsbət məziyyətlərindən istifadə etməyi hər zaman təkrar-təkrar tövsiyə edirdi. Hətta məsləhət görürdü ki, tanşlarım var, kömək edim get Rusiyada qədim şumer ya akkad dilini öyrən – Azərbaycanda buna ciddi ehtiyyac var...

İlyas müəllim haqqında düzü harda olsam xoş xatirələr, hər zaman müsbət fikir və sözlər eşidirəm. İlyas müəllimin əsl alim, qayğıkeş elmi rəhbər və humanist insan olmasını dəfələrlə vaxtilə onun üzvü və sədri olduğu, bu gün mənim

çalışdığım Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasında da eşitmişəm. İlyas müəllim 2001-2011-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tarix və siyasi elmlər üzrə Ekspert Şurasının üzvü, 2011-2012-ci illərdə həmin Ekspert Şurasının sədri olub. Rəhbərlik etdiyi dövrdə iddiaçılara verdiyi tövsiyələr, göstərdiyi humanist münasibət indidə xatırlanır.

Tale elə gətirdi ki, mən 2005-ci ildən Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasında (AVCİYA) çalışmağa başladım. Elə həmin ildən də özümə dəyərli dost, Qardaş qazandım – bu siyasi elmlər üzrə fəlsəfə doktoru, əməkdar jurnalist - Fuad Babayevdir. Bir müddət sonra bildim ki, Fuad müəllim həyatımda xoş xatirələrlə xatırladığım müəllimim - İlyas Babayevin oğludur. Ona İlyas müəllimlə bağlı xatirələrimi danışdım və necə hər zaman yada saldığımı dedim. Dəfələrlə 1905. az portalının redaksiyasında İlyas müəllimlə görüşüb, yadda qalan söhbətlər etmişik. Bizim əlçatmaz hesab etdiyimiz xarici alimlər haqqında İlyas müəllim necə bir yerdə Rusiyada oxuduqlarını, müdafiəyə hazırlaşdıqlarını və bu gündə münasibət saxladıqlarını sevə sevə danışırdı. İlyas müəllimi saatlarla dinləmək olardı. O öz peşəsini sevən və hər zaman öyrətməyə hazır olan, bildikləri ilə paylaşmaq istəyən

çox səmimi insan idi.

Bu gün ən çətin məsələ İlyas müəllim haqqında keçmiş zamanda danışmaqdır. Təbii ki, tarix elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü İlyas Atabala oğlu Babayevin arxeologiya elminin inkişafında açdığı yol, tarix elminin (xüsusilə numizmatika sahəsində) inkişafına verdiyi tövhələr danılmazdır.

Allah İlyas müəllimə rəhmət eləsin, ruhu şad olsun, qəbri nurla dolsun.

*Dəyanət Musa oğlu Musayev*
*AVCİYA-nın vitse-prezidenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*ADPU-nun baş müəllimi*

## Təəccüblü dərəcədə sadə, təvazökar və mədəni insan

Uşaqlığımın ən böyük arzusu həyata keçmişdi. Ali məktəbə qəbul olmuşdum. Dərs cədvəlinə əsasən ilk dərs "Qədim dünya tarixi" fənnindən mühazirə idi. Mühazirəçi kimi isə "prof. İlyas Babayev" qeyd edilmişdi. Orta məktəbə qədəm qoyduğumuz ilk gün, ilk müəllimimiz necə yadda qalırsa, unudulmursa, ali məktəbdəki ilk gün və ilk müəllim də ömrünə tələbəlik kimi yaddaqalan, əsrarəngiz günlər yazılmış hər bir şəxs üçün unudulmaz olur. Və daim xoş xatirə kimi yaddaş süzgəcindən keçirilərək bir ömürlük xatirəyə çevrilir.

İlyas müəllimin ilk mühazirəsi həm ibtidai insanların formalaşması və inkişafı haqqında tarix elminin gəlib çıxdığı ən son nəticələrin izahı, həm də bir ali məktəb müəllimi haqqında ilk heyrətdolu təəssürat baxımından mənim yaddaşımda xüsusi iz buraxdı. Onun sonrakı bütün mühazirələri də ilk mühazirəsi kimi gənc mütəxəssislərin dünyagörüşündə hər dəfə nələrisə dəyişirdi.

Sonralar öyrəndim ki, İlyas Babayev tarix elminin "Qədim dünya tarixi" adlandırılan bölməsinin nəinki Azərbaycan, həm də bütün keçmiş SSRİ üzrə ən yaxşı bilicilərindən, ən məhsuldar tədqiqatçılarından biri kimi tanınır və qəbul edilir.

Sonralar iş elə gətirdi ki, İlyas müəllimin kafedra müdiri olduğu Azərbaycan Universitetində mən də müəllim kimi çalışmağa başladım. Müəllimim kimi tanıdığım bu insanı həmkar, iş yoldaşı kimi tanımaq da qismətim oldu. Bundan sonra İlyas müəllimin mənim yaddaşımdakı portreti tam formalaşdı. O, təəccüblü dərəcədə sadə, təvazökar və mədəni insan idi. Bu üç insani keyfiyyətin bütün ciddi alimlərə, öz peşəsinin yüksək peşəkarı olan insanlara xas xüsiyyət olduğunu bəlkə də ilk İlyas Babayevin timsalında öyrəndim.

İlyas Babayev mənim üçün ali məktəb müəllimi, elm adamı olmağın meyarı idi. İlyas müəllimi şəxsən tanımaq, uzun illər eyni universitetdə birgə çalışmaq, tez-tez ünsiyyətdə olmaq qismətim olduğu üçün özümü şanslı biri hesab edirəm. Alimlər deyirlər ki, səmadakı nəhəng ulduzların bəziləri milyon illər öncə sönsə də, onların işığını biz indi də görməkdəyik. Məncə, İlyas müəllimin bir ziyalı kimi işığı da o ulduzların işığı qədər uzunömürlü olacaqdır. O, bu gün aramızda olmasa da ondan nümunə götürən, öyrənən minlərlə tələbəsi onun ideya və əməllərini Vətənimizin hər yerində yaşatmaqda, təbliğ və tədris etməkdədirlər. Əslində bu özü də bir başqa cür yaşamaqdır.

*Elçin Cəfərov,*
*Azərbaycan Universitetinin baş müəllimi*

## Yaddaşlarda izi qalan tarixçi alim

AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor İlyas Babayev 82 il öncə Azərbaycanın dilbər guşələrindən birində – Quba rayonunun Xanəgah kəndində, çox sadə və zəhmətkeş bir ailədə dünyaya göz açmışdı.

Uşaqlığı Böyük Vətən müharibəsi illərinə təsadüf etdiyindən, bir çox məhrumiyyətlərə sinə gərmək düşmüşdü qismətinə. 2 yaşında ikən atasız qalsa da, anası Əsmər xanımın fədakarlığı nəticəsində gələcək həyat yolunu düzgün seçmişdi. Çünki çətinlikləri təkbaşına dəf etməyə çalışan zəhmətkeş ana oğlunun uğurlu gələcəyini yalnız oxumaqda görmüşdü. Ona görə də İlyas müəllim həmin dövrü xatırlayarkən qazandığı uğurların səbəbkarı olan anası Əsmər xanımı və onda arxeologiyaya sonsuz həvəs oyatmış böyük alim Saleh Qazıyevi də daim minnətdarlıqla yad edirdi…

O, vaxtilə Azərbaycan Dövlət Universitetində əlaçı təqaüdü almağını və tələbə yataqxanasında yaşamağını da özü üçün çox böyük xoşbəxtlik sayırdı. Universitetə sənəd verərkən Tarix fakültəsini seçməyinin səbəbini isə belə açıqlamışdı: "…mənim doğulduğum Xanəgah kəndinin hər qarışı, hər daşı bir tarix idi, hara ayağını atsan, pir idi, ocaq yeri, ibadətgah idi. Hətta 5-10 il əvvəl kəndimizdə qop-

muş bir ağacın kötüyü ilə üzə çıxan daş baltanın nə az, nə çox, – düz 5 min illik tarixi olduğunu demək kifayətdir. Mən ömrümü arxeologiyaya, daha doğrusu, Albaniya tarixinə həsr etsəm də, çox zəngin tarixi abidələri olan Şimal, o cümlədən, Quba rayonunu öyrənməyə vaxt ayıra bilmədim".

Əməllərin dəyəri onların məqsəd və nəticələri ilə ölçülür, – demişdi Ulu Peyğəmbərimiz.

Düz 58 il əvvəl, universiteti bitirəndən sonra Azərbaycanın ilk milli kadrlarından olan tanınmış alim Saleh Qazıyevin rəhbərliyi ilə yaradılan Qəbələ arxeoloji ekspedisiyasında çöl tədqiqat işlərinə başlayan İlyas Babayev ömrünün axırınadək sevib-seçdiyi peşəsinə vurğunluqla sadiq qaldı və apardığı tədqiqatlar Qafqaz Albaniyası tarixşünaslığında istinad nöqtəsi kimi qəbul olundu. Həmin ekspedisiyaya Cənubi Koreya Respublikasından gəlmiş 30-dan çox arxeoloq da cəlb olunmuşdu.

İlyas Babayevin rəhbərlik etdiyi ikinci beynəlxalq ekspedisiya Şəmkir-Qaracəmirli ekspedisiyası idi. Almaniya və Gürcüstan alimlərinin də qatıldığı bu ekspedisiya Kür çayının sağ sahilində eramızdan əvvəl V-IV əsrlərə aid şəhər tipli yaşayış yerində, böyük sarayın və onun ətrafında digər ictimai binaların qalıqlarını aşkar etmişdir.

1962-ci ildə keçmiş SSRİ-nin elm və ziyalılar şəhəri sayılan Leninqradda (Sankt-Peterburq) təhsil alan İlyas Babayevin universitetin qədim yunan dili

və mədəniyyəti üzrə görkəmli mütəxəssisi, professor K.M.Kolobovanın yanında qədim yunan dilini öyrənməsi sonralar onun bir çox uğurlu tədqiqatlarının "açarı"na çevrilmişdi.

İlyas Babayev 1965-ci ildə "Azərbaycanın antik və orta əsrlər dövrü qliptika abidələri" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərkən, hələ respublikamızda qliptika, straqistika üzrə mütəxəssis yox idi. Azərbaycanın müxtəlif yerlərində aparılan arxeoloji qazıntılar zamanı əldə olunan qiymətli daşlardan, şüşədən, pastadan və keramikadan hazırlanmış qliptika abidələri mütəxəssislər tərəfindən işlənilməmişdi. Cəmiyyətdəki əmlak bərabərsizliyinin, sinifli cəmiyyətin və dövlətin, iqtisadi-ticarət və mədəni əlaqələrin öyrənilməsinin mühüm əhəmiyyətini dərk edən İlyas Babayevin bu sahədəki fəaliyyəti onu respublikamızda tanınmış mütəxəssis səviyyəsinə ucaltmışdı. 1983-cü ildə SSRİ EA Arxeologiya İnstitutunda müdafiə etdiyi "Qafqaz Albaniyasının şəhərləri (e.ə. IV – e. III əsrlərində)" mövzusunda müdafiə etdiyi doktorluq dissertasiyasında Azərbaycan ərazisində sinifli cəmiyyətin, şəhərlərin, dövlətin yaranması, sənətkarlıq, beynəlxalq ticarət əlaqələri, sikkə zərbi və s. problemlər hərtərəfli təhlil olunurdu.

Professor İlyas Babayev elmi axtarışlarla bərabər, həm də pedaqoji fəaliyyətlə məşğul olmuş, bir çox universitetlərdə "Arxeologiya", "Qədim Şərq

tarixi", "Antik dünya tarixi", "Avropa və Amerika tarixi", "Roma hüququ", "İslam hüququ" və s. fənlər üzrə mühazirələr oxumuş, həmçinin bir çox ali və orta məktəb dərsliklərinin – çoxcildlik "Azərbaycan tarixi"nin I-II cildlərinin, "Azərbaycanın numizmatikası"nın I cildinin, çoxcildlik "Azərbaycan ensiklopediyası"nın, "Naxçıvan ensiklopediyası"-nın müəlliflərindən idi. Qafqaz və İranın antik dövr arxeologiyası üzrə dünya miqyasında tanınmış mütəxəssis sayılan və arxeologiya elmini keçmişə açılan pəncərə hesab edən İlyas müəllim, bu pəncərədən baxaraq, orada nəyisə axtarıb tapmaq üçün dərin biliklə bərabər, keçmişin qaranlıq səhifələrinə işıq saçan "açar"ı tapmağı əsas amil hesab edirdi. Bu baxımdan universitetdə oxuyarkən ərəbşünas alim Ələsgər Məmmədovun ərəb dili dərsliyindən bu dili mükəmməl öyrəndiyini tez-tez yada salırdı. İlyas müəllim müvafiq ədəbiyyatdan istifadə etməklə, həm də fransız dilini və sanskrit dillərini yüksək səviyyədə öyrənməyə nail olmuşdu. Elə bu dilləri öyrənməyinin hesabına o, sonralar antik dövr müəlliflərinin əsərləri ilə orijinalda tanış olmaq, antik mənbələrdə Azərbaycan tarixinə aid materialları öyrənmək, xüsusilə numizmatika sahəsindəki tədqiqatları zamanı həmin dillərdən lazımınca bəhrələnmək imkanı qazanmışdı.

İlyas Babayev Qafqaz Albaniyası haqqında maraqlı fikirlər söyləyirdi: "…Albaniya Şimali Azər-

baycanın ərazisində yaranmış birinci müstəqil dövlət olub. Əlbəttə, cənubda Manna və digər dövlətlər var idi. Qəbələnin adı e.ə. I əsrdə çəkilir. Böyük Plininin adını çəkdiyi Qəbələnin harada yerləşdiyini 1967-ci ildə tapdım. Son iki ildə apardığım qazıntılardan məlum olub ki, burada daha qədim yaşayış sahələri varmış. İlk dəmir dövrünə aid böyük taxıl anbarları, onların dibində isə yanmış arpa tapmışdım…

Qafqaz Albaniyası, sözün bütün mənalarında Azərbaycan dövlətidir. Dövlətin mərkəzi təxminən 800 ilə yaxın Qəbələ şəhəri olub. Albanlar bizim əcdadlarımızdır. Amma bir şeyi qeyd edim ki, Albaniya adının haradan götürüldüyü bəlli deyil. Bəzi mənbələrdə Albaniyanın "Albus" (latınca "ağ") sözündən götürüldüyü deyilir. Görünür, bu söz burada yaşayan hündürboy, sarışın, ağdərili adamlara işarədir".

Son illər Şəmkir rayonunun Qaracəmirli kəndi ərazisində aparılmış qazıntı işləri Əhəməni dövrünə aid möhtəşəm bir saray kompleksinin qalıqlarını aşkar etməyə imkan vermişdir.

Bu ekspedisiyalar zamanı xarici alimlərin iştirakı ilə aparılan qazıntılarda əsas prinsip ondan ibarət idi ki, tapılan bütün maddi mədəniyyət nümunələri heç vəchlə kənara çıxa bilməz. Elmi tədqiqatların nəticələrinin xarici elmi jurnallarda çap olunması isə ancaq Azərbaycanın tarixinin daha yaxından öy-

rənilib təbliğ edilməsinə yönəldilmişdir.

Dünyanın müxtəlif şəhərlərində (Moskva, Kiyev, Afina, Ankara, Budapeşt, Seul, Geongu, Roma, Tbilisi, Mahaçqala) keçirilən beynəlxalq konqres, simpozium və konfranslarda maraqlı məruzələrlə çıxış edən İlyas Babayevin gördüyü işlər barədə hələ çox deyilib, çox yazılacaqdır…

Uzun illər öncədən ("Elm və həyat" jurnalında işləməyə başladığım vaxtdan) tanıdığım İlyas müəllimlə son vaxtlar daha tez-tez rastlaşırdıq. "Elmlər Akademiyası" metrostansiyasından AMEA-nın əsas binasının girişinə qədər olan yolu İlyas müəllim öz yaşına uyğun olmayan cəldliklə elə həvəslə gedirdi ki, sanki cavan elmi işçi təzə iş yerinə tələsirdi. Daim əlində gəzdirdiyi böyük portfeli isə onun əsl ziyalı görkəmini çox gözəl tamamlayırdı.

1935-ci ilin 23 mayında doğulmuşdu İlyas müəllim. 2017-ci ilin 27 dekabrında haqq dünyasına qovuşdu, doğma Xanəgah kəndində torpağa tapşırıldı…

Tanınmış tarixçi alim, AMEA-nın müxbir üzvü, mehriban və səmimi insan, itkisi ilə barışa bilmədiyimiz İlyas Babayevin əziz xatirəsi onu tanıyanların və doğmalarının yaddaşında əbədi yaşayacaqdır.

*Maral Poladova*
*AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Elmi nəşrlər və proqnozlaşdırma şöbəsinin baş mütəxəssisi*
*''525-ci qəzet''*

## Ölümünə heyfsləndiyim alim

(Böyük ehtiramla andığım, ölüm xəbərindən sarsıldığım mərhum arxeoloq alim, professor İlyas Babayevin ruhuna ithaf olunur)

Professor İlyas Babayevlə şəxsi tanışlığım 2008-ci ildən başlayıb. Qəbələdə aparılan qazıntılara rəhbərlik etdiyini bilirdim. Müəllifi olduğum Qəbələnin tarixi və müasir görkəmi ilə bağlı “Azərbaycanın İsveçrəsi” adlı kitabda arxeoloji qazıntıların nəticələrinə də toxunmuşdum. Həmin kitabı İlyas müəllimə təqdim etmək üçün Azərbaycan Milli Elmlər Akademiyasına, onun şöbə müdiri olduğu Arxeologiya və Etnoqrafiya İnstitutuna getdim. Özümü təqdim edib Qəbələ haqqında kitab yazdığımı dedim və ona hədiyyə etmək istədiyimi bildirdim. Alim məni çox səmimi qarşıladı və ilk söhbətimizdən ona qarşı xüsusi rəğbətim yarandı. Başa düşdüm ki, İlyas müəllim haqqında həmkarları məhz onun insani keyfiyyətlərinə görə həmişə yüksək fikirdə olublarmış. Hələ onunla görüşməzdən əvvəl baş redaktorum, Azərbaycan Radiosunun “Xəbərlər” redaksiyasının müdiri, mərhum jurnalist Heydər Zeynaloğludan da İlyas müəllimin alicənablığı, sadəliyi haqqında gözəl fikirlər eşitmişdim. Onu yaxından tanıyanda və səmimi ünsiyyətimizdən sonra qəti əmin oldum ki, İlyas Babayev elmi nailiyyətləri ilə yanaşı, həm

də özünəməxsus şəxsi keyfiyyətləri ilə insanlığın ən ali zirvəsinə yüksəlib, həmkarları arasında seçilən şəxslərdən biri kimi daima hörmət qazanıb. Rəhbərlik etdiyi şöbənin hər üzvü ilə dil tapmağı bacaran, nəinki akademiya sistemində, elm aləmində olan həmkar yoldaşları, aspirantları ilə, eyni zamanda qazıntı zamanı araşdırma apardığı ərazidə çaslışan adi fəhlələrlə, kənd sakinləri ilə çox nəzakətlə davranan bir insan olub

Belə maraqlı bir insanla tanışlıqdan təbii ki, məmnun qaldım və jurnalist marağı üstün gəldiyindən İlyas müəllimlə əməkdaşlıq etməyə başladım. Sanki onun Azərbaycan radiosu üçün tapıntı olduğunu düşünürdüm. Çünki o "yer qazırdı" və "tarix yazırdı". Nələri tapırdı, tapıntıları nə deyirdi, hansı dövrlərdən xəbər verirdi, bizim keçmişimiz hardan başlayıb, hansı qərinələri adlamışdı? Bir sözlə, alimə veriləcək xeyli suallarım var idi. Ona görə də ondan radio üçün müsahibə almaq istədiyimi bildirdim və növbəti görüş vaxtını müəyyən etdik. Cəmi bir-iki gündən sonra vədələşdiyimiz vaxtda mən onun otağına daxil oldum…

Mənim ona bağışladığım kitabı axıracan oxumuşdu və etnoqrafiya ilə bağlı yazılarıma görə fikirlərini bildirdi. "Sən bu mövzuda müdafiə edə bilərsən" deyib məndə elmə maraq yaratdı. "Xeyli zəhmət çəkmisən, araşdırma aparmısan, elə bu istiqamətdə bir iş götür və müdafiə elə…" "Mən axı

tarixçi deyiləm, ixtisasca jurnalistəm" deyib, mənə çətin olacağını düşündüm. İlyas müəllim araşdırma aparmaq qabiliyyətimi yüksək qiymətləndirdi və çətinlik çəkərəmsə hər zaman böyük bir qardaş kimi kömək edəcəyini söylədi. O məni institutda "Müasir dövr etnoqrafiyası" bölməsinin rəhbəri, tarix üzrə fəlsəfə doktoru Emil Kərimovla tanış edərək mənə istiqamət verməyi xahiş etdi. Emil müəllim də çox məhsuldar alim idi və mətbuatda etnoqrafiya mövzusunda tədqiqatların genişləndirilməsi ilə bağlı tövsiyələrini əks etdirən geniş yazısına rast gəlmişdim. O mənə təxminən 20-yə yaxın problematik mövzu haqqında məlumat verdi və Qəbələ rayonu ilə bağlı işlənməsi aktual olan məsələlərdən danışdı…Bundan əlavə İlyas müəllim məni öz alim yoldaşlarına, institutun həmkarlar təşkilatının sədri, tarix üzrə fəlsəfə doktoru Abuzər Ələkbərova, tarixçi alim Tahir Şahbazova istedadlı bir jurnalist kimi təqdim etdi. Akademik Teymur Bünyadova (T. Bünyadov həm də Qəbələdə etnoqrafiya üzrə tədqiqatların aparılması üçün SEBA təşkilatı tərəfindən yaradılan qrupa ekspedisya rəhbəri təyin edilmişdir. Ş.M) Qəbələdən oldğumu söylədi, mənim də alimlərin dəstəsinə qoşulmağımı məsləhət bildi. "Azərbaycanın İsveçrəsi" kitabında bununla bağlı kifayət qədər material topladığımı diqqətə çatdırdı. Bu mənim üçün çox böyük qürur, adi bir jurnalist üçün göstərilən olduqca böyük etimad idi. İlyas

müəllimdən, onun həmkar dostlarından eşitdiyim xoş sözlər sanki məndə özünə inam hissi yaradır və məsuliyyətimi daha da artırırdı. Ciddi-cəhdlə tədqiqatçı olmaq istəyim günü-gündən şölələnirdi.

Ancaq mən Arxeologiya və Etnoqrafiya İnstitutundan elmi iş götürə bilmədim. Həmin il elmi müəssisənin rəhbərliyi başqa ixtisas sahiblərinin institutdan elmi mövzu araşdırmalarına qadağa qoydu. İlyas müəllim məni Milli Tarix Muzeyinə yönəltdi. Hətta özü məni akademik Nailə Vəlixanlının rəhbəri olduğu muzeyə aparıb alim xanıma haqqımda geniş məlumat verdi. Nailə xanım isə bir ildən sonra müraciət etməyimi bildirdi.

Heç unuda bilmədiyim bir məqamdır. Belə böyük bir alim, professor adi bir insana kömək etmək üçün onunla avtobusa minib, qədim şəhərin küçələri ilə addımlayır və direktorun qəbulunda əyləşib, qızıldan qiymətli vaxtını beləcə itirir. Mən təkidlə "gəlin taksi ilə gedək" deyəndə, cavabında "niyə ki, ehtiyac yoxdur, avtobusla rahat gedəcəyik" deyib tamamilə gözləmədiyim sadəlik, insani münasibət, heç kəsdən görmədiyim üçün alışmadığım bir jest nümayiş etdirir.

Biz Tarix Muzeyinə çatanda nahar fasiləsinə düşmüşdük. Ona görə də İlyas müəllim Nailə xanıma xəbər verməyə tələsməyərək oturub fasilə vaxtının bitməsini gözləmək qərarına gəldi. Ancaq əməkdaşlardan biri təxminən 15 dəqiqədən sonra yanı-

mızdan ötəndə İlyas müəllimi tanıyaraq tez direktora xəbər verdi. Nailə xanım öz yaxın dostunun qapıda dayanmasından narahat olduğunu bildirdi və çox səmimi görüşdülər. Onların arasında illərin dostluğu olduğunun fərqinə vardım. Hətta onun ömür-gün yoldaşı, tarix uzrə fəlsəfə doktoru Tofiq Babayevlə də bir müddət öncə məni tanış etmiş, yazdığım kitabları təriflәmişdi.

İlyas müəllim çox cəhd etsə də məni etnoqraf görmək istəyi alınmadı. Ancaq onun yaradıcılığımla bağlı söylədiyi xoş sözlər məndə ruh yüksəkliyi yaratdı. Alim olmaq arzumu gerçəkləşdirdi. Özünəinam oyatdı. 20 ildən artıq çalışdığım Azərbaycan radiosunda öz ixtisasım üzrə elmi iş yazmaq qərarına gəldim və BDU-nun jurnalistika fakülətinin doktoranturası üçün keçirilən qəbul imtahanında iştirak etdim. Elmi mövzum təsdiqləndi və bir neçə elmi jurnallarda yazılarım çap olundu. Mən bu gözəl xəbəri ona söyləmək üçün yanına tələsdim.

Həmin günü də çox gözəl xatırlayıram. Mərhum professor Qara Əhmədovun qızı, tarix üzrə fəlsəfə doktoru Təranə Əhmədova ilə otağında söhbət edirdi. Bizi yaxından tanış edəndən sonra Qara müəllimi də xatırlayaraq, ruhunu böyük ehtiramla andı. Mən elmi fəaliyyətə başlamağımla bağlı xəbəri ona deyəndə, sevincimi bu gözəl niyyətli insanla bölüşəndə həddindən çox sevindiyinin şahidi oldum. Yenə də nə lazım olsa ona müraciət etməyimi söy-

lədi. Hər zaman dəstək göstərməyə hazır olduğunu bildirdi. "Hörmətli İlyas müəllim, mənim hər zaman sizin məsləhətinizə, dəstəyinizə ehtiyacım var.." deyə ona elmə gəlişimdə xüsusi rolu olduğunu, öz xeyir duası ilə yoluma işıq saldığını söylədim. "Mən Qəbələ camaatının hamısını özümə qardaş, bacı hesab edirəm" deyərək 50 ildən artıq sinəsini qazdığı  o torpağın ona doğulduğu yurd yeri kimi əziz, doğma məkan olduğunu xüsusi ilə qeyd etdi.

İlyas müəllimdən dəfələrlə radio üçün müsahibələr almışdım. Bir neçə dəfə otağında apardığı tədqiqatlarla bağlı efir söhbətimiz olmuşdu. Qəbələdən Koreyalı həmkarları və Şəmkirdəki Alman alimləri ilə müştərək işlərindən ayrıca süjetlər hazırlamışdım. Telefonla zəng edib dəfələrlə canlı efirə bağlamışdım. İstənilən an zəng etsəm də bir dəfə də olsun danışmaqdan boyun qaçırmazdı, gördükləri işləri canla-başla, bütün təfsilatı ilə açıqlayardı.

2010-cu ildə hətta Qəbələdə arxeoloji qazıntılar apararkən onun çalışdığı məkanda televiziya çəkilişlərində də iştirak etmişdim. AZTV-nin çəkiliş qrupu və "Yurd yeri" verilişin müəllifi Abdı Qoşqarla İlyas müəllimin qonağı olduq. AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun Qəbələ arxeoloji qrupu və SEBA-nın dəstəyi ilə Koreya arxeoloqlarının  birgə qazıntı işlərini lentə aldıq. Havanın çox isti olmasına baxmayaq aramızda hamıdan dözümlü İlyas müəllim görünürdü. O bir neçə saat ərzin-

də ekspedisiyanın nəticələri və qazıntı gedən ərazi haqqında geniş məlumat verdi və çəkiliş heyətini dolğun informasiya ilə təmin etdi. Yadımdadır ki, bir dəfə onunla söhbətimdə "arxeoloq" peşəsinin özəlliyindən danışmışdıq və bu peşənin çətin olduğunu, illərlə ailədən, uşaqdan uzaq qalaraq alimlərin "çöl həyatı" yaşamasının ağırlığını söyləmişdi. Bəli, İlyas müəllim belə ağır həyata sinə gərən vətənin görkəmli ziyalılarından biri olub. 50 ildən artıq Qəbələdə, paralel olaraq respublikamızın bir çox yerlərində "çöl qazıntı" işləri aparıb.

Haqqında film çəkmək, internetdə yayımlamaq niyyətində idim və bu barədə ona da demişdim. Özündən daha çox, başqa alimlərin, xüsusilə arxivində arxeologiya elminin görkəmli simalarından biri sayılan Saleh Qazıyevlə bağlı çoxlu fotoşəkillərin və kinolentlərinin olduğunu bildirmiş, onların bərpasının, müasir elektron formata çevrilməsinin zəruri olduğunu söyləmişdi. Bu barədə əməkdaşlığımız nəzərdə tutulmuşdu…Bu yaxınlarda isə elmi müdafiəmin son mərhələləri yaxınlaşırdı və yazdığım işi göstərmək, rəyini almaq üçün ona müraciət edəcəydim…

Hər dəfə AMEA-nın qarşısından keçəndə istəyirdim ki, qalxım otağında görüşüm. Ancaq tələsdiyim üçün yoluma davam edirdim. Fikrimdən keçirdi ki, onun arxivindəki sənədlərin Mərkəzi Elmi Kitabxananın Milli Rəqəmsal Yaddaş bazasına salınması və

sənədli filmin hazırlanması ilə bağlı istəyimi xatırladım. Tezəlikcə isə əlimə professor İlyas Babayevin yenicə çapdan çıxan şəxsi biblioqrafik göstəricisi düşdü. Kitab haqqında əlüstü bir yazı hazırlayıb saytda yerləşdirdim. Telefonla deyil, otağına gedib təbrik etmək qərarına gəlmişdim…

Ancaq….Sən demə İlyas müəllim bir neçə ay ərzində amansız xəstəliklə əlbəyaxa olubmuş. Onun nə xəstəliyindən xəbərim vardı, nə də ölümündən. Mediadan ölüm xəbərini eşidəndə ən yaxın dostunu itirən bir insan kimi sarsıldım. Bəli, İlyas müəllim sağlığında insanların könlündə özünün heykəlini ucaldıb və inanıram ki, yaxşılıq etdiyi məni kimi yüzlərlə insanın ürəyində adını əbədiləşdirib. Əsl insanlıq nümunəsi kimi özünə sağlığında rəhmət qazanıb.

Elmimiz, vətənimiz  böyük bir şəxsiyyəti, gərəkli elm xadimini itirdi. İlyas müəllim onu tanıyanların yaddaşında işıqlı xatirəsi ilə yaşayacaq.

Ruhunuz şad olsun, Əziz İlyas müəllim. Mən sizi özümə nəinki müəllim, ağsaqqal, eyni zamanda bir ata, qardaş hesab edirdim. Nur içində yatın.

*Şəlalə Məhyəddinqızı,*
*Azərbaycan Radiosunun*
*jurnalisti*

# Böyük itki

Maddi mənbələr əsasında bəşəriyyətin tarixi keçmişinin, qədim əmək alətləri, insan məskənləri,qəbirlər, qaya təsvirləri, silahlar, istehkamlar və s. maddi mədəniyyət qalıqlarının tədqiqi ilə 58 ildən çox məşğul olan AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor İlyas Atababa oğlu Babayev 82 yaşında dünyasını dəyişdi. Bu, Azərbaycan arxeologiya elmi üçün böyük itkidir.

Babayev İlyas Atababa oğlu 23 mart 1935-ci ildə Quba rayonunun Xanəgah kəndində anadan olmuşdu. 2 yaşında olarkən atası dünyasını dəyişmişdi. Füsunkar gözəlliyi ilə insanları özünə cəlb edən bu kəndin əhalisi qədim zamanlardan bütün çətinliklərə baxmayaraq, burada yaşamağı özlərinə şərəf bilirdilər. 5 yaşlı Şahxanım və 2 yaşlı İlyasın əzab-əziyyətinə dözən Əsmər ana təsərrüfatda, kolxozda işləməklə bərabər, gələcəkdə övladlarının oxuması üçün çalışır, hər gün onlara, - "Baxın görün atanız, babanız sizə nə qədər kitab saxlayıb?! Böyüyüb məktəbə getməlisiniz. Oxumalısınız, savadlı olmalısınız. Oxuyan insanlara hamı hörmət edir", - deyirdi. Əsmər ana öz arzusuna çatmışdı. Parçadan tikdiyi çantaya bir neçə dəftər və əlifba kitabı qoyaraq İlyası məktəbə yola salır. Xanəgah 7 illik məktəbini bitirdikdən sonra orta təhsil almaq

üçün qonşu Rustov kəndinə gündə 6 km yol gedib-gəlirdi. Qışın qarlı-çovğunlu, yazın daşqınlı, küləkli havası onu öz iradəsindən çəkindirə bilmədi. Çətin həyat tərzi keçirən İlyas anasının tövsiyəsi ilə orta məktəbi bitirir. Orta məktəbdə oxuyarkən evlərində üst-üstə yığılmış, ərəb əlifbası ilə yazılmış kitablar, əkin-biçin zamanı kəndlərində aşkarlanan qədim alətlər, küpə qalıqları, müxtəlif pulların üzə çıxması onda tarixi öyrənməyə böyük maraq yaratdı. Elə bu məqsədlə də sənədlərini Bakı Dövlət Universitetinə verib tarix fakültəsini seçir.

İlk günlərdən tələbələr arasında fərqlənməyə başlayır. Vətəninə, xalqına xeyir vermək, şərəfli, mənalı, dolğun tariximiz naminə faydalı iş görmək üçün çalışırdı. O, yaxşı bilirdi ki, tarix elmini inkişaf etdirmək üçün təkcə Azərbaycan dilini yaxşı bilmək kifayət deyil, həm də digər xalqların dilini öyrənmək lazımdır. Universitetdə oxuyarkən ərəb, qədim yunan, Sanskrit, fransız dillərini öyrənməyə başlayır və o, buna nail olur. 1958-ci ildə ADU-nu (indiki BDU-nu) fərqlənmə diplomu ilə bitirir.

23 yaşlı bir gənci Saleh Qazıyevin rəhbərliyi altında yaradılmış Qəbələ Arxeoloji Ekspedisiyasında çöl tədqiqatına göndərirlər. Tanış olmayan ərazidə, meşədə, dağ-dərədə, çöl-biyabanda, qar-çovğun, isti-soyuq, ac-susuz, gecə qaranlığında, Günəş şüaları altında işləmək polad iradə, dö-

züm, ağıl, zəka, istedad, səbr və iradə sahibi olmaq tələb edirdi. Arxeoloji qazıntılar zamanı insanların yaratdığı qədim maddi və mədəniyyət abidələri, əsasən əmək alətləri, silahlar, məişət əşyaları, insan məskənləri, şəhər və qala xarabalıqları, qaya təsvirləri, torpaq sədləri, sərdabələr, qədim yazılar və s. aşkarlanmışdı. Bütün bunları araşdırmaqla İlyas Babayev insan cəmiyyəti tarixinin öyrənilməsində əldə edilən nailiyyətə öz töhfəsini verirdi.

Dünyanın dərkini tam yüksək səviyyədə qavramaq, qədim Azərbaycan xalqının tarixini dünyaya tanıtmaq üçün İlyas Atababa oğlu Babayev Leninqrad (indiki Sankt- Peterburq) Elm Məktəbində aspiranturada təhsil almağa başlayır. Vaxt itirmədən latın dilini öyrənməklə yanaşı, antik dövr müəlliflərinin ədəbiyyatı ilə də maraqlanmağa başlayır. Antik mənbələrdə Azərbaycan tarixinə aid etnoqrafiya, numizmatika, sfrakistika, heroldika materialları ilə maraqlanır və qeyd etməyə başlayır.

Şərqi Zaqafqaziyada – tarixi Azərbaycan ərazisində mövcud olan və mərkəzi Kabalaka (Qəbələ) şəhəri olan qədim Albaniya dövlətinin eradan əvvəl IV-III əsrlərdə formalaşdığı ehtimal edilir.

Eradan əvvəl IV-III əsrlərdə Qafqaz Albaniyasında olan şəhərlərlə bağlı İlyas Babayev elmi mövzu götürür. Elmi əsəri müdafiə etmək olduqca çətin bir zamana təsadüf edir. Erməni tarixçilərinin "Böyük Ermənistan" iddiası və onları dəstəkləyən

alimlərin əhatəsində rus dilində müdafiə etməsi, Azərbaycanın qədim coğrafiyası, iqtisadiyyatı, tarixi, mədəniyyəti, ədəbiyyatı ilə bağlı verilən suallara elmi dəlillərlə cavab verməsi onun dərin zəkaya, biliyə, düşüncəyə malik olması nəticəsində mümkün olmuş və o, 1983-cü ildə elmlər doktoru adına layiq görülmüşdü.

Qədim yunan coğrafiyaşünası, tarixçi Strabon yazır ki, albanlar ticarətə meyilli deyillər. Onların pulu yoxdur. Ticarəti yalnız mübadilə (dəyişmə) üsulu ilə aparırlar. Onlar pul tanımırlar. İlyas Babayevin rəhbərliyi altında Qəbələ rayonu ərazisində aparılan qazıntı zamanı aşkarlanan dəfinələrdən aydın olur ki, Strabonun bu fıkri boş xülyadır. Strabonun yaşadığı dövrdən 300 il əvvəl albanlar külli miqdarda pul kəsiblər. Özü də onların kəsdikləri pullar Makedoniyalı İskəndərin pullarına bənzəyir. Pulların metal nümunələrinin öyrənilməsi bir sıra iqtisadi hadisələri müəyyənləşdirməklə yanaşı, həm də qədim ticarət yollarını təyin etmək yalnız Azərbaycanın deyil, bütün Qafqazın və Yaxın Şərqin tarixini dərindən öyrənməyə sövq edir.

İlyas Babayevin ən uğurlu illərindən biri 1967-ci il olub. Qəbələnin adı e.ə. I əsrdə çəkilir. Böyük Plinin adını çəkdiyi Qəbələnin harada yerləşdiyini tapır. Son iki ildə apardığı qazıntılar zamanı məlum olub ki, burada hələ qədimdən yaşayış şəhərləri olub. İlk dəmir dövrünə aid böyük taxıl anbarları,

onların dibində isə yanmış arpa qalıqları tapılmışdı.

Əsrlər, yüzilliklər, illər, aylar, günlər, saatlar tarixdə öz izlərini qoya-qoya səlnamələrini yaza-yaza, uğurlu-uğursuz, yaxşı-yaman, enişli-yoxuşlu yollarla millətin, xalqın taleyindən keçib gedir. Bu, bir həqiqətdir ki, XX-XXI əsrin bütün qabarma və çəkilmələri Azərbaycan xalqının da həyatından yan keçməyib. Torpaqlarımızın işğalı, millətimizin soyqırıma məruz qalması, zamanın ədalətsiz hökmü olmuşdu. Xalqımız bu acınacaqlı, gərgin mübarizələrdən keçə-keçə öz milli varlığını qoruyub saxlayıb, tariximizin, mənəviyyatımızın milli qürur qalaları olan oğullar yetirib.

Vətənimizin boya-başa yetirdiyi işıqlı simalarından olan, yaşadığı dövrün təlatümündən keçən, taleyində, ömründə izlər qoyan, ağrılı-acılı, həm də uğurlu və şərəfli həyat tərzi keçirən İlyas Babayev insan cəmiyyətinin keçmişini öyrənməklə tarix elmi üçün əsas cəhət olan cəmiyyətin konkret tarixini, faktların toplanmasını, sistemləşdirilməsini bir-biri ilə əlaqədar təhlil etməklə Azərbaycan tarixinin zənginləşdirilməsi üçün uğurlu töhfələr vermişdi.

İlyas Babayev iki Beynəlxalq Ekspedisiyada tədqiqat aparmış, çoxsaylı elmi və ictimai şuraların toplantısında iştirak etmiş, 700-dən çox elmi əsərin müəllifi olmuş, ASE-nin nəşrlərinin yaradıl-

masında fəal iştirak etmiş, Azərbaycan tarix elmini Beynəlxalq konfranslarda təmsil və təbliğ etmiş, Ali Attestasiya Komissiyasının Ekspert Şurasının, AMEA Arxeologiya və Etnoqrafıya İnstitutunun Müdafıə Şurasının üzvü, Antik arxeologiya şöbəsinin müdiri olmuş, 2007-ci ildə isə AMEA-nın müxbir üzvü seçilmişdir.

O, Rusiyada, Belçikada, Yunanıstanda, Macarıstanda, Cənubi Koreyada, İtaliyada, Türkiyədə, Ermənistanda, Ukraynada və başqa ölkələrdə keçirilən elmi konfranslarda, müşavirələrdə iştirak etmişdir.

Ruhunuz şad olsun, İlyas müəllim!

*Kamil Dərələyəzli,*
*"Qızıl qələm " mükafatı laureatı*
*"Dərələyəz" qəzeti, 23 yanvar 2018-ci il*

## Elmin zirvəsində: İlyas Babayev

Ömrünün çox hissəsini elmə qurban verən AMEA-nın müxbir üzvü İlyas Babayev haqqında zamanla yoldaş olub uzun-uzadı söhbət etmək olar. Sözün həqiqi mənasında arxeologiya elminin sirlərinə bələd olan, bütün fəaliyyətini Azərbaycan arxeologiyasının inkişafına və qaranlıq məsələlərinə aydınlıq gətirilməsinə həsr edən fenomenal bir şəxsiyyət. Eyni zamanda dərin biliyə və elmə malik bir alim kimi elm tarixinə möhür basan ziyalı insan.

Alimin elmi tədqiqatlarının əsasını antik dövr problemləri, xüsusilə Qafqaz Albaniyasının maddi mədəniyyətinin öyrənilməsi, şəhər mədəniyyətinin yaranması, formalaşması və dövlətin meydana gəlməsi məsələləri təşkil edir. O cümlədən İlyas Babayev son illər Azərbaycanda Əhəməni dövrü abidələrinin tədqiqi və elmi ictimaiyyətə çatdırılması, eyni zamanda bu mövzudan irəli gələn incə məqamlara, Azərbaycanın e.ə. I minilliyin ortalarında (e.ə. 550-330-cu illər) Əhəmənilər imperiyasının satraplığına daxil olması kimi tarixi faktlara arxeoloji dəlillərlə aydınlıq gətirmişdir. Yüzlərlə elmi əsərin müəllifi olan İlyas Babayev postsovet məkanında, həmçinin Avropa və Asiyanın bir çox ölkələrinin yüksək elm dairələrində ciddi alim

kimi tanınırdı.

İlyas Babayevin elmi yaradıcılığının böyük bir hissəsi çöl tədqiqatları ilə bağlı olmuşdur. İlyas müəllim həmişə deyərdi ki, arxeoloq gərək qazıntı görsün. Arxeoloq o zaman yaxşı tədqiqatçı olur ki, o bu elmin incəliklərini qazıntıda öyrənir, çöl şəraitində düşünməyi və görməyi bacarır. Abidə ilə bilavasitə təmasda olur. Həmçinin qazıntıdan əldə etdiklərini kabinet şəraitində, kitabxanada mütaliə etməklə təhlil etməyin nə dərəcədə vacib olduğunu qeyd edirdi.

İlyas Babayev ömrünün sonunadək iki beynəlxalq arxeoloji ekspedisiyanın rəhbəri olmuşdur. O, hər zaman göründüyü kimi sadə və təmkinli idi. İstər şöbə müdiri kimi Arxeologiya İnstitutunda, istərsə də ekspedisiya rəhbəri kimi arxeoloji qazıntıda. Hətta adi həyatda, məclis və tədbirlərdə də biz AMEA-nın müxbir üzvü, tarix üzrə elmlər doktoru, professor İlyas Babayevi İlyas müəllim kimi tanıyıb və görmüşük. Rəhbəri olduğu beynəlxalq ekspedisiyaların digər ölkələrdən olan üzvləri də bu böyük insanı səmimiyyətinə, mehriban xasiyyətinə, rəvan və gülərüz münasibətinə görə sevirdilər. Bu səbəbdən tutduğu mövqedən asılı olmayaraq onu ilk dəfə görən insanlar belə bu şəxsiyyətə hörmət və sayğı ilə yanaşırdılar. Onun elmi təcrübəsindən təkcə yetirmələri yox, xarici arxeoloq həmkarları da faydalanırdılar. O

hər kəslə ünsiyyət qurmağı bacarırdı. Sanki bütün insanların dilini bilir, onların xarakterini öncədən müəyyənləşdirirdi. Məsuliyyət, nizam-intizam və mehribanlıq İlyas müəllimin öz yetirmələrinə, ekspedisiya üzvlərinə, həmkarlarına, eyni zamanda sıravi işçilərə aşıladığı ən vacib xüsusiyyətlər idi. İlk baxışda hər kəsə sadə və anlaşıqlı olan bu ifadələrin arxasında hansı fəlsəfənin durduğunu biz İlyas müəllimdən öyrənirdik.

Çöl tədqiqatları nə qədər maraqlı olsa da, bir o qədər də çətin olur. Xüsusilə də ekspedisiyaya ilk dəfə qoşulan əməkdaşlar üçün. Lakin tədricən insan ekspedisiyaya uyğunlaşır. Komanda şəraitində işləməyə vərdiş edir. Burada ekspedisiya üzvlərinin də rolu böyükdür. Lakin işin və məsuliyyətin böyük hissəsi ekspedisiya rəisinin üzərinə düşür. İlyas müəllim nizam-intizamı və dəqiqliyi çox sevirdi. Zamanın və hər hansı bir işə ayırdığı vaxtın qədrini bilir, yüksək dəyərləndirirdi. Bəzən üzünü gənc yetirmələrinə tutub deyirdi ki, çayxanalarda və internet klublarda axşamadək vaxt itirən insanları, gəncləri başa düşə bilmir. İnsan gərək ona verilən ömür payından səmərəli istifadə etsin. İlyas müəllim sanki belə işlərlə məşğul olub vaxtımızı itirə biləcəyimizdən ehtiyat edirdi. Bizi vaxtımızın çox hissəsini elmə, dissertasiyamızın ərsəyə gəlməsinə, tədqiqatlara ayırmağa sövq edirdi. İşə ciddi və məsuliyyətli yanaşması ilə həmişə ekspe-

disiya üzvlərinə nümunə olmağa çalışırdı. Həmçinin, bunu digər üzvlərdən, xüsusilə yetirmələrindən tələb edirdi. Səmimi və təmkinli olmasına baxmayaraq, işdə bir o qədər tələbkar idi. Yaşının çox olmasına baxmayaraq, bütün günü qazıntının yanından çəkilməzdi, baxmayaraq ki, özündən başqa burada digər elmi işçilər də işləyirdi. Bütün diqqətini qazıntıya yönəldir, yeri gəldikcə göstərişlər verirdi. Təbəqə izlənilərkən tapıntıları şərh edir, gənc kadrlara izah edirdi. Heç vaxt tələsməzdi və bunun işin zərərinə olduğunu vurğulayırdı.

İlyas müəllimi bir alim kimi tanısam da, şəxsi tanışlığımız 2008-ci ildə olmuşdur. O zaman arxeoloq ixtisası üzrə aspiranturaya daxil olmaq üçün Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya İnstitutuna müraciət etmişdim. Lakin müəyyən səbəblərə görə sənədlərimi burada qəbul etmədilər. Tale elə gətirdi ki, mən İnstitutda İlyas müəllimlə tanış oldum. Biz İlyas müəllimin rəhbəri olduğu şöbədə əyləşib xeyli söhbət etdik. O, mənə bildirdi ki, narahat olmayım. Sənədlərimlə tanış oldu. Məndə arxeologiya elminə olan marağı görüb çox sevindi. Hansı dövrü tədqiq etmək istədiyimi soruşdu. Antik və erkən orta əsrlər dövrü ilə məşqul olmaq istədiyimi bildirdim. Xahiş etdim ki, aspiranturaya daxil olaramsa, elmi rəhbərim olmağa razılıq versin. İlyas müəllim tərəddüd etmədən razılıq verdi və dedi: “Elmə savadlı kadr gələndə

sevinirəm. Amma baxın haa, gərək işləyəsiniz. Arxeoloq olmaq asan iş deyil. Çöldə işləməyin çətinlikləri var. İsti, soyuq, yağış və s. bütün bunlara dözmək lazımdır. Birdə ki əgər elmə varlanmaq məqsədilə gəlmisinizsə, səhv edərsiniz. Elmdə pul yoxdur. Az pulla kifayətlənib, çox zəhmət çəkmək lazımdır. Gərək çoxlu mütaliə edəsiniz, çalışasınız öz üzərinizdə. Mən sizə bacardığım köməkliyi edəcəm, öyrədəcəm, istiqamət verəcəm. Təki siz bunu məndən istəyəsiniz. Tənbəl olub çalışmasanız mən sizə kömək edə bilməyəcəm. Siz gərək irəli gedəsiniz ki, mən sizə təkan verəm. Əks halda müsbət nəticə ola bilməz." Mən İlyas müəllimi diqqətlə dinləyib onunla birgə işləmək istədiyimi bildirdim. Mənə məsləhət gördü ki, yubanmadan sənədlərimi Milli Azərbaycan Tarixi Muzeyinə təqdim edim. Muzeyin Arxeologiya elmi fond şöbəsində də aspiranturaya yer verilmişdi. Mən İlyas müəllimin tövsiyəsi ilə sənədlərimi Milli Azərbaycan Tarixi Muzeyinə təqdim etdim. Özü isə bu barədə muzeyin direktoru akademik Nailə xanım Vəlixanlıya bildirdi. Sənədlərimi qəbul etdilər və mən imtahanlardan uğurla keçərək 2008-ci ilin sonunda aspiranturaya daxil oldum.

Beləliklə, böyük alimlə birgə fəaliyyət göstərmək və elmin sirlərinə yiyələnmək mənim qismətim oldu. 2009-cu ildən 2017-ci ilədək fasiləsiz olaraq İlyas müəllimin rəhbərliyi ilə Qəbələ və Şəmkir

beynəlxalq arxeoloji ekspedisiyalarının daimi üzvü kimi arxeoloji ekspedisiyalarda iştirak etdim. Mən İlyas müəllimdən çox şey öyrəndim. İlyas müəllim bu sahədə arxeoloqa lazım ola bilən ən əsas nüansları bizə, yetirmələrinə öyrədə bildi. Lakin müəllimimizdən eşitmək və bilmək istədiyimiz çox məsələlər var idi. Amma zaman sürətlə keçdi...

Arxeoloji ekspedisiyada ilk qazıntıya çıxdığımız günü yaxşı xatırlayıram. 2009-cu ilin iyun ayı idi. İlyas müəllim mənə dedi: "İlk gündən ya sən bu elmə vurulacaqsan, ya da birdəfəlik çıxıb gedəcəksən." Mübarizliyim və İlyas müəllimin sayəsində mən bu elmin vurğunu oldum.

İlyas Babayev cəmiyyət, ümumbəşəri elm və dövlət qarşısında bir alim və vətəndaş kimi üzərinə düşən öhdəliyi layiqincə yerinə yetirmiş, elmi fəaliyyəti ilə daim örnək olmuşdur.

*Laçın Mustafayev,*
*Milli Azərbaycan Tarix Muzeyinin elmi işçisi*

## İlyas Babayev, İlyas müəllim!

Bu ad mənim üçün o qədər doğmadır ki,...

Böyük İnsan, Tanınmış Arxeoloq, Alim...

İlyas müəllimi yaxından tanıyanlar, ağla qaranı yaxşı seçənlər, bu Böyük İnsanın kim olmasını yaxşı bilərlər...

Biz ayrı-ayrı şöbələrdə işləsək də, hər işə gələndə İlyas müəllimi mütləq görməli idim. Elə bil ki, işləmək üçün ondan enerji alırdım. Çox qəribədir, son vaxtlar mən ona böyük qardaş kimi müraciət edirdim. Bu mənim içimdən gəlirdi. O da mənə balaca qardaş kimi münasibət bəsləyirdi. Son zamanlar tez-tez əsəbləşərdi. Mən yanına gedən kimi sakitləşərdi. Əsəbləşməyinin səbəbini heç kimə deməzdi. Ancaq, mənə müəyyən qədərini söyləyərdi. Məni ''qubalı'' deyə çağırardı. "Qubaya gedəndə səndən mütləq icazə almalıyam", deyərdi. Bu zarafatlar sözlər Quba soyqırımı kütləvi məzarlığı ilə bağlı, uzun müddət Qubada işləməyimlə əlaqədar idi.

Deyirlər ki, insanları səfərlərə çıxanda, qərib yerlərdə olanda yaxşı tanıyırsan. Mən də İlyas müəllimi ilk dəfə qərib ölkədə tanımışam. Mən, Moskvada, SSRİ Elmlər Akademiyası Arxeologiya İnstitutunda elmi stajirovkada idim. İndiyə kimi yadımdadır, 1985-ci ilin aprel ayının 25-i idi.  Elmi rəhbərim olan Rauf Maqomedoviç Munçayev məni yanına çağırdı.

Arxeologiya sahəsində öz dəsti-xətti ilə dünyada tanınmış arxeoloq Rauf Maqomedoviç, o vaxtlar institutun elmi işlər üzrə direktor müavini idi. Mən otağa girəndə Rauf müəllimin yanında orta yaşlı, üzündən nur yağan bir adamın oturduğunu gördüm. Rauf Maqomedoviç bizi tanış etdi. Tanış olduğum həmin şəxs İlyas Babayev idi. Rauf müəllim, İlyas müəllimin Moskvaya dissertasiya müdafiəsi ilə bağlı, 1-ci opponent kimi gəldiyini dedi. İlyas müəllimin opponenti olduğu şəxs isə, mənim Dağıstandan olan dostum Bahadur Maqomedov idi. Hər ikimiz eyni İnstitutda, ancaq ayrı-ayrı şöbələrdə elmi stajirovkada idik. Müdafiə ərəfəsində və müdafiədən sonra SSRİ Arxeologiya İnstitutunun bir çox əməkdaşının İlyas müəllimə necə böyük səmimiyyət və hörmətlə yanaşmalarının şahidi oldum. Rauf Maqomedoviçin İlyas müəllim haqqında mənə dediyi böyük sözləri də eşidəndən sonra, belə  böyük və hörmətli bir insanla, belə bir Azərbaycan alimi ilə tanış olduğuma görə sevinirdim. İlyas müəllimin necə deyərlər,əli də yüngül oldu, ayağı da, belə ki, cəmi iki ildən sonra, Bahadur həmin İnstitutun aspirantura şöbəsinin rəhbəri oldu. Müdafiədən sonra, İlyas müəllimin qaldığı, vaxtı ilə SSRİ Elmlər Akademiyasının məşhur mehmanxanası olan otelə getdik. Moskvanın mərkəzində, Qorki küçəsində yerləşən bu mehmanxananın məşhurluğundan əsər-əlamət belə qalmamışdı. Belə ki, "lyuks" sayılan nömrədə  qalan İlyas müəllimin

otağındakı, kranı qırılmış əl-üz yuyanı, bir ayağı qırılmış stol və otağı qızdırmaq üçün köhnə bir qızdırıcını (plitka) görəndən sonra təəccübləndim. Belə bir şəraiti İlyas müəllimə yaraşdırmadım. İlyas müəllimə göstərilən belə bir diqqətsizliyi Bahadura irad tutdum. Sən demə, İlyas müəllim üçün hər cür şərait yaradılıbmış. Amma, İlyas müəllim dissertasiya müdafiə edən Bahadura əziyyət verməmək üçün, xəbərsiz gəlmiş, SSRİ Elmlər Akademiyasının Lenin prospektindəki yeni mehmanxanasında yer tapmadığı üçün məcbur qalıb, burada yerləşmişdi. Halbuki, İlyas müəllim Bahadurla əlaqə saxlamaqla, özünə layiq yerdə qala bilərdi. Yerini dəyişmək üçün mənim də dediyim təklifə də, razılıq vermədi. "Bir günə görə niyə əziyyət verim. Onsuz da sabah gedirəm", dedi. İlyas müəllim, bu cür ürəyə malik bir insan idi. O, heç bir aspirantın, dissertantın, doktorantın və rəhbərlik etdiyi şöbənin əməkdaşlarının artıq xərc çəkmələrinə imkan verməzdi.

İlyas müəllim, Böyük Alim, Böyük İnsan, Böyük Şəxsiyyət idi. Çox təəssüflə qeyd etmək istəyirəm ki, niyə çox hallarda bu cür Şəxsiyyətlərə Ölümündən sonra qiymət verirlər...Bəzi insanlar, xüsusilə də bəzi cavanlar, zaman-zaman İlyas müəllimin Kim olmasını biləcəklər...

*Qəhrəman Ağayev,*
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru*

# O, mənim üçün ideal bir insan idi

Adicə bir kənd uşağı idim. Ağlım kəsəndən sonra bilirdim ki,mənim bircə İlyas dayım var və o alimdir. Hər şeydən əvvəl o,olduqca gözəl xasiyyətli kristal bir insan idi. O, həmişə kəndə gələndə başına yığışardıq,onunla şirin-şirin söhbətlər edərdik. O,bizə məşqul olduğu elm sahəsindən - tarix elmindən, Çuxur Qəbələ kəndində apardığı qazıntı işlərindən, qədim Albaniya dövlətindən, keçmiş SSRİ-nin Leninqrad (indiki Sankt-Peterburq) şəhərində oxuduğu aspirantura illərindən danışardı.

Mənim elmə həvəsim, istəyim və bu yolu seçməyimdə İlyas dayımın böyük təsiri oldu və zaman elə gətirdi ki,mən də 80-cı illərdə, ali məktəbi bitirdikdən sonra Leninqrad şəhərində, o zamankı Ümumittifaq Elmi-Tədqiqat Bitki Mühafizəsi İnstitunun məqsədli aspiranturasına daxil oldum.

Hər dəfə Leninqradda, Puşkin şəhərində gəzintiyə çıxanda fəxrlə düşünürdüm ki, İlyas dayım da vaxtilə bu küçələrlə addımlayıb, bu şəhərdə aspiranturanı bitirib, elmi dərəcə alıb.

Mən tamamilə fərqli bir elm sahəsini - kənd təsərrüfatını seçsəm də, elmin daşlı-kəsəkli yollarında addımladıqca bu qənaətə gəldim ki, İlyas dayım öz sahəsini olduqca gözəl bilən fanatik bir alimdir.

İlyas dayım uzun müddət Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarix fakültəsində dərs deyib. O zaman, yəni 1977-78-ci illərdə Bakı şəhərinin Yasamal məhəlləsində kirayədə qaldığım evin qonşuluğunda həmin institutun Tarix fakültəsindən 3 nəfər sonuncu kurs tələbələri yaşayırdılar. O zaman sonuncu kurs tələbələri xatirə dəftərləri tərtib edərdilər. Onlar mənim İlyas müəllimin bacısı oğlu olduğumu bilmirdilər. Təsadüfən onlar mənə həmin dəftərləri göstərdilər. Mən hər üç tələbənin dəftərində ən çox sevdiyim ideal müəllim sözlərinin qarşısında İlyas Babayevin adının yazıldığını gördüm.

Sonralar mən işimlə əlaqədar tez-tez Quba-Xaçmaz bölgəsinin müxtəlif kəndlərində olurdum və o illərdə Tarix fakültəsini bitirmiş məzunlarla rastlaşırdım. Onların hər biri İlyas müəllim haqqında böyük fəxarətlə,ehtiramla danışanda qəlbimdən qürur hissi keçirdi.

Zamanın tələbi, ürəyinin istəyi ilə qarşıya qoyulmuş məqsədlərə görə bir kənddə, yaxud şəhərdə boya-başa çatmış oğlanlar, qızlar öz yurdunu, yuvasını qoyub başqa yerlərə köçürlər, başqa yerlərdə yaşayırlar. Onların bir qismi yurdunun, elinin, obasının ad-sanını qaldırır, məşhurlaşdırır, bir qismi isə yurdun adına xələl gətirir.

Bizim İlyas dayımız öz gözəl əməlləriylə, böyük insanlığı, fanatik alim olmağı, elmin zirvələrinə

ucalmağı ilə təkcə boya-başa çatdığı Quba rayonundakı Xanəgah kəndinin yox, bütünlükdə şimal bölgəsinin və Azərbaycan adlı məmləkətimizin adını ucaldıb.

Bizim onunla fəxr etməyə haqqımız vardır.

Allah İlyas dayımıza rəhmət eləsin, qəbri nurla dolsun.

*Mədət Qurbanov,*
*Quba Regional Aqrar Elm və İnnovasiya*
*Mərkəzinin direktor müavini,*
*biologiya elmləri üzrə fəlsəfə doktoru*

## Nurlu insan, qayğıkeş ata əziz və doğma dayıma

Çox təəssüf ki, bu gün İlyas müəllim bizim aramızda yoxdur, neçə-neçə başa çatmayan elmi tədqiqatları, ekspedisiyaları yarımçıq qaldı. Amma elinin, obasının, onu tanıyanların, tələbələrinin, dostlarının yaddaşında , qəlbində xeyirxah insan, əsl ziyalı, əsl elm fədaisi kimi qaldı.

İlyas müəllimlə bağlı yaddaşımda çoxlu xatirələr var. O şəxsən mənim təhsil almağımda, həyatımda addımlar atmağımda bir örnək, bir mayak olmuşdur. Hələ uşaqlıq illərindən yadımdadır ki, onun doğma kəndimiz Xanəgaha hər gəlişini səbirsizliklə gözləyirdik. Anası Əsmər nənəmiz böyük bir sevinclə, həvəslə tədarük görərdi, onu qarşılayardıq və saatlarla maraqlı söhbətlərinə heyran-heyran qulaq asmaqdan doymazdıq. Tələbəlik illərində də hər hansı bir çətin anda onun yanına gedərdim. Onunla söhbətlərdən sonra özümdə inam, hər bir çətinliyin öhdəsindən gələ bilmək hissi yaranırdı. Yadımdadır ki, mən 1983-cü ildə Aərbaycan Dövlət Tibb İnstitutuna qəbul olunanda birinci ona gedib baş çəkdim, inanın ki, uşaq kimi sevinirdi. Onu tanıyanlar da, tanımayanlar da xeyirxahlığından, hamıya təmənnasız kömək etməyindən danışardı. Yadımdadır Qubada bir tədbir keçirilirdi, İlyas

müəllim də dəvət olunmuşdu, rayon rəhbərləri ilə birgə ön  sırada dayanmışdı. Onunla qohum olduğumu blməyən bir neçə rayon ziyalısı bir-birinə onun tələbə vaxtı onlara necə təmənnasız kömək etdiyindən, qayğıkeşliyindən, əsl elm fədaisi, əsl ziyalı olmağından öz aralarında danışırdılar. Əlbəttə ki, mən də bununla fəxr edib, qürur duydum.

Mən bu gün çox sevinirəm ki, övladları Faiq Babayev, Fuad Babayev onun yolunun layiqli davamçılarıdırlar.

Mən İlyas müəllimin ruhu qarşısında baş əyirəm, Allahdan ona qəni-qəni rəhmət diləyirəm. Əminəm ki, İlyas müəllim cismən yanımızda olmasa da, ruhən qəlbimizdə yaşayacaq, xatirəsi onu tanıyanların, elinin, obasının, tələbələrinin, elmi ictimaiyyətin qəlbində əbədi qalacaq.

*Gəray Qurbanov,*
*Quba rayon Mərkəzi Xəstəxanasının*
*cərrahiyyə şöbəsinin müdiri,*
*tibb elmləri üzrə fəlsəfə doktoru*

## İlyas müəllimin əziz xatirəsinə

İlyas müəllimin kitaba, elmə olan marağı, məhəbbəti doğulub boya-başa çatdığı Xanəgah kənd sakinlərinin heç gözündən yayınmamışdır. Belə ki, mənə rəhmətlik atam danışardı: "Mən cüt öküzlərlə meşədən odun gətirərkən az qala İlyas müəllimə xəsarət yetirmiş olacaqdım, çünki İlyas müəllim kitabı maraqla və diqqətlə oxuduğundan kənardan gələn təhlükəni duymamışdı". Atamın mənə həmişə tövsiyəsi o idi ki, oxuyarkən İlyas müəllim kimi oxuyum.

İlyas müəllim həqiqətən də düzgün, dəqiq, xeyirxah və diqqətli bir insan idi. Mən 1981-85-ci illərdə Lenin adına Azərbaycan Pedoqoji İnstitutunun (ADPU) Riyaziyyat fakültəsində oxuyarkən o, Tarix fakultəsində dərs deyirdi. Tarix fakültəsinin tələbələri İlyas müəllimin humanist, ədalətli bir müəllim olduğundan danışırdılar. Bu da məni həmin kənd sakini kimi instutda dərslərimin daha da yaxşı oxuyub, çalışmağıma həvəs göstərirdi.

Hal hazırda mən İlyas müəlimin oxuduğu Xanəgah kənd ümumi məktəbində müəllim işləyirəm. İlyas müəllimlə həmişə fəxr edirəm ki, o bizim kəndimizdə yaşayıb, oxuyub və elmin ən yüksək zirvəsinə ucalmışdır.

06.10.2018-ci il tarixində, Xanəgah kənd ümumi

məktəbində, İlyas müəllimin xatirəsinə həsr edilmiş tədbirdə www. ilyas-babayev.az saytı tərəfindən, məktəbimizin ən yaxşı oxuyan şagirdinə ''İlyas Babayev təqaüdü'' təqdim edildi.

Biz müəllimlər də şagirdlərimizə İlyas müəllimi nümunə göstəririk. İlyas müəllim kimi oxumağı tövsiyə edirik.

Allah ona rəhmət etsin, məzarı nurla dolsun!

*Saleh Absəlimov,*
*Xanəgah kənd ümumi məktəbinin*
*riyaziyyat müəllimi*

## "İlyas Babayev təqaüdü" təqdim edildi

Quba rayonu Xanəgah kənd ümumi məktəbində arxeoloq İlyas Babayevin (1935-2017) xatirəsinə həsr edilmiş tədbir

6 oktyabr 2018-ci il

*Mərhumun qəbrinin ziyarət edilməsi mərasimi*

**İsrafil Qurbanov (əməkdar dövlət qulluqçusu):** Vaxtilə bura kənd yeri olub. Bu gün hər bir qəbir qazılanda, oradan mütləq bir qab, bir kuzə çıxır. Bir dəfə zəlzələ vaxtı bu kənd yerlə-yeksan olub, batıb. Bax, gördüyünüz o təpə var orada böyük bir məscid olub (*əliylə göstərir*). O məscid elə yerdə olub ki, həm aşağı tərəf, həm də yuxarıdakı dağlar çox gözəl görünür. Çox mənzərəli, gözəl yerdir, mənə elə gəlir ki, İlyas müəllim cənnətə qovuşub. Bu, İlyas müəllimin anasının qəbridir (*yaxınlıqdakı məzarı göstərir*). Vaxtilə İlyas müəllim kənddən tez çıxıb, bu yazıq arvad həmişə gözləyib ki, İlyas bir də nə vaxt gələcək. Bu da taleyin bir qismətidir. İlyas müəllim bu kəndə öz adı, əməli, zəhməti ilə elə bir şərəf gətirib ki, həmişə bu el-obanın fəxridir. Eldar Baxışın bir şeri var – "hara gedirsiniz kənd uşaqları", adlanır. O uşaqların hamısı səadət, bilik, elm, ruzi arxasınca gedirdilər. Elələri olurdu ki, İlyas müəllim kimi

o zirvəyə çatırdı, eləsi də var idi ki, gücü çatana nail olurdu. Amma hara getsələr, hamısının ruhu yenə buradadır. Bizim bu kəndin bir xüsusiyyəti var, uşaqlar harda yaşasalar da, gəlib burada ailə qururlar, rəhmətə gedəndə də vəsiyyət edirlər ki, burada dəfn olunsunlar. Yəni bu doğulduqları torpağa sevgidən, məhəbbətdən, istəkdən irəli gəlir. Mənə elə gəlir ki, İlyas müəllimin ruhu burada rahat uyuyacaq. Siz, onun iş yoldaşları da çox sağ olun ki, gəlib onu ziyarət edirsiniz. Hər birinizə təşəkkürümüzü bildiririk.

**Faiq Babayev (İlyas Babayevin oğlu):** Biz bura gələnlərə minnətdarıq. Şəmkir rayonunun Qaracəmirli kəndində son illərdə Əhəməni dövrünə aid təxminən 2500 yaşı olan saray qalıqları tapılıb və orada sütun altlıqları var. Fuad müəllimin ideyasına uyğun olaraq, həmin sütun altlığının formasından məzarüstü abidədə istifadə olunub. Bu adamın sənəti, peşəsi haqqında bir nümunə olsun deyə. Bu özü bəs edir, elə o üslubdadır, ona oxşayır. Fərqi odur ki, o yumrudur, bu dördkünc.Yəni arxeoloq olmasına işarədir. Onu yonan, sənətkarlığını edən Tarverdi müəllim də sağ olsun.

*''İlyas Babayev təqaüdü''nün təqdim edilmə mərasimi*

**Xanəli Absəlimov (Məktəbin direktor müavini):** Hörmətli qonaqlar, bu gün kəndimizin fəxri,

rəhmətlik İlyas Babayevin şərəfinə buraya yığışmışıq. Yeni təsis edilmiş İlyas Babayev təqaüdü məktəbimizin ən yaxşı oxuyan əlaçı şagirdinə təqdim olunacaq. Bu məqsədlə yığıncağımızı açıq elan edirəm. İlk sözü İsrafil müəllimə verirəm.

**İsrafil Qurbanov:** İcazə verin, Xanəgah məktəbinin məzunu kimi mən başlayım. Mən əlbəttə, məktəbin bu binasında oxumamışam, o vaxt məktəb kəndin ortasında, indi kitabxana kimi istifadə olunan binada yerləşirdi. Aramızda bir yol olub, düzdür, hər gün dərsə gecikirdim, birinci zəng çalınandan sonra çatırdım. Mən çox sevinirəm ki, hazırki məktəbin şəraiti əvvəlkindən çox yaxşıdır. Köhnə bina adicə ev olmuşdu, içinə üç-beş nəfər uşaq güclə yerləşirdi. İndi maşallah, gözəl məktəbiniz var. Yapon səfirliyinin yardımı ilə bu məktəb tikilib. Get-gedə burada hər bir şərait də yaxşılaşır, ona görə də ölkəmizin rəhbərliyinə və bu işləri görənlərə ancaq "sağ ol" demək olar. Bu gün bu kəndin, doğrudan da hamımızın, bütün el-obanın fəxri olan İlyas müəllimin ad günüdür və onun qəbirüstü abidəsinin açılışını da bu günə salmışıq və orada iştirak etmişik. Akademiyada İlyas müəllimlə çiyin-çiyinə çalışan alimlər burada əyləşiblər. Faiq müəllim, xahiş edirəm, bu müəllimlərin hər biri haqqında qısa bir məlumat ver.

**Faiq Babayev:** Zaur Həsənov Akademiyanın Arxeologiya və Etnoqrafiya İnstitutunda antik dövr

arxeologiyası şöbəsinin müdiridir. Yəni İlyas müəllimin uzun illər rəhbərlik etdiyi şöbəyə indi Zaur müəllim başçılıq edir. Belə deyək, İlyas müəllimin elmi varisidir. Təvəkkül Əliyev, Bəhlul İbrahimov bizim ən hörmətli, məşhur alimlərimizdəndirlər. Xanımlar da bu işlə ciddi məşğul olan alimlərdir.

**İsrafil Qurbanov:** Bu alimlər bura elə-belə gəlməyiblər. İlyas müəllim də nə vaxtsa sizin kimi bu balaca kənd məktəbini qurtarıb. Ondan sonra üzünü şəhərə tutub, elm dalınca gedib, oxuyub, o boyda elmi dərəcəyə, elmi adlara nail olub. Yəni uzun illər Azərbaycan arxeologiyasında bir iz qoyub və ona görə də Akademiyanın müxbir üzvü seçilib. Bax, onun şərəfinə bu dostları, yoldaşları buraya gəliblər. Ona görə də ilk olaraq Zaur müəllim sözə başlasın, İlyas müəllim haqqında bir neçə kəlmə danışsın, biləsiniz ki, İlyas müəllim kim olub.

**Zaur Həsənov (AMEA Arxeologiya və Etnoqrafiya İnstutu "Antik dövr arxeologiyası" şöbəsinin müdiri):** İlyas müəllim mənim müəllimim, dissertasiyamın elmi rəhbəri olub. Demək olar ki, instutumuzun işçilərinin 40%-nin ya opponenti, ya elmi rəhbəri olub, ya rəyçisi olub və çalışıb ki, hamıya köməklik etsin. Əfsuslar olsun ki, mən İlyas müəllimin gənc yaşlarını görməmişəm. Burada oturan həmkarlarımız onun daha gənc yaşlarını görüblər. Mən isə onu görəndə, artıq formalaşmış ağsaqqal bir alim idi. Yenə deyirəm, hamıya işində kömək-

lik edirdi, öz işinin yüksək mütəxəssisi idi. Siz də böyüyəndə çalışın, nə edirsinizsə edin, öz işinizdə bir nömrə olun. İlyas müəllim öz işində bir nömrəli mütəxəssis, demək olar ki, antik dörv arxeologiyasında Azərbaycanın bir nömrəli alimi idi. Biz hələ çalışacağıq ki, gələcəkdə hamımız onun səviyyəsinə yüksələk. İlyas müəllim öz dürüstlüyü, düzgünlüyü ilə məşhur idi. Pul məsələlərində çox düzgün bir insan idi, indiyə kimi də hamı onu danışır ki, ekspedisiyadan qayıdanda qalan pulları qəpiyinə qədər mühasibata qaytarırdı. Siz də böyüyəndə çalışın ki, elə olasınız. İlyas müəllim sizin gələcəyiniz üçün bir nümunədir, siz bizim gələcəyimizsiniz. İlyas müəllimin axırıncı işi Azərbaycanın arxeologiyasının antik dövrünə həsr olunmuş böyük bir kitab idi. Həmin kitabda antik dövr arxeologiyasının bütün problemləri cəmləşməli idi. O kitabın böyük bir hissəsini yazdı, əfsuslar olsun ki, tam bitirə bilmədi. Biz şöbə olaraq bu kitabı bitirəcəyik və gələcəkdə bu kitab İlyas müəllimin müəllifliyi, redaktorluğu altında çap olunacaq. İlyas müəllimin müəllifliyi ilə çap edəcəyimiz kitabı buraya da gətirəcək və təqdim edəcəyik. Bizim şöbədə işləyən adamların demək olar ki, hamısı onun tələbələridir və biz çalışırıq ki, onun başladığı işi davam etdirək. Sizin üçün böyük bir şərəfdir ki, İlyas müəllimlə eyni kənddənsiniz və çalışın, gələcəkdə ona bənzəyəsiniz. Təşəkkür edirəm.

**Bəhlul İbrahimli (AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu " Arxeoloji işin tarixi və nəzəriyyəsi" şöbəsinin müdiri) :** İlyas müəllim uzun müddət bizim şöbənin müdiri olub. Uşaqlara üzümü tutub deyirəm ki, siz indi İlyas müəllim dedikdə təsəvvür edə bilməzsiniz ki, o, kimdir. İndi eşidirsiniz, yadınızda saxlayın, inşallah ali məktəbdə, daha böyük yerlərdə oxuyanda, vəzifələrdə işləyəndə İlyas müəllimin kim olduğunu dərk edəcəksiniz. İlyas müəllim bizim şöbənin yalnız müdiri deyildi, həm də o şöbənin mənəvi, maddi, elmi problemlərini həll edən bir adam idi. Qısa bir epizod deyirəm, təsəvvür edin ki, bir şöbədə 10-12 nəfər işləyirdik, şöbənin tutaq ki, çay puluna qədər özü verərdi, heç kimə imkan verməzdi. Rusların bir atalar sözü var, biz əlimizdə nə var, onu qiymətləndirmirik, yalnız itirəndə ağlayırıq. Biz də bu adamın qiymətini itirəndən sonra bilirik. Bir sual verim, biz kimi itirdik? Siz yəqin ki, "İlyas Babayev" deyəcəksiniz. Amma biz onu bilirik ki, canlı bir ensiklopediyamızı itirdik. Biz istənilən vaxt kitabxanaya, ora-bura getmirdik, nə sual verirdin, son yüz ildə çıxan kitabların hansında olduğunu İlyas müəllim deyirdi. Hətta tapıntılara qədər o məlumatları bizə verirdi. Yəni heç bir əziyyət çəkmədən bütün bu elmi informasiyanı rəhmətlik İlyas müəllimdən alırdıq. Biz İlyas müəllimi itirməklə həm də müəllimimizi itirdik. Zaur müəllim də yaxşı qeyd etdi, istənilən bir məqaləni,

kitabı verən kimi, yubatmadan 2-3 günə ona rəy də yazırdı, istiqamət də verirdi ki, hansısa məqamı belə yazmaq lazımdır. Bax, bu cəhətdən də biz çox böyük itkiyə məruz qaldıq. Üçüncüsü isə biz elə bil öz fondumuzu itirdik. Çünki bütün Yaxın Şərqdə olan antik dövr, ondan əvvəlki və ondan sonrakı dövrlərin tapıntılarının hamısının harada yerləşdiyini bilirdi. Biz belə bir adamı itirdik, siz İlyas müəllimin kim olduğunu indi dərk etməsəniz də, kəndinizin Zaur müəllimin dediyi kimi, bir nömrəli alim yetişdirdiyini gələcəkdə başa düşərsiniz. Allah rəhmət etsin. Biz İlyas müəllimi heç vaxt unutmuruq, yüz dəfə də bu kəndə gəlsək, İlyas müəllimə olan mənəvi borcumuzu ödəyə bilmərik. Bir misal da deyim, bizdə bir nəfər müdafiə etmək istəyirdi, eyni şöbədən ona rəy verməyə, opponent olmağa adam yox idi. İlyas müəllim şöbə müdirliyindən çıxıb, onun opponenti oldu. İki ildən sonra isə gəlib, yenidən şöbə müdiri oldu. Yəni heç kimin etməyəcəyi işi İlyas müəllim etmişdi. Onu yadınızda saxlayın və çalışın ki, gələcəkdə İlyas müəllimə, yerlinizə layiq bir tələbə, vəzifəli məmur olasınız. Kim olursunuzsa olun, layiqli adam olun. Xanəgah kəndinin adı da qədimdir, buradan çox güman ki, elə möminlər, savadlı adamlar çıxıb. Burada pir də olmalıdır, hər kəndə Xanəgah adı qoymurlar. Azərbaycanda cəmi on iki Xanəgah kəndi var. Sağ olun. Allah İlyas müəllimə rəhmət etsin!

**Təvəkkül Əliyev (AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun çöl tədqiqatları sektorunun müdiri):** Xoş gördük. Uşaqlar, bilirsiniz ki, dünən Azərbaycanda müəllimlər günü qeyd olunurdu. Biz də bu gün elə o tədbirlə əlaqədar böyük bir MÜƏLLİMİMİZİN şərəfinə buraya yığışmışıq. İlyas müəllim doğrudan da böyük insan idi. Elə bir adam yox idi ki, İlyas müəllim ona kömək etməsin. Özü də həvəslə, ürəklə kömək edirdi. "Vaxtım yoxdur" sözü İlyas müəllimdə yox idi. Qeyd olunduğu kimi, onun ensiklopedik biliyi vardı. Müstəqil olandan sonra Azərbaycanda çoxlu özəl ali məktəblər açıldı. Bu ali məktəblərin hamısı yeni məsələləri tədris etməli idilər. Kulturulogiya, Roma hüququ kimi yeni fənnlər var idi. Hamı İlyas müəllimi axtarırdı, bilirdilər ki, ən çətin məsələləri belə həll edə bilirdi. Öz işgüzarlığına, zəhmətkeşliyinə görə. Belə adamlar aramızda təəssüf ki, azdır. Məsələn, mən özüm Ağcabədi rayonunda qazıntı işləri aparıram. İlyas müəllimin bir abidə ilə bağlı sözü, rəyi mənə lazım idi. Xahiş etdim, İlyas müəllim Bakıdan, Şəmkirdən gəldi Ağcabədiyə, bizim qazıntımıza baxdı, mənə məsləhətlərini verib, getdi. Doğrudan da biz belə bir insanı həmişə yadımızda saxlamalıyıq. Siz altıncı sinif Azərbaycan tarixini açanda üstündə İlyas Babayevin adını görürsünüz. Bundan böyük fəxr, şərəf ola bilər? Siz fəxr edirsiniz ki, yerliniz, bu kənddən çıxmış bir nəfər həmin o dərsliyinizin

müəllifi olub. Ona görə ümid edirəm ki, siz də İlyas müəllimin xatirəsini hər zaman uca tutacaq, onun əməllərini yaşatmağa çalışacaq və bu kəndin adını daha da ucaldacaqsınız. Uğurlar sizə.

**Elnur Vəliyev (AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı ):** Mənim xoşbəxliyim onda gətirib ki, gənc illərimdə İlyas müəllim, İqrar Əliyev, Solmaz xanım elmi rəhbərim olublar. Bəxtim onda gətirib ki, İlyas müəllimlə birlikdə Şəmkir ekspediyasında oldum. İlyas müəllim haqqında sonsuzadək danışmaq olar. Həm elmdə, həm də həyatda simanı qoruyub saxlamaq çətindir, illər keçir, insan dəyişir. Amma İlyas müəllim tanıdığımız səmimi, gözəl, xeyirxah insan simasını elmdə də, öz mövqeyində də dəyişməz olaraq qoruyub, saxladı. Ona görə də İlyas müəllimə Allah rəhmət etsin, qəbrin nurla dolsun, deyirəm. Mən əminəm ki, bu uşaqların içindən İlyas müəllimlər çıxacaq, mütləq çıxacaq. Bu uşaqlar xoşbəxtdir ki, belə bir insanın anadan olduğu gözəl kənddə doğulub, böyüyüblər.

**İsrafil Qurbanov:** Təhsil şöbəsinin müdiri Rüfət müəllim burdadır. Buyurun, Rüfət müəllim.

**Rüfət Hacıyev (Quba Rayon Təhsil Şöbəsinin müdiri):** Hörmətli İsrafil müəllim, hörmətli qonaqlar, əziz müəllimlər, əziz şagirdlər! Belə bir şəxsiyyətin adı ilə bağlı olan tədbirdə mən də söz deyə bildiyim üçün təşəkkürümü bildirirəm. Təbii ki, bu kəndin çox böyük ziyalıları olub. Onlardan biri ya-

nımda oturan İsrafil müəllimdir. Əyani mən göstərirəm sizə, böyük şəxsiyyətlərdən biri, bu kəndin, rayonumuzun böyük oğludur. Mən bir neçə gün əvvəl İlyas Babayevin tərcümeyi - halını oxudum. Sən demə, bu kəndin ilk ziyalısı elə İlyas Babayev olubmuş. Sizlər üçün fərəhli bir haldır ki, kəndinizdən belə böyük bir alim çıxıb. Mən düşünürəm ki, siz bizim şagirdlərimiz , bizim gələcəyimiz elə bu kəndin ən böyük müəllimi olan İlyas Babayevin yolunu gedəsiniz. Bayaq müəllim qeyd etdi ki, kitab müəllifi olub. Bundan böyük, qürurlu bir iş ola bilməz və biz sizə arzulayırıq ki, bundan sonrakı həyatınızda tarix fənnini sevənlər, tarixçi olmaq istəyənlər İlyas Babayevi daha dərindən öyrənsinlər. Mən hər birinizə arzulayıram ki, kəndiniz, onun böyük oğulları haqqında çox dərindən öyrənin, məlumatlı olun və çalışın ki, hamınız elə İlyas Babayev kimi görkəmli bir tarixçi, alim olasınız. Bu gün biz də əli boş gəlməmişik, bizim Quba rayon İcra Hakimiyyəti başçısının həm kəndə, həm müəllimlərə salamı var, hər birinizin müəllimlər gününü də təbrik edir. Kiçik bir hədiyyə də olsa, məktəb üçün, sizə lazım olan ədəbiyyatı kompüterdən çıxarmaq üçün printer hədiyyə göndərib. Çox sağ olun.

**İsrafil Qurbanov:** Rüfət müəllim yaxşı qeyd etdi. Həqiqətən də vaxt var idi biz məktəbdə oxuyanda, bu kənddə cəmi bir ali təhsilli müəllim vardı. Bir də kəndin özündən orta təhsilli cəmi iki yerli müəllim

var idi. İndi maşallah görürsünüz, bunlar (*müəllimləri göstərir*) hamısı kəndin öz yetirmələridir. Yalnız bunlar deyil, İlyas müəllimin öz oğulları - Fuad müəllim fəlsəfə doktorudur, Faiq müəllimin elmi işi hazırdır, neçə-neçə dərsliyin müəlliflərindən biridir. Bundan başqa bu kəndin elə bir çox övladları var ki, başqa yerlərdə yaşayırlar. Məsələn, mənim qızım bu saat Almaniyada fəlsəfə doktorluğu işini yazıb, bu gün, sabah müdafiə edəcək. Vaxt var idi, biz buradan Rustov məktəbinə gedib oxuyurduq. Vaxt var idi Qubada gedib, oxumağı özümüzə şərəf bilirdik, Bakıya getmək isə lap böyük şərəf sayılırdı. İndi dünyanın hər yeri açıqdır, bu kəndin məzunları hamısı gedir, oxuyur. Elə bu kəndin bir alimi də mənim qardaşım Mədət Qurbanov o vaxt keçmiş Leninqrad, indiki Sankt-Peterburqda elmlər namizədi adını alıb. O biri qardaşım tibb üzrə fəlsəfə doktorudur. Nə üçün bunu deyirəm? Məşhur bir aforizm var - şagird kolba deyil, qab deyil , boşqab deyil ki, doldurasan. Şagirdin qəlbində bir məşəl yandırmaq lazımdır. Bizim qəlbizimizdə vaxtilə o məşəli İlyas müəllim kimi adamlar yandırıb, İsrafil müəllim, Sabir müəllim kimi adamlar yandırıb. O adamlar bizə o işığı, o yolu göstəriblər ki, gələcək buradadır, səadət buradadır, xoşbəxtlik buradadır, elm dalınca gedin. Quranın özündə də deyilir ki, oxu, oxu Allah xatirinə oxu. Amma nə etsəniz, hansı sahədə olursunuz, olun, istər tarixçi, istər mühəndis, savadlı

mütəxəssis olsanız, hər yerdə yeriniz, məqsədiniz, nailiyyətiniz olacaq. Mən hamımızın adından sizə ancaq bunu arzulaya bilərdim ki, bax, bu yolu tutasınız. Nə qədər çox oxusanız, yaxşı oxusanız, gələcəkdə bu el-obaya, vətənə, xalqa çox xeyir verə bilərsiniz. Vaxt olacaq ki, bu kəndi sizinlə tanıyacaqlar. Deyəcəklər ki, filan kəndin belə alimi, şəxsiyyəti var. İstərdim elə olasınız. İndi biz tək başına az-çox nə bacarmışıq, dövlət qulluğu və ya başqa bir sahədə müəyyən nailiyyətlərimiz olubsa, o vaxt aldığımız tərbiyənin, qəlbimizdə yanan o işığın nəticəsində olub. Mən sizə qəzetdə İlyas müəllim haqqında dərc olunan bir məqaləni verəcəyəm, zəhmət olmasa, uşaqlara paylayarsınız. İndi mən istərdim İlyas müəllimin böyük oğlu Faiq danışsın.

**Faiq Babayev:** Çox sağ olun. Bizim əslində müəllimlər günü ilə bağlı bir məqsədimiz, ideyamız var idi. Maddi tərəfə, pul məsələsinə toxunmaq bir az yaxşı çıxmır. Amma dərsliyi də, qələmi də, dəftəri də insan pulla alır, havayı heç kimə verilmir. Dövlətimiz sağ olsun, dərslikləri pulsuz verir. Amma dəftəri, qələmi almalısan axı. Ona görə də oxumaqda bir az da həvəsli olasınız deyə, İlyas Babayev saytının təsis etdiyi kiçik bir mükafat var. Məktəbin pedaqoji şurasının qərarı ilə keçən ilin yekunlarına görə, ən yaxşı şagird Hacıbəyov Həzrət Bəhruz oğlu həmin mükafatı qazanıb.

**Xanəli Absəlimov:** Həm də uzaqdan gəlir, 4 km

yolu piyada gəlir.

**Faiq Babayev:** Burada həm pul mükafatıdır, həm də İlyas Babayevin həyatı haqqında bir kitabdır. Pul mükafatını valideyninə, kitabı isə özünə təqdim edirəm. (*Mükafatı təqdim edir*). Bayaq deyildi ki, altıncı sinifdə oxuyanlar müəlliflərindən biri atam olan Azərbaycan tarixi kitabını oxuyurlar. Elmdə, elmi iş sahəsində İlyas müəllimin kiçik oğlu Fuad daha çox onun davamçısı adlandırıla bilər. Mən onun böyük oğluyam və bəlkə də dərslik məsələsində onun davamçısı adlandırıla bilərəm. Sizin məktəb doqquzillikdir, onuncu və on birinci sinifləri inşallah başqa yerdə oxuyacaqsınız. Amma mən bu üç kitabı məktəbin kitabxanasına, şəxsən Sahib müəllimə təqdim edəcəyəm. Bu üç kitabın - onuncu, on birinci sinif dərsliklərinin müəlliflərindən biri də mənəm. (*Təqdim edir*)

**İsrafil Qurbanov:** İlyas müəllimi çox yaxından tanıyan qohumu Ramiz müəllim uzun illər bizim Rustov kənd xəstəxanasının baş həkimi olub. İlyas müəlimi çox cavanlıqdan yaxşı tanıyan bir insan kimi istərdim, o da öz fikirlərini bildirsin.

**Ramiz Məmmədov (İlyas Babayevin qohumu):** Mən onun tərcümeyi-halını danışmayacağam, çünki böyük və çox şərəfli yol keçib. İlyas Babayev görkəmli alim olub, böyük alim olub, çox şərəfli yol keçib. Nə qədər Azərbaycan elmi var, nə qədər Azərbaycan xalqı var, İlyas Babayev də xatirələrdə

yaşayacaq. Mən onun ruhuna rəhmət oxuyuram.

**Xanəli Absəlimov:** Uşaqlar, bu gün tarixi gündür, bunu yadınızda saxlayın. Baxın, İlyas Babayevin hörmətinə, onun şərəfinə nə qədər alimlər, vəzifəli şəxslər, Prezident Administrasiyasının əməkdaşı, təhsil şöbəsinin müdiri gəliblər. Görün, bu adamın elmdə tutduğu yerlə yanaşı, xalq arasında da böyük hörməti olub. Bu gün tarixi bir gündür. Ola bilsin vaxt keçəcək, siz böyüyəcək və deyəcəksiniz ki, bir vaxt məktəbimizə alimlər, böyük şəxsiyyətlər gəlmişdi, belə bir təqdimat oldu. Bu, məktəbimizin tarixində, məktəbimizin həyatında əlamətdar günlərdən biridir. Allah İlyas Babayevə rəhmət etsin, ruhu şad olsun, qəbri nurla dolsun. Bu gün onun ruhu şad olsun ki, bu qədər insan onun şərəfinə buraya toplaşıb. Sağ olun.

*Hazırladı: Gündüz Nəsibov, 1905.az*

## Babam İlyas Babayevin xatirəsinə

18 yaşıma kimi hər ad günümü təbrik edən, məni elmə aşiq edən və yönləndirən, azadlığın nə olduğunu və nə qədər müqəddəs olduğunu başa salan, öyrədən, getdiyi hər ölkədən mənə hədiyyələr alan, hər fürsətdə mənə açıqca yazan, həyatımla maraqlanan, məni heç bir şübhə olmadan, istər uğurlu olum, istər uğursuz olum, sevən insan idi. Mən gedib başqa ölkədə təhsil almaq istədiyimi deyəndə ən çox dəstək olan insan da babam idi. Bunu demək belə ürəyimi sıxır, ancaq axırıncı dəfə Bakıya gələndə babamın yasında qarşılaşdığım sevdikləri biləndə ki, mən onun nəvəsiyəm, məni tanıdılar. İş yoldaşları tez-tez işdə məndən danışdığını, mənim həyatım və gələcəyimlə maraqlandığını dedilər. Və mən həyatımda ilk dəfə anladım ki, həqiqətən də insanı heç bir şərt olmadan sevən doğmaları var. Həmişə qürur mənbəyim idi, həmişə də elə qalacaq.

Mən ancaq indi-indi başa düşürəm ki, insanlar ölümdən sonrakı dünyaya niyə inanırlar. İlk dəfədir ki, səmaya inanmağa və babamın hələ də yanımda, həyatımda olduğuna inanmaq istəyirəm. Bütün bunlar sonsuz fəlsəfi sualları yaradırsa belə, onun məndəki təəssüratları o qədər güclüdür ki, o mənimlə birlikdə, mənim qəlbimdə və düşüncəm-

də həmişə yaşayır və yaşayacaq. Aforizm kimi söhbətarası istinad edərək istifadə etdiyim cümlələri və s.

Məndəki baba təəssüratı daha fərqlidir, çünki o təkcə baba rolunu canlandırmırdı mənim üçün, o həm də böyük intellektual şəxsiyyət idi və hələ də elədir mənim gözümdə. İndi öz təhsil həyatımdakı uğurumun ən böyük səbəbi odur, elmə və təhsilə babam sayəsində aşiq olmuşam.

Həqiqi bir elit, intellektual, ziyalı idi və həmişə də elə qalacaq. Bilərək ömrünün axrına kimi ifadəsini istifadə etmədim, çünki İlyas Babayev bir ömrün axırına kimi sığışdırılacaq bir həyat yaşamayıb. Onun şəxsiyyəti əbədidir, onun kimi insanlar ölmür, onun kimi insanların adı kitablarda, və insanların dillərində, ürəyində, fikirlərində qalır, yaşayır.

Allah sənə rəhmət etsin babacan, ümid edirəm ki, bir də rastlaşacağıq kainatın hər hansı bir nöqtəsində, əgər elə bir nöqtə varsa.

*Şəhla Babayeva*

## Kitabın içindəkilər

Tərtibçidən ........................................................3
**Şahin Fazil.**Qəzəl ............................................5
**Faiq Babayev.** Atam haqqında ............................7
**Qafar Cəbiyev.** Sadə insan, səmimi dost, böyük alim ............................................................... 12
**Zaur Həsənov.** Qədim tarixə və arxeologiyaya münasibət mədəniyyətini yaratmış alim ............18
**Anar İsgəndərov.** Professor İlyas Babayev haqqında düşüncələrim .......................................23
İlyas Babayev (1935-2017) ....................................26
**Fəridə Məmmədova.** İlyas Babayev haqqında ..39
**Tarix Dostiyev.** Səmimi insan, görkəmli alim: arxeoloq İlyas Babayev haqqında xatirə səhifələri .........................................................40
**AbbasSeyidov.**Tarixçi-arxeoloq-numizmat alim İlyas Babayev............................................ 48
**İradə M.Nəcəfova.** İlyas Babayevi xatırlayarkən.....................................................53
**Təvəkkül Əliyev.** İlyas müəllim – xatirələrimdə yaşayan alim..................................................56
**Bəhlul İbrahimli.** Elmimizin ağsaqqalı ...............61
**Maarif Xalıqov.** Xeyirxah məsləhətçi ..................65
**Dəyanət Musayev.** Bizim İlyas müəllim ............68
**Elçin Cəfərov.** Təəccüblü dərəcədə sadə, təvazökar və mədəni insan.......................................... 72

**Maral Poladova.** Yaddaşlarda izi qalan tarixçi alim ........................................................................74
**Şəlalə Məhyəddinqızı.** Ölümünə heyfsiləndiyim alim ..................................................................... 80
**Kamil Dərələyəzli.** Böyük itki ...........................88
**Laçın Mustafayev.** Elmin zirvəsində: İlyas Babayev ...................................................................94
**Qəhrəman Ağayev.** İlyas Babayev, İlyas müəllim! ..........................................................................100
**Mədət Qurbanov.** O mənim üçün ideal bir insan idi........................................................................103
**Gəray Qurbanov.** Nurlu insan, qayğıkeş ata, əziz və doğma dayıma ........................................106
**Saleh Absəlimov.** İlyas müəllimin əziz xatirəsinə ........................................................................108
"İlyas Babayev təqaüdü"təqdim edildi ..............110
**Şəhla Babayeva.** Babam İlyas Babayevin xatirəsinə.........................................................................124

**İlyas Babayev (1935-2017) XATİRƏLƏRDƏ**
**Birinci kitab**

Məsləhətçi:
**Faiq Babayev**

Məsul redaktor:
**Gündüz Nəsibov**

Bədii redaktor:
**Mətanət Babayeva**

Texniki redaktor:
**Təmkin Məmmədli**

Cildin dizaynı:
**Elviz İsmayilov**

Səhifələnmə:
**Qoca Absəlimov**